Xalqın qəzeti!

# Xalq qəzeti

№ 70 (30474) 5 aprel 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Afrika Azərbaycana böyük ümid və ehtiramla baxır

## Konqo Respublikası Prezidentinin rəsmi qarşılanma mərasimi



**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun aprelin 4-də rəsmi qarşılanma mərasimi olub.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Konqo Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Konqo Prezidenti Deni Sassu-Nqessonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Konqo Prezidentinə raport verdi.

Prezident Deni Sassu-Nqesso Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Konqo Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Konqo Prezidentinə, Konqo nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Konqo Prezidenti Deni Sassu-Nqessonun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

# Azərbaycan Avropa İttifaqından ədalətli mövqe gözləyir

**Aprelin 4-də Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Telefon danışığı əsnasında tərəflər Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər, bu xüsusda, bərpaolunan enerji, nəqliyyat bağlantıları, enerji təhlükəsizliyi və digər əməkdaşlıq sahələri qeyd olunub.

Söhbət zamanı 2022-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Azərbaycanın sədrliyi ilə Bakıda keçiriləcək COP29-un iqlim fəaliyyəti və yaşıl keçid sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığı bildirilib.

Avropa Komissiyasının Prezidenti Avropa İttifaqının humanitar minatəmizləmə fəaliyyətində Azərbaycana dəstək göstərməyə hazır olduğunu vurğulayıb.

Telefon danışığında aprelin 5-də Brüsseldə keçiriləcək üçtərəfli görüş məsələsi qaldırılıb. Prezident İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinken ilə müzakirə olunduğu kimi, bu görüşlə bağlı Azərbaycan tərəfinin mövqeyini ifadə edib və regional inklüzivliyin vacibliyini bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## "Sərhədsiz Reportyorlar" Fransa Xarici İşlər Nazirliyinin ruporuna çevrilib

REPORTERS WITHOUT BORDERS
FOR PRESS FREEDOM

Səhifə ⇨ 4

## Hayların "yeraltı müharibə"si davam edir

Səhifə ⇨ 6

## Daxili işlərimizə müdaxilə qəbuledilməzdir

**Prezidentin Mətbuat Xidməti AZƏRTAC-ın sualını cavablandırıb.**



**Sual:** Dünən ABŞ Dövlət katibi Antoni Blinkenlə Prezident İlham Əliyev arasında telefon danışığı ilə əlaqədar ABŞ tərəfindən verilmiş mətbuat açıqlamasında qeyd olunur ki, telefon danışığı zamanı müzakirə edilən məsələlərdən biri də insan hüquqları olmuşdur. Bu barədə nə deyə bilərsiniz?

**Cavab:** Bəli, telefon danışığı əsnasında bir çox məsələlərə, o cümlədən bu məsələyə də toxunulmuşdur. Prezident İlham Əliyev tərəfindən bildirilib ki, insan hüquqları məsələsini bəhanə edərək Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri tamamilə qəbuledilməzdir. Bir sıra Qərb ölkələrinin bu məsələ ilə bağlı ikili standartlara əsaslanan qərəzli açıqlamalarını qəbul etmirik. Bu xüsusda dövlətimizin başçısı Dövlət katibi Antoni Blinkenə Ermənistanda müxalifət nümayəndələrinin həbsi, hətta həbs müddətində ölüm hallarının olması, insan hüquqlarının pozulması hallarını xatırladıb və bu kontekstdə Qərb ölkələrinin səssizliyinin başadüşülən olmadığını, bu kimi faktların məhz ikili standartların bariz nümunəsi olduğunu qeyd edib.

Prezident İlham Əliyev telefon danışığı zamanı, həmçinin tanınmış jurnalist Culian Assancın məhz jurnalist fəaliyyətinə görə uzun müddət fiziki və mənəvi işgəncələrə məruz qalması məsələsini bildirmişdir. Culian Assancın ABŞ-a ekstradisiya edilmək və edam olunmaq məsələsinin müzakirə edildiyini vurğulamışdır. Dövlətimizin başçısı onu da əlavə etmişdir ki, insan hüquqları məsələsinə təkcə lokal deyil, bütövlükdə qlobal kontekstdə baxılması zəruridir.

## Türkiyə XİN: Brüssel görüşü neytrallığa zərbədir




Səhifə ⇨ 5

# Ermənistanın Qərb ştammlı "dopinq"i

## Bu gün Brüsseldə ABŞ–Avropa İttifaqı alyansı Cənubi Qafqazda Ermənistan üzərindən "böyük oyun"a start verməyi planlaşdırır

**Bu gün Belçika paytaxtında bir araya gələcək ABŞ Dövlət katibi Antoni Blinken, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və Ermənistan baş naziri Nikol Paşinyanın kiber–dialoq formatını təsis edəcəkləri gözlənilir. "Üçlük" İrəvana siyasi, iqtisadi, hərbi və humanitar yardım paketini təsdiqləməyi planlaşdırır. Yeni formatın əsas məqsədi isə Ermənistanın Avroatlantik məkana inteqrasiyasını təşkil etməkdir.**



Aydın məsələdir ki, tərəflər rəsmən açıqlamasa belə, Brüssel görüşündə həm təhlükəsizlik, həm də bölgədəki son vəziyyətlə bağlı məsələlər gündəlikdə olacaq. Heç kəsə sirr deyil ki, indi ABŞ-nin və Avropa İttifaqının strateji hədəfləri Ermənistanın üzünü tam Qərbə çevirməsinə nail olmaqdan ibarətdir. Müttəfiqlərin bu hədəfə əvvəlcədən hesablanmış konkret taktiki addımlarla yanaşacaqları da məlumdur. Ermənistanın maraqlarına gəldikdə isə o, ABŞ – Avropa İttifaqı alyansının Cənubi Qafqazda start verməyi planladığı "yeni oyun"da, sadəcə, icraçı roluna layiq görülüb. Fərqli cəhət ondan ibarətdir ki, son 30 ildə müşahidə etdiyimiz ənənəvi taktika artıq "deformasiyaya" uğrayıb. Yəni, bu ölkə müstəqillik əldə etdiyi andan etibarən Rusiya ilə eyni ittifaqlarda, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) yanaşı təmsil olunub.

Əlbəttə ki, bütün bunlar Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə üçün nəzərdə tutulan taktika idi və yeri gələndə bundan açıq şəkildə istifadə olunurdu. Onu da qeyd edək ki, bu gün rəsmi İrəvanın KTMT ilə bağlı Moskvaya qarşı irəli sürdüyü iddialar İkinci Qarabağ müharibəsində məhz bu alyansın, yaxud Rusiyanın Azərbaycanla döyüşməməsi üzərində qurulub. Bu kontekstdən yanaşanda Ermənistanın Qərbə istiqamətlənmək kursundan həm də Azərbaycana təsir aləti kimi istifadə olunmaqdadır. Əgər bu xarakterli təşəbbüslər Hayastanın daxili ehtiyaclarını ödəmək, hansısa islahatları həyata keçirməkdən ötrü edilsəydi, bu, onun daxili işi sayılardı. Fəqət, bu dəfə kələfin ucu daha dərindədir.

### Ağ ev yenə altməqsədini "malalamağa" çalışır

Brüssel görüşünə "moderatorluğu" boynuna götürmüş supergücün – ABŞ Dövlət katibinin 5 aprel görüşü ərəfəsində Prezident İlham Əliyevə telefon açması, "üçlüy"ün məqsəd və mövqelərini izah etməyə cəhd göstərməsi başadüşülən idi. Əlbəttə ki, məlum telefon zəngini şərtləndirən əsas amil kimi Azərbaycan XİN-nin Brüssel görüşü barədə 10 gün bundan əvvəl – martın 27-də verdiyi bəyanatı qeyd etməliyik. Həmin bəyanatda aydın şəkildə qeyd olunur ki, Avropa İttifaqı və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır və ikili standart yanaşmasına əsaslanır. Eləcə də sözügedən Brüssel görüşünün tam şəffaf şəkildə keçirilmədiyi, regional inklüzivlikdən məhrum olduğu vurğulanan bəyanatda bu formatda görüşün regionda təşviq edilən və çox ehtiyac duyulan etimad quruculuğuna və inteqrasiyaya zidd olduğu təşkilatçıların nəzərinə çatdırılır: "Bu konfrans, erməni tərəfini xoş niyyətlə danışıqlara sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və "təsir dairələri" yaradır".

Ağ ev rəsmisi Antoni Blinkenin telefon "izahatını" zərurətə çevirən daha vacib məqam Prezident İlham Əliyevin təkcə Cənubi Qafqazda deyil, həmçinin beynəlxalq müstəvidə diplomat və dövlət başçısı kimi artan nüfuzu və çəkisidir. Artıq bu amillə hesablaşmamaq mümkün deyil. Necə ki, Bakının iştirakı olmadan Cənubi Qafqaz gündəliyinin istər bölgənin daxilində, istərsə də ondan kənarda – Avropada, okeanın o tayında müzakirə predmetinə çevrilməsi qeyri-realdır. Hər şeydən göründüyü kimi, Azərbaycan hakimiyyətinin bununla bağlı qətiyyətli sözünü Vaşinqton da eşitməyə məcburdur.

**(ardı 4-cü səhifədə)**

# Liderlərin təkbətək görüşü



Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə təkbətək görüşü olub.

# Azərbaycan – Konqo sənədlərinin imzalanması



Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun iştirakı ilə Azərbaycan–Konqo sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso "Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə"ni imzaladılar.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Konqo Respublikasının Milli Neft Cəmiyyətinin baş direktoru Maixent Raoul Ominga "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında təlim haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Konqo Respublikasının Milli Neft Cəmiyyətinin baş direktoru Maixent Raoul Ominga "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında "Congolaise de Raffinage" neft emalı zavodunun təkmilləşdirilməsi və genişləndirilməsi haqqında Şərtlər Razılığı"nı imzaladılar.

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Konqo Respublikasının ətraf mühit, dayanıqlı inkişaf və Konqo hövzəsi naziri xanım Arlette Soudan Nonault "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Konqo Respublikasının Ətraf Mühit, Davamlı İnkişaf və Konqo Hövzəsi Nazirliyi arasında ətraf mühit, təbii sərvətlərin davamlı idarə olunması və iqlim dəyişmələri üzrə əməkdaşlıq sahəsində Niyyət Protokolu"nu imzaladılar.

# Geniş tərkibdə görüş



Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə geniş tərkibdə görüşü keçirilib.

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Mən Sizi bir daha salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır və bu gün təkbətək görüşdə biz bir çox məsələləri geniş müzakirə etdik. Gündəliyimiz kifayət qədər genişdir. Biz bu gün siyasi, iqtisadi, investisiya, energetika və digər sahələrdə mümkün olan əməkdaşlıq haqqında danışmışıq. Müzakirə olunan bütün məsələlərlə bağlı bizim fikrimiz üst-üstə düşür. Təbii ki, səfəriniz bizim gələcək əməkdaşlığımıza da çox müsbət təsir göstərəcəkdir. Bizim siyasi əlaqələrimiz daha da möhkəmlənəcək. Ümid edirəm ki, səfərdən sonra əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsində müsbət dinamika yaranacaq. Energetika və kənd təsərrüfatı sektorlarındakı əməkdaşlıq haqqında biz Sizinlə bu gün geniş fikir mübadiləsi aparmışıq və yenə də fikir ayrılığı yoxdur. COP29-la bağlı birgə işləməyə hazırıq və bizə verdiyiniz dəstəyə görə sizə təşəkkürümü bildirirəm.

Bu gün, eyni zamanda, təhsil, mədəniyyət və digər sahələrdəki əməkdaşlıq imkanlarını da müzakirə etdik və apardığımız bütün müzakirələr bir daha göstərir ki, bizim vahid mövqeyimiz bu məsələ ilə bağlı vardır.

Sizin rəsmi səfərinizdən öncə Konqodan və Azərbaycandan nümayəndə heyətlərinin qarşılıqlı surətdə səfərləri təşkil edilmişdir. Bu, səfərə hazırlıq məqsədi daşıyan addımlar idi. Əminəm ki, bu gün imzalanacaq sənədlər və əldə edilmiş razılaşmalar bizim əməkdaşlığımızı böyük dərəcədə gücləndirəcək.

Bir daha xoş gəlmisiniz.

***

**Sonra Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso çıxış edərək dedi:**

– Cənab Prezident.

Mən, ilk növbədə, Sizə təşəkkürümü ifadə etmək istərdim ki, Siz bizə şərait yaratdınız, biz Sizin gözəl ölkənizi, gözəl şəhərinizi, paytaxtınızı ziyarət edə bildik. Biz uzun müddətdir ki, Bakı haqqında eşitmişik və Sizin dəvətiniz sayəsində biz Azərbaycanı və Bakını ziyarət etdik. Buna görə Sizə bir daha təşəkkürümü ifadə edirəm.

Siz bizim təkbətək görüşümüzün icmalını etdiniz. Mən, sadəcə, bir-iki şərh vermək istərdim ki, bizim ölkələrimiz arasında çox böyük potensial var və o, bizim əhalimiz üçün inkişafa töhfə verə bilər. Mən məsələn, qeyd etmişdim ki, bizim ölkəmizin çox böyük kənd təsərrüfatı potensialı var və biz əkin sahələrinin bəlkə də cəmi 3 faizini istifadə edirik, bu da o deməkdir ki, yerdə qalan hamısı istifadə üçün hazırdır. Bizim bol su mənbələrimiz və bütün ilboyu şəfəq saçan Günəşimiz var. Biz bu potensialdan və sizin bu sahədəki böyük təcrübənizdən kənd təsərrüfatımızın inkişafı üçün istifadə edə bilərik. Məsələn, biz Konqoda məhsul istehsal edə və sonra onu ixrac edə bilərik.

Mən, eyni zamanda, bir daha qeyd etmək istərdim ki, bərpaolunan enerji sahəsində də bizim çox böyük potensialımız var, bütün ilboyu Günəşimiz var və Azərbaycanın bu sahədəki zəngin təcrübəsindən yararlana bilərik.

# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış etdi.**



## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz. Sizin səfəriniz tarixi səfərdir. İlk dəfədir ki, Konqo Respublikasının Prezidenti Azərbaycana rəsmi səfər edir. Artıq demək mümkündür ki, səfərin çox gözəl nəticələri olacaq.

Biz indicə əməkdaşlıq haqqında Bəyannamə imzalamışıq. Bu, çox önəmli və sanballı bir sənəddir, bizim əməkdaşlığımızın perspektivlərini müəyyən edəcək. Əminəm ki, Konqo ilə Azərbaycan arasında güclü dostluq əlaqələri yaradılacaqdır.

Bu gün həm təkbətək görüş əsnasında, həm də ki, heyətlərin iştirakı ilə görüşdə bir çox önəmli məsələlər müzakirə olundu, fikir birliyi ifadə edildi. Bizim siyasi əlaqələrimizin bundan sonra uğurla inkişaf edəcəyinə heç kimdə şübhə yoxdur və bu gün imzalanmış əməkdaşlıq haqqında Bəyannamə bunu bir daha təsdiq edir.

Biz bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək əsasında qarşılıqlı fəaliyyətimizi davam etdirəcəyik, xüsusilə BMT-də və Qoşulmama Hərəkatı çərçivəsində. Qoşulmama Hərəkatına bu ilin yanvar ayına qədər 4 il uğurla sədrlik etmiş Azərbaycan Konqonun dəstəyini hər zaman hiss etmişdir. Bizim təşəbbüslərimizə Konqo hər zaman öz dəstəyini vermişdir və bunun nəticəsində sədrliyimiz dövründə Qoşulmama Hərəkatının institusional inkişafı da təmin edilmişdir. Parlament Şəbəkəsi, Gənclər və Qadınlar platformaları məhz sədrliyimiz dönəmində yaradılmışdır. Bu gün Qoşulmama Hərəkatı əvvəlki dövrlərə nisbətən daha güclü təşkilatdır. Bu təşkilatın dünya miqyasında və dünyada gedən proseslərdə oynadığı rolunun artırılması hesab edirəm ki, hamımızın marağındadır. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci böyük təsisatdır, 121 üzvü var. Biz bu təsisatın, bu hərəkatın gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparmışıq.

Onu da bildirməliyəm ki, Qoşulmama Hərəkatına sədrlik dövründə bizim prioritetlərimizin içində neokolonializmə qarşı mübarizə məsələləri durmuşdur, bu gün də bu belədir. Bizim xarici siyasət istiqamətləri arasında bu sahə xüsusi önəm daşıyır. Bir müddət bundan əvvəl Azərbaycanda Bakı Təşəbbüs Qrupu yaradılmışdır. Bu, beynəlxalq qurumdur. Bu qurumun əsas məqsədi kolonializmin, yəni müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq və bu gün müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək, o xalqların hüquqi əsaslar üzərində azadlığa qovuşmasını təmin etməkdir. Bakı Təşəbbüs Qrupu bu gün dünya miqyasında böyük hörmətə malik olan qurumdur və yenə də deyirəm ki, bu qurumun nəticələri göz qabağındadır.

Biz bu gün təbii ki, iqtisadi sahədə də əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparmışıq. Nümayəndə heyətlərinin üzvlərinə konkret tapşırıqlar verilmişdir. Azərbaycan Konqoda bir çox investisiya layihələrində iştirak etmək fikrindədir, ilk növbədə, kənd təsərrüfatı sahəsində. Bərpaolunan enerji sahəsində, energetika sahəsində, mədənçilik və digər sahələrdə əməkdaşlıq üçün çox gözəl perspektivlər var. Bu gün müzakirə aparıldı, müvafiq göstərişlər verildi və əminəm ki, gələcək aylar ərzində bizim nümayəndələrimiz bir-biri ilə sıx təmasda olacaqlar.

Onu da bildirməliyəm ki, rəsmi səfər ərəfəsində səfəri yaxşı hazırlamaq və yaxşı nəticələrə nail olmaq üçün qarşılıqlı surətdə Konqodan Azərbaycana, Azərbaycandan Konqoya nümayəndə heyətlərinin səfərləri də təşkil edilmişdir. O səfərlər də göstərdi ki, bizim strateji əməkdaşlığımız üçün çox gözəl zəmin var.

Bir məsələ də bu gün müzakirə edildi. Cənab Prezident xatırladı ki, vaxtilə sovet dövründə Konqodan olan tələbələr Azərbaycanda ali məktəblərdə təhsil almışlar, biz bu ənənəni bərpa etmək istəyirik və müvafiq göstərişlər verildi.

Bir sözlə, mən deyəndə ki, bu səfər tarixi səfərdir, sadəcə, ona görə yox ki, bu, ilk səfərdir. Hesab edirəm ki, məzmun, mahiyyət nöqteyi-nəzərindən də bu səfəri tarixi səfər adlandırmaq olar. Ölkələrimiz arasındakı əlaqələrdə yeni səhifə açılır. Biz öz siyasi iradəmizi ortaya qoymuşuq və əminəm ki, əldə edilmiş bütün razılaşmalara birgə səylərlə çatacağıq.

Mən bu gün cənab Prezidenti COP29 tədbirində iştirak etmək üçün dəvət etmişəm və nümayəndə heyətlərinin üzvlərinə də göstəriş verildi ki, bu məsələ ilə bağlı da ciddi əməkdaşlıq yaradılsın. Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək hesab edirəm ki, məqsədəmüvafiq ola bilər.

Bir daha hörmətli cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizə cansağlığı, xalqınıza daim firavanlıq və rifah arzulayıram. Sağ olun.

***

Sonra Konqo Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Deni Sassu-Nqessonun bəyanatı

– Cənab Prezident.

Hörmətli dostlar, media nümayəndələri.

Cənab Prezident bir az əvvəl tarixi məqamlardan danışdı və bu, həqiqətdir. Biz Azərbaycan ilə Konqo arasında əlaqələrdə tarixi anlar yaşayırıq. Mən Prezidentə səmimi-qəlbdən təşəkkür etmək istərdim ki, bizi dəvət edərək bu rəsmi səfəri reallaşdırmaq üçün bu şəraiti yaradıb. Bu səfər bizə bu ölkənin gözəlliyini, onun iqtisadi inkişafını, Bakı şəhərinin gözəlliyini görmək imkanı verdi. Cənab Prezident, mən bu dəvətə görə Sizə təşəkkür etmək istərdim.

Prezident bizə Konqo ilə Azərbaycan arasında bütün sahələrdə bu gözəl əməkdaşlıq səhifəsini yaratmaq imkanını verdi. Hesab edirəm ki, Prezident bir az əvvəl apardığımız danışıqların bir sıra aspektlərini çox yaxşı şərh etdi. Mən əlavə etmək istərdim ki, biz xüsusilə Qoşulmama Hərəkatındakı sədrliyi zamanı Prezidentin liderliyini alqışladıq. Həmçinin biz Azərbaycanın bu yaxınlarda digər ağır mübarizə sahəsində - iqlim dəyişiklikləri sahəsində oynayacağı rolu alqışlayırıq, çünki Azərbaycan COP29-a ev sahibliyi edəcək. Biz artıq ölkələrimiz arasında qurulmuş əlaqələri alqışlayırıq və Azərbaycanı COP29-a hazırlıq çərçivəsində də alqışlayırıq. Biz Azərbaycan rəsmilərini dəvət etdik ki, iqlim dəyişikliklərinə qarşı mübarizədə ölkəmizin yanında olsun. Biz Prezidentə Konqoda, Brazzavildə təşkil etdiyimiz dünyanın ən böyük üç tropik meşə hövzəsi - Amazoniya, Cənub-Şərqi Asiyada Borneo Mekonq və Konqo hövzəsi sammitində güddüyümüz məqsədlər barəsində məlumat verdik. Bu sammit ötən ilin oktyabrında keçirilib və biz Prezidentə yalnız bu sammitin uğuru barəsində məlumat verə bilərik. Ondan sammitin nəticələrini nəzərə almasını ancaq xahiş edə bilərik, çünki bu il Azərbaycan COP29-a ev sahibliyi edəcək.

Biz, eyni zamanda, bu il iyulun 2-3-də Brazzavildə keçiriləcək Afrika və Qlobal Meşəsalma Onilliyi tədbiri barədə məlumat verdik. Bu, Şarm-əl Şeyxdə keçirilmiş COP zamanı Konqo tərəfindən irəli sürülmüş təşəbbüsdür. Biz Afrika və Qlobal Meşəsalma Onilliyi ideyasını irəli sürdük. Bu ideyanı konkretləşdirmək, bu layihəni reallaşdırmaq üçün Afrika İttifaqı, BMT və Konqo konfrans təşkil edəcək. Biz COP29-un təşkili ilə məşğul olan Azərbaycan rəsmilərini bu ideyanın reallaşdırılması və sonra onun Nyu-Yorkda BMT-nin Baş Assambleyasının növbəti sessiyasında qəbul olunması üçün iyulda bizə qoşulmağa dəvət etdik.

Prezident tərəfindən digər əməkdaşlıq məsələlərinə də toxunuldu. Karbohidrogen, kənd təsərrüfatı, mədənçilik, informasiya, bərpaolunan enerji sahələrində iki ölkənin mühüm potensialının olduğu qeyd edildi. Biz öhdəlik götürdük ki, ölkələrimiz arasında qeyd olunan bütün sektorlarda bu əməkdaşlıq inkişaf etsin. Prezident də dedi, biz öz nümayəndələrimizə təlimat verdik ki, bu layihələri yekunlaşdırmaq üçün birgə işləsinlər. Biz danışıqlarımızın nəticələrindən çox məmnunuq. Burada bizə göstərilən səmimi və dostcasına qəbula görə çox xoşbəxtik.

Biz inanırıq, düşünürük ki, burada ölkələrimiz arasında əməkdaşlıq istiqamətində çox yaxşı addım atdıq və biz mütləq qalib olacağıq. Ona görə də mən cənab Prezidentdən xahiş etdim ki, Konqoya dostluq səfəri etməklə bizi şərəfləndirsin. Mən ona dəvətnamə göndərəcəyəm və biz Prezidenti ölkəmizdə qəbul etməkdən şərəf duyacağıq. Bu da başqa bir tarixi hadisə olacaq. Prezidentin bizim ölkəmizə səfəri məhsuldar əməkdaşlığımızda növbəti addım olacaq.

Mən bizim tərəfimizdən ünvanlanan bütün sorğulara müsbət cavab verdiyinə görə Prezidentə təşəkkürümü ifadə edirəm. Bildirmək istərdim ki, biz beynəlxalq səviyyədə - istər BMT, istər Qoşulmama Hərəkatı çərçivəsində, istərsə də digər sahələrdə birlikdə mübarizə aparacağıq. Çünki söhbətimiz zamanı fikirlərimizin bir-biri ilə yüksək səviyyədə üst-üstə düşdüyünü gördük. Prezident və mənim tərəfimdən imzalanan Bəyannamə mühüm mərhələdir. Fikrimcə, bu, gələcək aylarda və illərdə ölkələrimiz arasında bütün sahələrdə fəaliyyəti istiqamətləndirəcək.

Sonda mən bu qəbula və keçirdiyimiz görüşlərin uğurlu olmasına görə Prezidentə təşəkkürümü bildirirəm.

# Azərbaycan Prezidenti adından Konqo Prezidenti şərəfinə rəsmi nahar



**Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun şərəfinə rəsmi nahar verilib.**

***AZƏRTAC***

# Azərbaycanın Baş nazirinin Konqo Prezidenti ilə görüşü

**Aprelin 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycanın Afrika dövlətləri ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyi bildirilib. Ölkəmizin Qoşulmama Hərəkatı və digər beynəlxalq təsisatlar çərçivəsində Konqo ilə əməkdaşlıq etdiyi vurğulanıb.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə COVID-19 pandemiyası ilə bağlı çağırışlara vaxtında və adekvat cavab verilməsi, Qoşulmama Hərəkatının təsisatlanması, həmçinin bir çox digər istiqamətlərdə səy göstərdiyi diqqətə çatdırılıb.

Görüşdə Azərbaycan ilə Konqo arasında iqtisadi-ticari, neft sənayesi, ətraf mühit, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əməkdaşlıq imkanları nəzərdən keçirilib. Həmçinin səfər çərçivəsində imzalanmış ikitərəfli sənədlərin icrası ilə bağlı məsələlər müzakirə olunub.

***XQ***

# Deni Sassu-Nqesso Milli Məclisdə

**Aprelin 4-də Milli Məclisin sədri Sahibə Qafarova Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin sədri yüksək səviyyəli qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin inkişafında mühüm rolunu qeyd edərək, bu səfərin ölkələrimiz arasında əməkdaşlığın inkişafı üçün qarşılıqlı maraq və niyyətin təzahürü olduğunu diqqətə çatdırıb. O deyib ki, bu səfər Azərbaycanla Konqo arasında əlaqələrin inkişafına böyük təkan verəcək.

Görüşdə qeyd olunub ki, bu gün ölkələrimiz arasında beynəlxalq təşkilatlar, xüsusən Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və faydalı əməkdaşlıq mövcuddur. Konqo Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılmasını dəstəkləmiş ölkələrdən biridir və Azərbaycan da təsisata sədrliyi dövründə Afrika ölkələri ilə əməkdaşlığını həm ikitərəfli, həm də çoxtərəfli qaydada inkişaf etdirməyə, ümumi maraqlarımızın müdafiəsinə xüsusi diqqət yetirib.

Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso Prezident İlham Əliyevlə keçirdiyi görüşə dair təəssüratlarını bölüşüb. Qonaq səfəri çərçivəsində ölkələrimiz arasında imzalanmış sənədlərin qarşılıqlı əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Görüşdə parlamentlərarası əməkdaşlığın ölkələr arasında əlaqələrdə mühüm əhəmiyyətindən bəhs olunub. S.Qafarova Milli Məclisin Konqonun həm Milli Assambleyası, həm də Senatı ilə əlaqələri inkişaf etdirməyə hazır olduğunu deyib. Bildirib ki, parlament üzvləri arasında təmaslar, qarşılıqlı səfərlər münasibətlərə töhfə verə bilər.

Milli Məclisin sədri bildirib ki, Azərbaycan parlamenti dünyanın bir çox ölkələri ilə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir. Onlardan biri də Qoşulmama Hərəkatıdır. Azərbaycanın sədrliyi dövründə Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə Hərəkatın Parlament Şəbəkəsi yaradılıb. Hazırda Azərbaycanın sədrlik etdiyi Şəbəkədə 70-dən artıq ölkə təmsil olunur. Konqo parlamentinin də Şəbəkənin işində fəal iştirakı ümumi maraqlarımıza xidmət edəcək.

Konqo Prezidenti ölkəsinin qanunverici orqanının Azərbaycan parlamenti ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsini dəstəklədiyini vurğulayaraq, qarşıdakı dövrdə bu istiqamətdə fəal addımların atılacağına inamını ifadə edib.

Prezident Deni Sassu-Nqesso isə xatırladıb ki, Afrika dövlətləri, o cümlədən Konqo uzun illər ərzində müstəmləkəçilik siyasətinə məruz qalıb və azadlıqları uğrunda mübarizə aparıb. Bu gün Afrika ölkələri bəzi dövlətlərin hegemonluq, hökmranlıq, yerli xalqların sərvətlərinin istismar olunmasına qarşıdır. O deyib ki, indiki gərgin dövrdə sülhpərvər dövlətlərin birgə fəaliyyəti, bu kimi neqativ addımlara qarşı birgə mübarizəsi çox vacibdir. Ona görə də ölkələrimiz istər BMT, istər Qoşulmama Hərəkatı çərçivəsində, istərsə də digər beynəlxalq təşkilatlarda təzyiqlərə, ikili standartlara qarşı birlikdə mübarizə aparacaq.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172 (Cild I) ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nın 4.5-ci bəndində "rəisinin müşaviri (köməkçisi), baş idarə, idarə (departament, şöbə, bölmə) rəhbərləri və onların müavinləri" sözləri "aparatının rəhbəri və onun müavini, Xidmətin aparatında baş idarə, idarə (şöbə, bölmə) rəhbərləri və onların müavinləri, Xidmət rəisinin müşaviri və köməkçisi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 aprel 2024-cü il**

# Seneqal Respublikasının Prezidenti Zati-aliləri cənab Bassiru Diomaye Fayeyə

**Hörmətli cənab Prezident,**

Seneqal Respublikasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, dost Seneqal xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycan-Seneqal dostluq əlaqələri xoş ənənələrə malikdir. Ölkələrimizin həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusilə də BMT və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlığı məmnunluq doğurur.

Müasir dövrdə hələ də davam edən neokolonializm siyasətinin aradan qaldırılması istiqamətində Sizin apardığınız qətiyyətli fəaliyyət təqdirəlayiqdir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə təsis olunmuş Bakı Təşəbbüs Qrupuna dəstəyiniz kolonializmə və onun yeni formalarına qarşı mübarizənin aparılması, müstəmləkəçilikdən əziyyət çəkən xalqların haqlarının qorunması və onların təbii hüquqlarının təmin edilməsi naminə səylərinizin bariz təzahürüdür.

İnanıram ki, Azərbaycan ilə Seneqal arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq məcrasında inkişafı, çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Seneqal Respublikasının milli bayramı

– Müstəqillik Günü münasibətilə də Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 aprel 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli Prezident İlham Əliyev!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizin müdrik liderliyiniz və hökumətinizin paraidman təşəbbüslərinə fəal sərmayə qoyması ilə Azərbaycan Respublikası Paralimpiya Hərəkatında köklü dəyişikliklərə nail olub.

Bir daha Sizə səmimi təbriklərimi çatdırır və paraidman növlərinin daha da inkişafı üçün birgə səylərimizin davam edəcəyinə əmin olduğumu bildirirəm.

**Hörmətlə,**

***Endryu PARSONS,***
***Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti***

# Türkiyəli deputatlar Bakıda



**Aprelin 4-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib.**

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsi önünə əkil qoyublar.

***

Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin (TBMM) NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə qardaş ölkələrimiz arasında münasibətlərin özünün ən yüksək səviyyəsində olduğu, ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutan Azərbaycan və Türkiyənin bütün məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirdiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında qarşılıqlı hörmət və etimada əsaslanan qardaşlıq münasibətlərinin, onların siyasi iradəsinin və qətiyyətinin nəticəsidir ki, münasibətlərimiz müttəfiqlik səviyyəsinə çatıb. Bu gün Azərbaycanla Türkiyənin birgə fəaliyyəti, həyata keçirdikləri irimiqyaslı layihələrin regional və beynəlxalq səviyyədə əməkdaşlığa mühüm töhfələri qeyd edilib.

Qeyd olunub ki, ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsində parlamentlərimiz də mühüm rol oynayır. Eyni zamanda, S.Qafarova özünün Türkiyəyə rəsmi səfərlərini, həmçinin TBMM Sədri Numan Kurtulmuşla görüşlərini məmnunluqla xatırladıb və qarşılıqlı səfərlərin parlamentlərimiz arasında əlaqələrin yüksək səviyyəsinin göstəricisi olduğunu söyləyib. Görüşdə "Azərbaycan Respublikasının Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında əməkdaşlıq haqqında" Şuşa Bəyannaməsinin parlamentlərarası əməkdaşlığa dair bəndinin həyata keçirilməsi və Azərbaycan – Türkiyə müttəfiqlik münasibətlərinin parlament səviyyəsində də əks etdirilməsi baxımından mühüm bir mexanizm olduğu vurğulanıb.

Bu gün bəzi beynəlxalq təşkilatlarda ölkələrimizə qarşı ikili standartların hələ də davam etdiyi vurğulanıb. Türklərə qarşı xüsusi qərəzliliyi ilə seçilən təşkilatlardan biri də Avropa Şurasının Parlament Assambleyasıdır. S. Qafarova təəssüflə qeyd edib ki, bu gün AŞPA Mövlud Çavuşoğlunun dövründəki qurum deyil, çox dəyişib. Artıq AŞPA-da dəyərlər qalmayıb, təşkilat obyektivliyini itirib.

Söhbət zamanı regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasının da vacibliyi qeyd edilib. M.Çavuşoğlu diqqətə çatdırıb ki, Azərbaycanın sabitliyi, inkişafı təkcə region üçün deyil, Avropa və Asiya üçün də əhəmiyyətlidir. O, təəssüflə bildirib ki, bu gün Fransa başda olmaqla, Ermənistana təsir edən ölkələr var. Lakin Azərbaycan tək deyil. Türkiyə sülhü dəstəkləyir və qardaş ölkə bundan sonra da Azərbaycanın yanında olmaqda davam edəcək.

***

Aprelin 4-də Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin Türkiyə Böyük Millət Məclisinin (TBMM) NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olub.

AŞPA-da nümayəndə heyətimizin rəhbəri, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyini deyib. Bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri digər dünya dövlətləri üçün nümunədir. O, əməkdaşlığımızın və dostluğumuzun sarsılmaz olduğunu, qarşılıqlı səfərlərin, keçirilən görüşlərin ümumi məqsədlərə xidmət etdiyini söyləyib.

Görüşdən məmnunluğunu ifadə edən Mövlud Çavuşoğlu dövlətlərimiz və xalqlarımız arasında qardaşlıq əlaqələrinin getdikcə möhkəmləndiyini söyləyib. O, ikitərəfli əlaqələrin inkişafı istiqamətində görülən işlərin təqdirəlayiq olduğunu bildirib. Beynəlxalq təşkilatlar çərçivəsində nümayəndə heyətlərimizin bir-birinin mənafelərini dəstəklədiklərini vurğulayıb, türk dünyasının daha da güclənməsində Türkiyə və Azərbaycanın önəmli rolunu qeyd edib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Azərbaycan və Konqo çoxtərəfli əməkdaşlığa start verir

## *Prezident Deni Sassu-Nqessonun Azərbaycana ilk rəsmi səfəri ölkəmizin Arfika qitəsi ilə əməkdaşlığında yeni səhifə açdı*

**Bu qənaətə gəlməyimizin əsas səbəbi ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində "qara qitə"nin bir çox dövlətləri, o cümlədən Konqo ilə uğurlu fəaliyyətinin nəticəsidir.**

İki ölkə arasında əməkdaşlığa dair Bəyannamənin imzalanmasından sonra mətbuata açıqlamasında bu səfərin tarixi önəminə toxunan Prezident İlham Əliyev bir məqamı xüsusi vurğuladı. Konqo ilə Azərbaycan arasında güclü dostluq əlaqələrinin yaranacağına əminliyini bildirən dövlətimizn başçısı Bakının təşəbbüslərinə bu ölkənin hər zaman dəstək verdiyini bildirdi. Dövlətimizin başçısı belə bir zəmində Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının institusional inkişafının da təmin edildiyinə diqqət çəkdi. Qoşulmama Hərəkatına sədrlik dövründə Azərbaycanın prioritetləri sırasında neokolonializmə qarşı mübarizə məsələlərinin də durduğunu qeyd edən cənab Prezident ölkəmizin xarici siyasətində bu sahənin xüsusi önəm daşıdığını bildirdi.

Onu da qeyd etmək lazımdır ki, həm tarixi, həm də çağdaş dünyanın tələbləri baxımından Azərbaycanın Afrika ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri mövcuddur. 30 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi uğurların Afrika ölkələrinin də marağına səbəb olduğunu deyə bilərik. İndi qarşılıqlı əməkdaşlığın üfüqlərini genişləndirməyin vaxtıdır.

Dövlət başçılarının imzaladığı əməkdaşlığa dair Bəyannamədə Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil olunmuş və müstəmləkəçilik irsinin və onların müxtəlif təzahürlərinin, habelə neokolonial təcrübənin yaratdığı problemlərin müzakirəsi üçün əlverişli şərait yaradan dekolonizasiya və neokolonializm üzrə beynəlxalq konfranslar silsiləsi ayrıca qeyd olunub.

Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonu bu ilin noyabrında Bakıda keçiriləcək COP29 konfransına dəvət edən İlham Əliyev Azərbaycanın bu nüfuzlu tədbirə çox ciddi hazırlaşdığını, bu müstəvidə əməkdaşlığın məqsədəmüvafiq ola biləcəyini söylədi.

Cavab nitqində Azərbaycanla Konqo arasında əlaqələrdə tarixi anlar yaşandığını deyən Deni Sassu-Nqesson ünvanladığı bütün sorğulara müsbət cavab verdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə etdi. Konqonun istər BMT, istər Qoşulmama Hərəkatı çərçivəsində, istərsə də digər sahələrdə Azərbaycanla birlikdə mübarizə aparacağını əminliklə qeyd edən yüksək qonaq ölkəmizin iqlim dəyişiklikləri sahəsində oynayacağı rolu, eləcə də Bakının COP29-a yüksək səviyyədə davam edən hazırlıq işlərini də alqışladığını bildirdi.

Yeri gəlmişkən onu da qeyd edək ki, keçmiş Sovetlər Birliyi dönəmində Afrikanın müxtəlif ölkələrindən çox sayda tələbə Azərbaycanın ali məktəblərində, xüsusilə neft ixtisası üzrə təhsil alıb. Dünyanı cənginə almış koronavirus epidemiyası ilə mübarizədə isə ölkəmizin Afrikaya yardım əlini uzatması faktı Ümumdünya Səhiyyə Təşkilatının hesabatında məxsusi olaraq qeyd edilib. Azərbaycanın Afrika ölkələri ilə əlaqələri pandemiya dövründən sonra daha da genişlənmiş, ikitərəfli münasibətlər yeni istiqamətlərdə inkişaf etmişdir.

Bəli, bu gün Azərbaycanın xoşməramlı çağırışları planetin bütün qitələrində eşidilir və geniş əks-səda verir. Fransa kimi avropalı müstəmləkəçilərin əlindən zülm çəkmiş, əsarətdə yaşamış Afrika ölkələrinin Bakının bununla bağlı sağlam və xoşməramlı siyasətini dəstəkləməsi tam təbiidir. Artıq Azərbaycanı özünə dost ölkə seçmiş Konqo bu sırada birincilərdəndir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Ermənistanın Qərb ştammlı “dopinq”i

(əvvəli 1-ci səhifədə)

### Hayların aldanışı və gerçəklik

Hələ 5 aprel görüşünə qədər Ermənistan mediasında Brüsseldən xoş müjdəli xəbərlərin gələcəyi barədə məlumatlar, rəylər tirajlanmağa başlanmışdı. Erməni ekspertləri hesab edirdilər ki, Brüssel görüşündə əldə olunacaq ən böyük uğur ABŞ və Aİ tərəfindən Hayastan büdcəsinə dəstək məqsədilə əlavə maliyyə resurslarının cəlb olunması sayılacaq. Bundan başqa, ictimai rəydə qərbli tərəfdaşların Ermənistanın ilkin tələbat mallarına və xidmətlərinə, eləcə də strateji məhsullara maneəsiz çıxışını təmin edəcəyi barədə şayiələr də dolaşırdı.

Aydın məsələdir ki, İrəvana güzəşt kimi düşünülmüş bu “humanitar yardım paketi” onun Rusiya bazarından asılılığını minimuma endirmək üçündür. ABŞ və Aİ-nin böhran hallarına qarşı Ermənistana yanacaq və enerji daşıyıcılarının strateji ehtiyatlarını yaratmaqda yardımçı olacaqlarını açıqlamaları da məhz birbaşa Rusiya amili ilə bağlıdır. İntəhası, bütün bunlarla yanaşı, haysevərlərin “yardım paketi”ndə hərbi əməkdaşlıq, ABŞ və Aİ tərəfindən Ermənistana hərbi dəstəyin göstərilməsi barədə mötəbər mənbələrdən yayılan məlumatlar Cənubi Qafqazda “böyük oyunun” ssenarisinin yazılmasından xəbər verir.

Bakını narahat edən əsas məsələ də ermənipərəst institutların ssenaridə gizli saxladıqları bu sahədə əməkdaşlıq planlarıdır. Qabaqcıl hərbi texnologiyanın və döyüş sistemlərinin Ermənistana çatdırılması, erməni hərbçilərinin Avropada və Birləşmiş Ştatlarda təlim proqramlarının artırılması, bu məqsədlə Avropa Sülh Fondunun mexanizminin işə salınması kimi mexanizmlər “üçlüy”ün heç də xoşniyyətli format olmadığına dəlalət edir. Yəni, Qərbin Ermənistanı ikinci Ukraynaya çevirmək planı göz qabağındadır. Bu minvalla Hayastanın “ukraynalaşdırılması” həyata keçirilir. Bu isə Bakı və Ankaradan savayı, Moskvanın və Tehranın da kəskin reaksiyasına səbəb olacaq, Cənubi Qafqazda yeni ayırıcı xətlərin yaranmasına gətirib çıxaracaq. Bəli, Qərbin NATO-nun görünməyən əli ilə Ukraynada olduğu kimi, bu bölgədə də ikinci cəbhəni qızışdırmağa çalışdığı şübhəsizdir. Şimali Atlantika alyansının bu planı baş tutarsa Ermənistanı Əfqanıstan və Suriya kimi, barıt çəlləyinə, terrorçuların, narkomafiyanın toplaşdığı cinayət yuvasına çevrilmək perspektivi gözləyir.

### Tehranın müəmmalı susqunluğu

İlk baxışda belə bir təsəvvür yaranır ki, NATO-nun Şərqi Avropanın ardınca Qafqaza doğru irəliləməsi bəzi bölgə dövlətlərinin müşayiətedici baxışları altında baş verir. Düzdür, Rusiya qərblilərin Ermənistan üzərindən Cənubi Qafqazda yeriməyi hədəflədiyi planlarına ciddi münasibətini açıqlayıb. Kremlin bölgədəki maraqlarının bunca pozulmasına göz yumayacağı heç ağlabatan deyil. Amma biz bu xarakterli kəskin etirazları Tehran və Tbilisidən eşitmirik. Gürcüstanın qeyri-hökumət təşkilatları, müstəqil mediası, tanınmış siyasi analitikləri Brüssel görüşünün Gürcüstan və Azərbaycansız keçirilməsinə etirazlarını bildirsələr də, qərbyönümlü siyasətə üstünlük verən rəsmi Tbilisi bununla bağlı konkret mövqeyini açıqlamayıb.

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri**

Brüsseldəki üçtərəfli görüş ortaya yalnız haçalanmış fikirlər çıxaracaq. Hər kəsə aydın olmalıdır ki, Azərbaycan olmadan Cənubi Qafqazda nə əməkdaşlıq, nə də hərtərəfli təhlükəsizlik təmin oluna bilər. Düzdür, ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevlə telefon danışığında bildirib ki, ABŞ–Avropa İttifaqı–Ermənistan üçtərəfli görüşü əsasən iqtisadi məsələlərə həsr olunub, Bakıya qarşı yönəlməyib. Amma bu görüşdə yalnız iqtisadi və humanitar məsələlərin müzakirə ediləcəyinə inanmaq bir qədər çətindir.

Ümumiyyətlə, Brüssel görüşü ortaya çoxlu suallar qoyur. Əgər görüşün elan edilmiş humanitar tərkibindən danışırıqsa və əgər onlar – Qərb institutları Cənubi Qafqazda əməkdaşlıq və təhlükəsizlik mühiti yaratmaq istəyirlərsə, o zaman gündəmdə mina təhlükəsi və Ermənistanın Azərbaycana vurduğu ziyan, o cümlədən iqtisadi zərərlərlə bağlı məsələnin olmaması çox pis haldır. Bütün bunlar bu və ya digər formada bugünki formatın gündəliyində olmasa, bu, görüşdən əvvəl açıqlanacaq şərhlərdə öz əksini tapmalı idi. Ən azı, Azərbaycanla da belə bir mövzuda dialoq aparılmalı idi. Amma bunların heç biri yoxdur və bu səbəbdən bu gün Belçika paytaxtında keçirilən görüş haçalanmış fikirlərdən başqa heç nə gətirməyəcək. Bir daha təkrar edirəm, artıq hamı bilməlidir ki, Bakının iştirakı olmadan Cənubi Qafqazda istənilən xarakterli əməkdaşlıqdan, yaxud təhlükəsizliyin təminatından söhbət gedə bilməz.

Bu müstəvidə ən maraqlı məqam isə Tehranın müəmmalı tərzdə susmasıdır. Sanki bütün bu proseslər İranın qulağının dibində deyil, haradasa uzaqlarda cərəyan edir. Görünən odur ki, Tehran Ermənistanla sərhədində qatı düşməni NATO-nun elçiləri sayılan ABŞ və Aİ-nin hərbi bazalarını qurmağa hazırlaşdığını hiss eləmir. Bir çox ekspertlər hazırda Cənubi Qafqazda cərəyan edən geosiyasi, hərbi-strateji xarakterli hadisələri bir növ Üçüncü cahan müharibəsinin elementləri, dünyanın “böyük güclər” arasında yenidən bölünməsi ssenarisinin tərkib hissəsi kimi qələmə verirlər.

Qafqazın 2020-ci ilə qədərki status–kvosu Azərbaycan və Türkiyədən başqa bölgədəki aktorların hamısının işinə yarayırdı. Əslində, bu, o zaman Azərbaycan torpaqlarının işğalına və Cənubi Qafqazda ikinci erməni dövlətinin yaranmasına hesablanmış ssenari idi. Taleyin hökmü, İlahi ədalətin sərəncamı ilə bu oyunun qaydalarını Prezident İlham Əliyev pozdu. Artıq bölgədə Azərbaycanın müəllifi olduğu yeni reallıq və tamamilə fərqli status–kvo yaranıb. Nə yazıq ki, Aİ-nin timsalında Qərb və onun ştammlı “dopinq”ini qəbul etməyə razılaşan Ermənistanın havadarları bu reallıqla barışmaqda çətinlik çəkirlər. Onlar Azərbaycanın özünün 30 illik problemini çözdüyünü, ərazi bütövlüyünü və suverenliyini tam təmin etdiyini həzm edə bilmirlər. Artıq, bu, onların problemidir. Azərbaycan bundan sonra heç bir halda “miatsum” diaqnozlu hayların başlarını yenidən qaldırmalarına, “Qafqaz evi”ndə yeni hərbi qarşıdurmanın yaranmasına yol verməyəcək. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, Ukrayna variantında olduğu kimi, Cənubi Qafqazda da növbəti Qərb–Rusiya qarşıdurması həm bölgə dövlətlərinin, həm də Azərbaycanın maraqlarına kökündən ziddir.

### İrəvan qonşularla üz-üzə qoyulur

Yerli ekspertlərin əksəriyyəti Qərbin Brüssel formatlı təşəbbüslərinin mövsümi xarakter daşıdığı qənaəti ilə razılaşır. Əslində, Rusiyanı və İranı Cənubi Qafqazdan kənarlaşdırmaq ssenarisinin Ermənistanı avroatlantik məkana sürükləmək üsulu ilə reallaşdırılmağa çalışıldığı göz qabağındadır. Bu ssenariyə görə, İrəvanın təhlükəsizliyinə hansısa “yüksək təminatın” verilməsi, müdafiə qüdrətinin artırılması, eləcə də maliyyə yardımının edilməsi planlaşdırılır. Əgər Aİ və Vaşinqton bütün bunları reallaşdırmağı, İrəvana Bakı ilə sülh danışıqlarında əlavə impuls verəcək “siyasi dopinq”i yeritməyi bacaracaqsa, bu halda bölgədə hərbi–siyasi vəziyyət gözlənildiyindən də gərgin olacaq. Çünki, bu zaman “dopinq transı”na düşəcək Ermənistan hakimiyyəti sülh prosesi üzərində manipulyasiya etmək “cəsarətini” nümayiş etdirməyə başlayacaq. Necə ki, özünün daxili qanunvericiliyində Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyən Ermənistan işğal etdiyi kəndləri qaytarmağa, sərhədlərin müəyyənləşdirməyə tələsmir, vaxtı uzatmaq üçün min oyundan çıxır.

Beləliklə, hazırda bölgədə ən zəif mövqedə olan məhz Ermənistandır. Özünü saldığı labirintdən qurtuluş yolunu Qərbdə axtaran İrəvanın qərbi təəssübkeşlərinə bel bağlaması ona heç də xeyirli perspektiv vəd eləmir. Paşinyan onu da unutmamalıdır ki, payızda ABŞ-da keçiriləcək prezident seçkilərində Donald Trampın yenidən hakimiyyətə qayıtması Vaşinqtonun əlini Cənubi Qafqazdan tamamilə üzməsi demək ola bilər. Yelisey sarayının kirayənişini Emmanuel Makron isə yenə də bütün platformalarda “uğursuzluq zolağı”nda yeriməli olacaq.

Bu gün Brüsseldə toplaşacaq “üçlüy”ün müqəddəratı ilə bağlı qeydlərimizi İlham Əiyevin 2024-cü il fevralın 14-də Prezident kimi andiçmə mərasimində söylədiyi fikirlərlə yekunlaşdırmağımız yerinə düşür:

“Ermənistanın nə qədər kənar himayədarı olsa da, heç kim bizə mane ola bilməz. Bizim Ermənistan ərazisinə heç bir iddiamız yoxdur, amma onlar da öz iddialarından əl çəkməlidirlər. Bizimlə əsassız iddialar və şantaj dili ilə danışmaq onlara baha başa gələcək və bunu, yəqin ki, hamı görür”.

***İmran BƏDİRXANLI***
***XQ***



**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

Brüssel görüşündə Ermənistanın təhlükəsizliyinə böyük zəmanətin veriləcəyini zənn etmirəm. Bu planın reallaşması qətiyyən mümkün görünmür. Çünki hazırda ABŞ və Rusiya münasibətlərində xeyli ziddiyyətli məqamlar var. Bu, necə ola bilər ki, Ermənistanda Rusiyanın hərbi bazası olsun, sərhədlərini Rusiya sərhədçiləri qorusun, bununla paralel olaraq, ABŞ oraya hərbi texnikasını göndərsin. Belə düşünürəm ki, Vaşinqton və Avropa İttifaqı da Azərbaycanla münasibətlərini gərginləşdirmək istəməyəcək. Dövlət katibi Antoni Blinkenin Bakıya zəngi, Prezident İlham Əliyevi Azərbaycana qarşı heç bir addım atmağı planlaşdırmadıqlarına inandırmağa çalışması da bununla bağlı idi.

ABŞ-la Azərbaycan arasında, eləcə də Aİ ilə enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq davam edir. Bircə Fransa özünün anti–Azərbaycan siyasətindən əl çəkmir. Amma artıq ona qarşı da etirazlar artmaqdadır. İtaliya Xarici işlər nazirinin müsahibəsində Fransanın Azərbaycana qarşı siyasətini tənqid etməsi tam yerinə düşdü. Avropalı digər tərəfdaşlarımız da eyni mövqedən çıxış edə bilərlər. Faydalı iş o olardı ki, Brüssel görüşündə Blinken və Lyayen Paşinyanı Ermənistanın əsas təhlükəsizlik təminatının Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqdan keçdiyinə inandırsınlar. Aydındır ki, Vaşinqtonun və Aİ-nin Brüsseldə əsas hədəfi İrəvanın Rusiyadan asılılığını azaltmaqdır. Azərbaycanın da istəyi ondan ibarətdir ki, kənar dövlətlərin Cənubi Qafqaza təsir imkanları aradan qalxsın.

# “Sərhədsiz Reportyorlar” Fransa Xarici İşlər Nazirliyinin ruporuna çevrilib

**“Sərhədsiz Reportyorlar” Təşkilatı (RSF) “qrant qaçaqmalçılığı” üzrə təhqiqata cəlb edilmiş Azərbaycan jurnalistləri mövzusuna dönüş edib. Martın 29-da təşkilatın yeni bəyanatı açıqlanıb. Bu bəyanat aprelin 2-də milli və transsərhəd KİV-də dərc edilib.**

RSF jurnalistika üzrə ixtisaslaşmış beynəlxalq təşkilatdır. Bu baxımdan qurum tərəfindən hazırlanmış 29 mart bəyanatına normal yanaşa bilərdik. Düşünmək olardı ki, təşkilat jurnalistlərin istintaq prosesinə cəlb edilmələrindən narahatlıq keçirib. İstintaqın şəffaf keçirilməsi, jurnalistlərin prosesdən zərərsiz çıxması işinə töhfə vermək istəyib. Amma bəyanatdakı bəzi məqamlar RSF-nin səmimiyyətini şübhə altına alır. Aydın şəkildə görünür ki, təşkilat təhqiqata cəlb edilmiş jurnalistlərin müdafiəsindən daha çox, Azərbaycanı tənqid obyektinə çevirib.

Bəyanatda qeyd edilir ki, “Sərhədsiz Reportyorlar” Toplum TV-nin beş nəfər əməkdaşının qondarma “valyuta qaçaqmalçılığı” ittihamı ilə həbs edilməsini pisləyir”. İş ondadır ki, “Toplum TV” işi üzrə istintaq prosesi martın 29-da deyil, 6-da başlanıb. RSF də ötən 23 gün ərzində bu mövzu üzrə 2 dəfə bəyənat verib. Sual yaranır ki, təşkilat eyni bəyənatı martın 29-da 3-cü dəfə təkrarən yaymaqda nə məqsəd güdür? Bu məqamda qeyd edək ki, “Sərhədsiz Reportyorlar”ın tarixində eyni mövzu üzrə qısa zaman kəsiyində təkrarən 3 dəfə bəyanat vermək təcrübəsi yoxdur. Bu praktikanı Azərbaycandan başqa heç bir ölkə üzrə tətbiq etməyib.

Yaxud, heç bir ölkə üzrə verilən bəyanatda faktlar bu qədər saxtalaşdırılmayıb. Diqqət yetirsək görərik ki, RSF “Toplum TV” işi üzrə bəyanatında faktları bilərəkdən saxtalaşdırır. TV əməkdaşlarının “qarant qaçaqmalçılığı” işi üzrə istintaqa cəlb edilmələrini onların həbsi kimi qələmə verir. Hansı ki, istintaqın gedişində həbs deyil, fərqli qərarların verilməsi də mümkündür. Məsələn, eyni proses üzrə istintaqa cəlb edilmiş jurnalist Şahin Rzayevin günahsızlığı məhz istintaqın özü tərəfindən müəyyən edilib, jurnalist bir sutka sonra sərbəst buraxılıb. Mümkündür ki, istintaq digər şəxslər barədə də buna bənzər qərarlar versin.

RSF digər ölkələrdə analoji hallar üzrə bəyanatlar yayanda fərqli davranır. Adətən, istintaqın şəffaf keçirilməsini tələb edir. İstintaqın ədalətli qərar çıxarmasına çağırış edir. Azərbaycana yanaşmada isə ifrat mövqe göstərir. İstintaqın yekunlaşmasını gözləmir. Azərbaycan hüquq-mühafizə orqanlarının işinə şübhə ilə yanaşır. Beynəlxalq ictimai rəydə fikir formalaşdırır ki, guya, Azərbaycanda jurnalistlər “heç bir səbəb olmadan” təqibə məruz qalırlar.

“Sərhədsiz Reportyorlar” nə üçün tendensiyalı davranır, Azərbaycan adına qara yaxmağa səy göstərir? Cavab budur ki, "Sərhədsiz Reportyorlar"ın mərkəzi ofisi Paris şəhərində yerləşir. Müstəqil hərəkət edən beynəlxalq təşkilat adlandırılsa da, öz fəaliyyətini Fransanın maraqları üzərində qurur, tendensiyalı davranır. Fransa xarici siyasətinin, prezident Emmanuel Makronun Azərbaycana yanaşması hansı tərzdədirsə, "Sərhədsiz Reportyorlar"ın yanaşması da eynidir. "Sərhədsiz Reportyorlar" Parisin siyasi ambisiyalarının ruporudur.



Digər tərəfdən, Fransada fəaliyyət göstərən güclü erməni diasporundan yardım alır. Bu mənada erməni diasporunun maraqlarını nəzərə alır. Türkiyəyə, Azərbaycana qarşı daimi olaraq düşmən münasibət sərgiləyir. Türk Dövlətlər Təşkilatına qoşulandan sonra Macarıstanı da hədəfə çevirib. Macarıstanın da adını qeyri-demokratik ölkələrin sırasında yerləşdirib. "Sərhədsiz Reportyorlar" Fransada, Ermənistanda və maraq dairələrində olan digər ölkələdə qeyri-demokratik proseslərə göz yumur. Fransanın hədəfində olan ölkələrdə isə insidentləri zərrəbbinlə axtarır, olmayan faktları da uydurub siyahıya salır. Belə nəticə çıxır ki, onun davası demokratiya, söz-ifadə azadlığı, insan haqları deyil. RSF-nin fərqli maraqları, fərqli prinsipləri var. Əgər belə olmasaydı, min kilometrlərlə uzaqda yerləşən Azərbaycan üzərində çalışmaqdansa, öz ofislərindən yüz metr aralıda baş verən insidentləri diqqətlə araşdırardı. Onların Parisdə göz yumduqları yüzlərlə problem var.

"Sərhədsiz Reportyorlar" Qərbdən yönləndirilən “şər şəbəkəsinin” üzvüdür. Azərbaycana qarşı təbliğat aparanlar sırasında öndə gedir. Yuxarıda qeyd etdik ki, öz hesabatlarında həmişə ölkəmizə qarşı neqativ, qeyri-obyektiv münasibət göstərib. Fransanın xarici siyasət kursuna uyğun olaraq, Ermənistanı demokratik ölkə, Azərbaycanı isə qeyri-demokratik ölkə qismində göstərmək üçün bütün vasitələrə əl atıb. Son günlərdə neqativ yüklü bəyanatı 3 dəfə təkrarən yaymasının səbəbləri də bu qəbildəndir.

Diqqət yetirsək, görərik ki, Fransanın dövlət başçısı Emmanuel Makron və ölkənin Xarici İşlər Nazirliyi II Qarabağ savaşından sonra Azərbaycana qarşı sistemli təbliğat aparırlar. Son günlərdə bu təbliğat daha da intensivləşib. İki gün öncə Fransa XİN-in Avropa və Afrika Məsələləri Departamentinin rəhbəri Stefane Sejourne ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenlə keçirdiyi birgə mətbuat konfransında Azərbaycana qarşı açıq dezinformasiyalar yayıb. İddia edib ki, guya, Azərbaycan Ordusu hərbi eskalasiyanı artırır, Ermənistan torpaqlarını işğal etməyə çalışır. Bu bəyanat Ermənistanın hərbi təxribatçı əməllərini ört-basdır etməyə, onun məzlum obrazını yaratmağa, Azərbaycanın adını təcavüzkar kimi qələmə verməyə istiqamətlənib. “Sərhədsiz Reportyorlar” da Fransa XİN-lə sinxron hərəkət edir. Fransa XİN təmsilçisi Stefane Sejournenin bəyanatı ilə RSF-nin bəyanatının üst-üstə düşməsini başqa cür izah etmək qeyri-mümkündür.

***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

# Ermənistanın mina terroru məzar yerlərində axtarış, qazıntı və ekshumasiya işlərinin aparılmasına ciddi maneə yaradır

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş vətəndaşlarımızın sonrakı taleyinə aydınlıq gətirilməsi məqsədilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən aidiyyəti dövlət qurumları, o cümlədən ANAMA ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə axtarış, qazıntı və ekshumasiya işləri davam etdirilir.**

Bu barədə Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatında deyilir.

Vurğulanıb ki, Ermənistan tərəfindən işğal və hətta postmünaqişə dövründə ərazilərin minalanması, mina-tələlərin quraşdırılması, o cümlədən partlamamış sursatlarla həddən artıq çirkləndirilməsi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərində axtarış, qazıntı və ekshumasiya işlərinin aparılmasına da ciddi maneə yaradır.

“Bir çox hallarda Dövlət Komissiyasına məlum olan itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərində mütəxəssis heyətinin işləməsi üçün ərazilərin minalardan təmizlənməsinə uzun müddət vaxt tələb olunur. Otuz ildən artıq itkin düşmüş doğmalarının yolunu gözləyən vətəndaşlarımızın iztirablarının artmasına və ümidlərinin azalmasına səbəb olan bu hal Ermənistanın beynəlxalq humanitar hüquqa hörmətsizliyinin bariz nümunəsidir.

Dövlət Komissiyası Ermənistanın mülki əhalinin ölümünə və yaralanmasına səbəb olan və itkin düşmüş vətəndaşlarımızın sonrakı taleyinin aydınlaşdırılmasına mane olan mina terrorunu qətiyyətlə pisləyir”, – Dövlət Komissiyasının açıqlamasında bildirilib.

***XQ***

II MƏQALƏ

# Liderin gücü: şəxsi keyfiyyətlərlə xalq-iqtidar birliyinin sintezi

(fəlsəfi-politoloji təhlil)



## Güclü lider kimdir?

Əgər bu suala fəlsəfi və politoloji kontekstdə cavab axtarsaq, çoxlu sayda yanaşmaları və tərifləri nəzərə almalıyıq. Tədqiqatçılar liderliyi araşdırarkən məsələnin bu tərəfini mütləq qeyd edirlər. XX əsrin tanınmış politoloqlarından olan fransız Jan Blondel xüsusi vurğulayırdı ki, liderlik haqqında çox sayda araşdırma aparılsa da, yekdil mövqe formalaşmamışdır.

Liderliyə aid müxtəlif politoloji (irsilik, situasion, transformasiya, dəyərlər təlimləri və digərləri) və fəlsəfi (sosial-fəlsəfi, kulturoloji, korss-kültür, sinergetik və s.) yanaşmaların fonunda belə bir sıra filosofların fikrincə, "liderliyin fəlsəfəsi hələ formalaşmamışdır" (ingilis filosoflar: P.Kas, R.Frenç, P.Simpson). Bu fenomenin siyasi-nəzəri dərki də intensiv inkişaf etməklə yanaşı, bir-birindən hətta ifrat dərəcədə fərqlənən mövqeləri və nəticələri özündə ehtiva edir. Məsələn, burada "liderin püşkatma üsulu ilə seçilməsi"ndən tutmuş, ümumiyyətlə, lidersizliyə və ya superliderliyə qədər fərqli dəyərləndirmələrə rast gəlinir.

Bir qəzet məqaləsində liderliyin fəlsəfi və siyasi-nəzəri özəlliklərini vurğulamaqda məqsədimiz nədən ibarətdir? Məqsəd liderliyin və lider olmanın fəlsəfi və ya politoloji dərkinin müasir mərhələdə heç də asan olmadığını və çox fərqli baxışların mövcudluğunu vurğulamaqdan ibarətdir.

I məqalədə qeyd etdiyimiz "güclü lider" anlayışı ilə bağlı Qərb politoloji fikrində mövcud olan qeyri-müəyyənlik də bununla bağlıdır. Buradan vacib bir politoloji sual çıxır: Bütövlükdə, güclü lider və liderin gücü anlayışlarını hansı meyarlarla müəyyən etmək olar? Belə görünür ki, hər bir konkret situasiyada, coğrafiyada, tarixi-siyasi təcrübədə çox sayda faktorları nəzərə almaqla liderin gücü və güclü lider haqqında fikir yürütmək daha doğru olar! Bu məsələni də iki səviyyədə nəzərdən keçirmək mümkündür. Birinci, güclü lider və liderin gücü anlayışlarının qlobal miqyasda əlamətlərinin təhlili ilə bağlı olan miqyasdır. İkinci, konkret regiona və ölkə miqyasında həmin anlayışların kəsb etdikləri məzmunla əlaqəlidir.

## Çağdaş güclü lider

Liderin güclü olub-olmaması liderlik haqqında konkret fəlsəfi və politoloji yanaşma çərçivəsində fərqli meyarlarla müəyyən edilir. Burada məsələyə beş aspektdə baxırlar: liderin şəxsi keyfiyyətləri, lider-tərəfdarları (ərtaf mühit), lider-cəmiyyət, lider-regional miqyas, lider– qlobal miqyas. Bu yanaşmaları iki daha ümumi mövqedə təsnif etmək olar: liderin şəxsi keyfiyyətləri və lider-ətraf mühit qarşılıqlı əlaqələri.

Deməli, liderlikdə şəxsi keyfiyyətlərlə liderin ətraf mühitlə münasibətlərinin qarşılıqlı əlaqəsində onun güclü və ya zəif olduğu nəticəsini çıxarmaq olar. Burada əsas məsələ şəxsi keyfiyyətlər kimi hansı konkret əlamətlərin seçilməsi və "ətraf mühit" anlayışına nələrin daxil edilməsi önəm daşıyır.

Şəxsi keyfiyyətlər kimi sayca 5-dən tutmuş 72-dək (Stoqdill) və daha çox keyfiyyətlər seçilə bilər. "Ətraf mühit" isə lider-tərəfdarları, lider-partiya, lider-sosial şəbəkələr, lider-KİV, lider-cəmiyyət, lider-regional mühit, lider-qlobal mühit kimi çox sayda münasibətlər miqyasını özündə birləşdirə bilər. Buna görə də məsələni bir qədər də konkretləşdirərək liderlik fəaliyyətinin reallaşma üsulu və alınan nəticələrə görə liderin xarakteristikası məsələsinə keçmək olar.

Beləliklə, güclü lider onun fəaliyyət üsulları, realllaşma mexanizmləri ilə bunun nəticəsində alınan faktların müqayisəsində müəyyən oluna bilər. Bu zaman güclü lideri liderin gücü motivə etmiş olur. Eyni zamanda, burada müasir mərhələnin geosiyasi özəlliyi mütləq nəzərə alınmalıdır.

Məsələ ondan ibarətdir ki, hazırda qlobal və regional miqyaslarda geosiyasi turbulentlik üstünlük təşkil edir. Bu, proseslərin həm sürətlə dəyişməsini, həm qeyri-müəyyənliyi, həm də riskləri özündə ehtiva edir. Bunların fonunda dünyanın geosiyasi mənzərəsi kifayət qədər mürəkkəb və dolaşıq təsiri bağışlayır ki, ümumi miqyasda onları nəzəri ifadə etmək çox çətin olur. Bir sıra siyasi liderlər belə vəziyyəti "idarəolunan xaos" adlandırırlar.

Bu reallıqlar, bütövlükdə, güclü lider və liderin gücü anlayışlarına bir qədər də konkret səviyyədə – regional və ölkənin keçdiyi tarixi-siyasi yol kontekstində baxmağın daha adekvat olduğunu göstərir.

Məsələnin bu tərəfinin nəzəri aspektini bir kənara qoyaraq mövcud olan iki yanaşmanı vurğulayaq. Birinci, liderin aldığı nəticələrə görə onu xarakterizə etmək oalr ki, bu zaman onun hansı üsullardan istifadə etdiyi önəmli deyil. İkinci, liderin aldığı nəticələrə onun fəaliyyət üsulu kontekstində (əsas olaraq liderlik etdiyi ölkənin ənənəsi ilə bağlı şəkildə), regional və qlobal miqyasda müəyyən olunan pozitivlik kriteriyaları prizmasında baxmaq lazımdır.

Təcrübə göstərir ki, liderin aldığı nəticələri onun fəaliyyətdə üstünlük verdiyi dəyərlərdən kənarda qiymətləndirilməsi perspektivli deyildir və dolaşıqlıq yaradır. Məsələn, bir dövlətin başçısı digər dövlətə qarşı müharibə elan edir və hərbi uğur qazanır. Lakin çox keçmir ki, bu uğurun real liderlik uğuru olmadığı aydınlaşır. Deyək ki, ABŞ-ın İraq savaşı, Fransanın Afrikada apardığı əməliyyatlarda olduğu kimi (bunun sayəsində Fransa bir neçə ölkəni müstəmləkə etmişdir) və ya SSRİ-nin Əfqanıstan savaşı kimi. Hərb meydanında əldə edilən uğurlar və ya sanksiyalarda gəlinən qənaətlər özlüyündə liderin güclü olmasına dəlalət etmir.

Maraqlıdır ki, liderin malik olduğu psixoloji, iradi, mənəvi keyfiyyətlər də burada həlledici faktor rolunu oynaya bilmir. Məsələn, A.Hitler güclü iradəyə və psixologiyaya malik idi, ancaq onu pozitiv anlamda güclü lider kimi politologiyada qəbul etmirlər. Lakin Mahatma Qandinin mənəvi-əxlaqi, psixoloji, iradi keyfiyyətləri onun güclü lider kimi xarakteristikasında əsas yeri tutur. Və ya U.Çörçill, Ş.de Qoll güclü liderlər olaraq qəbul edilirlər.

Deməli, liderin güclü olmasını təsbit edən, regional və qlobal miqyaslarda təsiri olan başqa kriteriyalara ehtiyac vardır.

## Güclü liderliyin Azərbaycan örnəyi

Son 300 ilin tarixi təcrübəsi göstərirdi ki, XX əsrdə Azərbaycanda güclü liderliyin fəlsəfəsi yeniləşməlidir. Türk liderlər, adətən, hünərli, ədalətli, müdrik və uzaqgörən olmuşlar. Onlar mənəvi-əxlaqi dəyərlərə də yüksək qiymət vermişlər. Xüsusilə, ədalət və hüquqi normalarla milli toplumsal özünütəşkil fəlsəfəsi bir-birini tamamlamışdır. Lakin XVII–XX əsr dövlətçilik və liderlik təcrübəsi göstərdi ki, bunlar yetərli deyildir. Bundan başqa, dövlət üsul-idarəsinin modeli də çox önəm kəsb edir.

İmperiya kimi Azərbaycan strateji uğurlu ola bilmədi – o, Osmanlı və Rusiya imperiyaları ilə uzun müddət davam edən savaşda daha çox itirdi. Xüsusilə, eyni mədəniyyətə və topluma malik olduqları Osmanlı ilə münasibətlər müstəqil dövlət olmağa xidmət etmədi. Rusiya ilə savaşlar da çoxlu itkilərlə müşayiət olundu. Nəticədə, öncə Azərbaycan ikiyə parçalandı, bir hissəsi Rusiya imperiyasına daxil edildi ki, bununla müstəqil dövlətçiliyə fasilə verildi.

Daha faciəvisi ondan ibarət idi ki, birincisi, bir zamanlar milyon kvadratkilometrlərlə ölçülən ərazilərimiz əlimizdən çıxdı, ikincisi, geridə qalan ərazi də xanlıqlara parçalandı və onun xalq arasında çox pis mənfi psixoloji təsiri oldu: azərbaycanlılar bir-birinə qarşı qəzəbli oldular. Bir xanlıqda yaşayanlar digər xanlıqda yaşayanları sanki qəbul etmədilər. Dərinə getməyək, təəssüf ki, bütün bunlar Azərbaycan cəmiyyətinin bütöv sosial-psixoloji, ünsiyyət və mədəni mühitinə ciddi zərbələr vurdu. Faktiki olaraq, ölkənin cənubu bir, şimalı isə başqa sosial, siyasi, idarəetmə və mədəni mühitə düşdü. Çox təəssüf!

Bununla yanaşı, Azərbaycanın Şimal hissəsi dövlətçiliyi bərpa etmək baxımından daha fəal mövqe tutmuşdu. Burada Rusiya vasitəsilə Avropa mədəniyyəti və dövlətçilik ideyalarının respublikaya gəlməsi öz rolunu oynadı. Ayrıca, Rusiya mühiti daha dinamik və yeniliyə açıq olduğundan azərbaycanlılar daha çevik dövlətçilik təfəkkürlərini müasirliyə uyğunlaşdıra bildilər. Bunun əlaməti XX əsrin əvvəllərində Azərbaycan Demokratik Respublikasının (ADR) yaranması oldu. Həmin məqamdan da Azərbaycan üçün real güclü lider anlayışının yeniləşməsi zərurəti bir daha özünü göstərdi.

Məsələ ondan ibarətdir ki, ADR-in ömrü heç iki il də çəkmədi, qısa müddətdə süquta uğradıldı. Lakin ADR-i quranların adları Azərbaycan dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı. Onlarla həmişə fəxr edir, qürur duyuruq. Lakin müstəqil dövlət kimi, Azərbaycanın qısa müddətdə mövcud ola bilməsinin səbəbləri üzərində də dərin və obyektiv düşünməliyik. "Nə üçün belə oldu?" sualına müasir fəlsəfi və politoloji təlimlər işığında baxıb, nəticələr çıxarmalıyıq.

Bütün bunları bizə ulu öndər Heydər Əliyev öyrətmişdir! Həmişə məsələni yuxarıda vurğuladığımız aspektdə qoyardı. Ən əsası isə konkret fəaliyyəti ilə "Azərbaycan necə əbədi müstəqil dövlət ola bilər?" sualına cavab verərdi! Heydər Əliyev XX əsrdə Azərbaycanda "güclü lider" anlayışına konseptual və praktiki-feili yeni məzmun verən böyük şəxsiyyət–lider idi! Bu dahi siyasi xadimin müəyyən etdiyi liderlik meyarları XXI əsr üçün də aktualdır və ayrıca Azərbaycanda güclü liderliyin nəzəri və praktiki məzmununu müəyyən edir. Heydər Əliyevin güclü liderliyi yalnız uğura yönəlmiş liderlik nümunəsidir. İstənilən situasiyada Heydər Əliyev liderliyi qalib olmağı nəzərdə tutur və bunun üçün çox sayda faktorların qarşılıqlı əlaqəsini nəzərə alır. Onların üzərində geniş dayanmaq lazımdır.

Müstəqillik mərhələsində Azərbaycanda güclü lider olmaq mürəkkəb məsələdir. Çünki keçən əsrin 90-cı illərinə Azərbaycan bir çox aspektlərdə çətin problemlərlə qədəm qoymuşdu. Burada sosial, siyasi, iqtisadi, hərbi, psixoloji, mənəvi-əxlaqi, ideoloji və geosiyasi böhran hökm sürürdü. Havadarlarının ciddi dəstəyi və təhriki ilə Ermənistan ölkənin ərazi bütövlüyünü pozmuşdu və dayanmaq bilmirdi. Qonşu dövlətlərin, xüsusilə Rusiya və İranın Azərbaycana münasibəti də əsasən qərəzli və ədalətsiz idi. Qərb dövlətləri isə ikili standart siyasəti ilə Azərbaycanda dövlətçiliyi ciddi təhlükəyə atırdılar. Türkiyə kifayət qədər dəstək verə bilmirdi.

Bunların fonunda Azərbaycan bir ölkə və dövlət kimi mövcud olmaq uğrunda həlledici savaşa hazırlaşmalı idi. Bunun üçün güclü lider lazım idi. Çünki cəmiyyət və dövlət olaraq Azərbaycanın belə ağır vəziyyətdən çıxa bilməsi mümkünsüz görünürdü. Bütün vəziyyəti kökündən ölkənin və xalqın xeyrinə dəyişə biləcək liderlik nümunəsi bir zərurətə çevrilmişdi.

Tarixi təcrübəyə əsasən müasir mərhələdə Azərbaycanda güclü liderlik nümunəsi həm öncəki mərhələlərdən, həm də hazırda dünyada mövcud olan modellərdən fərqlənməli idi. Çünki burada xilaskarlıqla quruculuğu özünəməxsus sintez etməyə ehtiyac vardı. Onları bir-biri ilə sıx əlaqədə və eksklüziv olaraq reallaşdırmaq lazım idi. Bunun üçün isə fərqli kriteriyalarla fəaliyyət göstərməyə ehtiyac vardı.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ceyhun Bayramovun Mövlud Çavuşoğlu ilə görüşü

**Aprelin 4-də xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Böyük Millət Məclisinin NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşüb.**



Ceyhun Bayramov hansı vəzifədə çalışmasından asılı olmayaraq, Azərbaycan ilə Türkiyə arasında mövcud möhkəm qardaşlıq və dostluq münasibətlərinə verdiyi töhfələrə görə M. Çavuşoğluna təşəkkür edib.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan ilə Ermənistan arasında sülh prosesi, aparılan danışıqlar və mövcud çağırışlardan bəhs edən nazir Ceyhun Bayramov bölgəmizdən uzaqda yerləşən bir sıra dövlətlərin regional sülh və inteqrasiya səylərinə, habelə kövrək normallaşma prosesinə təhdid törədən birtərəfli mövqe nümayiş etdirməsinin narahatlıq doğurduğunu diqqətə çatdırıb.

M.Çavuşoğlu bundan əvvəl Türkiyənin xarici işlər naziri qismində fəaliyyəti dövründə olduğu kimi, hazırkı vəzifəsinin icrası zamanı da iki ölkə arasında mövcud əməkdaşlığın inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Regional sülh və təhlükəsizliyin bərqərar olunmasına törədilən təhdidlərlə bağlı Azərbaycanın haqlı mövqeyinin və narahatlıqlarının öz növbəsində Türkiyə tərəfindən də daim dəstəkləndiyi vurğulanıb.

***XQ***

# Qərb Cənubi Qafqazda sülh prosesinə əngəl törədir

**Ermənistan düz yolda deyil. Bütün gücünü postmüharibə dövrünün reallıqlarına uyğunlaşdırmağa yönəltmək əvəzinə, qeyri-regional ölkələrlə separat danışıqlara girir, ABŞ və Avropa İttifaqının arxasında gizlənərək, dumanlı məqsədlərinə çatmaq istəyir.**



Əlbəttə, İrəvanın planı məlumdur: Ermənistan Qərbin köməyinə ümid edərək, Azərbaycanla davamlı sülhün imzalanmasını uzatmağa və güc toplayaraq yenidən xəyali arzularını reallaşdırmağa can atır. Aprelin 5-də Antoni Blinken, Ursula Fon der Lyayen və Nikol Paşinyan arasında Brüsseldə keçirilən görüş İrəvanın məhz bu niyyətindən xəbər verir. Amma İrəvan unudur ki, qonşuya ümid olan şamsız qalar. Azərbaycan heç zaman regionda formalaşan yeni geosiyasi reallığın dəyişdirilməsinə imkan verməyəcək.

Aprelin 3-də ABŞ Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə zəng etməsi barədə məlumat vermişdik. Dövlət başçımızla telefon danışında ABŞ-ın planlaşdırılan görüşlə bağlı mövqeyini izah etməyə çalışmasını da diqqətə çatdırmışdır. Həmin telefon danışından bir gün sonra, yəni aprelin 4-də Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Prezident İlham Əliyevə zəng etdi. Telefon danışığında aprelin 5-də Brüsseldə keçiriləcək üçtərəfli görüş məsələsi müzakirə olunub. Prezident İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinken ilə müzakirə olunduğu kimi, bu görüşlə bağlı Azərbaycan tərəfinin mövqeyini ifadə edib və regional inklüzivliyin vacibliyini bildirib. Əlbəttə, dünyanın ikinci güc mərkəzi sayılan Avropa İttifaqı rəsmisinin dövlət başçımıza zəng etməsi və Birləşmiş Ştatların ardından "Köhnə qitə"-nin görüşlə bağlı mövqeyini izah etməyə çalışması Prezident İlham Əliyevin qlobal müstəvidə nüfuzunun və çəkisinin göstəricisi kimi qiymətləndirilməlidir. Bununla belə, Aİ də ABŞ kimi anlamalıdır ki, görüşün regional inklüzivliyinin olmaması özündə böyük təhlükələr daşıyır. Dövlət başçımız ABŞ Dövlət katibi ilə telefon danışığında bununla bağlı xəbərdarlığını da edib.

Aprelin 5-də keçirilməsi nəzərdə tutulan görüş Türkiyə və Rusiyada da narahatlıqla qarşılanır. Bakı Ermənistanla yekun sülh müqaviləsinin imzalanmasında maraqlıdır. Ermənistan isə hələ də imitasiya ilə məşğuldur. İrəvanın ərköyünləşməsinə də Qərb rəvac verir. ABŞ, Avropa İttifaqı və xüsusilə də Fransa Ermənistanı öz şərtləri əsasında sülh sazişi bağlaya biləcəyinə ümid etməyə sövq edir. Təbii ki, bununla Qərb sülh sazişinin bağlanmasına mane olur. Tərəfsizliyini geosiyasi planlarına qurban verən ABŞ və Aİ regionu yenidən "barıt çəlləyi"nə döndərmək istəyir. Təbii ki, Qərbi, ümumiyyətlə, Ermənistan maraqlandırmır. Onların vəzifəsi Cənubi Qafqaza daxil olmaq və regionda Rusiyaya qarşı yeni platsdarma yaratmağa çalışmaqdır. İrəvan da Qərbin əlində belə alətə çevrilməyə razıdır. Amma Azərbaycanın heç bir halda Ermənistanın yenidən baş qaldırmasına və regionda yeni münaqişə ocağının yaranmasına yol verməyəcəyi birmənalıdır.

Azərbaycan ədalətli sülh istəyir, regionu birləşdirən fəaliyyəti dəstəkləyir. Bunun əksini düşünənlər isə əməllərinə görə yaranacaq arzuolunmaz vəziyyətə görə məsuliyyəti bölüşməli olacaqlar.

***M.SƏBUHİ***
***XQ***

# İtaliya beynəlxalq hüquqa hörmətlə və balanslı yanaşır

**İtaliyanın beynəlxalq hüququn pozuntularını gözardına alan siyasətdən uzaq olması bir daha bu ölkənin məsələdən daim agah olduğunu göstərib və Fransa kimi ölkələrin yürütdüyü destruktiv siyasətin nə dərəcədə əsassız və nəticəsiz olduğunu sübut edib. Hesab edirik ki, İtaliyanın belə siyasəti başda Fransa olmaqla, bəzi Avropa ölkələrinə nümunə olmalıdır.**

Bu fikirlər XİN-in mətbuat katibi Ayxan Hacızadənin İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin bölgədəki vəziyyət ilə bağlı açıqlamasına dair yerli medianın sualına cavabında yer alıb.

Mətbuat katibi, onu da qeyd edib ki, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavininin verdiyi bu açıqlama, ilk növbədə, beynəlxalq hüququn təməl prinsip və normalarına hörmətin əlamətidir. Bu, eyni zamanda, ölkələrin daxili işlərinə müdaxilənin, Azərbaycanla Ermənistan arasında normallaşma və sülh prosesi kimi həssas məsələ ilə bağlı məsuliyyətsiz yanaşmadan çəkinmənin nə dərəcədə vacib olduğunu nümayiş etdirir.

***XQ***

# Türkiyə XİN: Brüssel görüşü neytrallığa zərbədir

**Türkiyə Xarici İşlər Nazirliyi Brüsseldə aprelin 5-i keçirilməsi planlaşdırılan Ermənistan–Aİ–ABŞ üçtərəfli görüşünə dair bəyanat yayıb. Qardaş ölkənin XİN-i birmənalı şəkildə bildirib ki, həmin görüşün keçirilməsi regiondakı mürəkkəb problemlərin həlli üçün əsas götürülməli olan neytrallıq yanaşmasına zərbə vuracaq.**

Bəyanatda bildirilib ki, Azərbaycanın iştirakını nəzərdə tutumayan bu təşəbbüs Cənubi Qafqazda sülhə xidmət etməyəcək, regionun geosiyasi qarşıdurma məkanına çevrilməsinə yol açacaq. Azərbaycanın işğal olunmuş torpaqlarını azad etməsi və ötən il Qarabağda keçirilən antiterror tədbirləri ilə suverenliyini bərpa etməsi nəticəsində regionda davamlı sülh və sabitlik üçün tarixi fürsət yaranıb. Lakin: "Tarixi fürsətin uğurlu nəticəyə bu qədər yaxın olduğu bir vaxtda üçüncü tərəflərin, xüsusən də regiondan kənardan olan aktorların prosesə ədalətli və qərəzsiz yanaşması və ona hər hansı zərər vurmaqdan çəkinməsi daha vacibdir. Bu kontekstdə aprelin 5-də Ermənistan, Aİ və ABŞ arasında keçiriləcək üçtərəfli görüşün regionun mürəkkəb problemlərinin həlli üçün əsas olmalı olan neytral yanaşmaya zərbə vuracağını açıq şəkildə vurğulamaq bizim borcumuzdur".

AçıqlamadaTürkiyə XİN təkrar üçüncü ölkələri regionun parametrlərini nəzərə almağa və münaqişə tərəflərinə bərabər məsafədən yanaşmağa çağırıb: "Biz qəti şəkildə inanırıq ki, Cənubi Qafqaz davamlı sülh və sabitlik əsasında çiçəklənəcək və regional rifaha nail olacaq. Həmişə olduğu kimi, Türkiyə bu məsələdə öz üzərinə düşəni etməyə və Azərbaycanla Ermənistan arasında davamlı sülhün təşviqinə davam edəcək".

Xatırladaq ki, Rusiya Federasiyası da aprelin 5-i keçirilməsi planlaşdırılan Ermənistan-Aİ-ABŞ üçtərəfli görüşünə dair narahatlığını bildirib.

***XQ***

# Hayların “yeraltı müharibə”si davam edir

## Azərbaycan mina təhlükəsinə məruz qalmış 10 ölkədən biridir

**Aprelin 4-ü Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü idi. BMT Baş Assambleyası 2005-ci ildə 60/97 saylı qətnaməsi ilə aprelin 4-nü belə bir gün kimi müəyyən edib. Təşkilat müharibələrin və silahlı münaqişələrin partlayıcı qalıqlarının mülki əhalinin təhlükəsizliyinə, sağlamlığına və həyatına ciddi təhlükə yaratdığı, habelə milli və yerli səviyyədə sosial-iqtisadi inkişafa mane olduğu ölkələrdə minalarla mübarizə imkanlarının yaradılmasına və inkişafına bu gün vasitəsilə çağırış edir.**

Əfsuslar olsun ki, Ermənistanın məqsədyönlü işğalçılıq siyasəti nəticəsində Azərbaycan dünyada minalar və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında yer alır. İlkin qiymətləndirmələrə görə 30 ilə yaxın davam edən işğal dövründə torpaqlarımıza 1,5 milyondan artıq mina basdırılıb. Piyadalar Əleyhinə Minaların Qadağan Olunması Uğrunda Beynəlxalq Kampaniyanın kasetli silahlar koalisiyasının məlumatına görə, Azərbaycan dünyanın mina və partlamamış hərbi sursatlarla ən çox çirklənməyə məruz qalmış 10 ölkəsindən biridir.

Hərbi silah kimi düşünülən minaların qurbanları, əslində, daha çox mülki şəxslər olur. Ermənistanın mina terroru nəticəsində 1991-ci ildən 2020-ci ilədək 3429 nəfər azərbaycanlı minalardan zərər çəkib. Onlardan 595-i həyatını itirib. Statistika göstərir ki, onların əksəriyyəti mülki şəxsdir. O cümlədən 358 nəfəri uşaq və gənclər, 38 nəfəri isə qadındır. Rəsmi İrəvan tərəfindən davam etdirilən mina təhdidi nəticəsində, demək olar ki, gündəlik əsasda baş verən mina partlayışları zamanı postmüharibə dövründə, yəni 2020-ci il noyabrın 10-dan indiyədək isə ümumilikdə, 350 azərbaycanlı azad edilmiş ərazilərdə minaya düşüb. Onlardan 50 nəfər mülki şəxs, 15 nəfər hərbi qulluqçu olmaqla, 65 nəfər həlak olub, 285 nəfər xəsarət alıb. Ümumilikdə, Vətən müharibəsindən sonra Azərbaycanda mina hadisələrindən ölənlərin 77 faizi mülki şəxslərdir.

Hamının yaxşı yadındadır ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra Ermənistanın Laçın yolundan istifadə edərək Azərbaycan ərazilərinə minalar döşəməyə davam edirirdi. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bu faktı təsdiqləyir. Lokal xarakterli antiterror tədbirlərindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması təhdidin miqyasını sübut edən digər bir faktdır.

Bundan əlavə, mina təhlükəsi azad olunmuş ərazilərdəki genişmiqyaslı bərpa və yenidənqurma işlərini, insanların öz doğma torpaqlarına qayıdışı prosesini ləngidir, insanların həyat və sağlamlığına ciddi təhdid yaradır. Həmçinin, minatəmizləmə fəaliyyətinin 90 faizindən çoxu Azərbaycanın daxili resursları hesabına aparılır. Bəzi xarici tərəfdaşlarla əməkdaşlıq edilsə də, ümumilikdə xaricdən dəstək məhduddur. Ölkəmiz erməni işğalını təkbaşına aradan qaldırdığı kimi, təcavüzkarın mənfur qalıqlarını da ərazilərindən özü təmizləyir.

Ümumiyyətlə, humanitar minatəmizləmə Azərbaycan dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu siyasətin əsası ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulub, məhz onun uzaqgörənliyi nəticəsində 26 il əvvəl – 1998-ci ildə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) (əvvəlki adı Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik – S.H.) yaradılıb. Vətən müharibəsində əldə edilən Zəfərdən sonra həmin ərazilərdə geniş quruculuq işlərinin sürətli həyata keçirilməsini və sakinlərin öz yurd-yuvalarına təhlükəsiz dönməsini təmin etməkdə aparıcı rol ANAMA-ya, başqa sözlə desək, Azərbaycan dövlətinə məxsusdur.

Ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 299, tank əleyhinə 114 mina və 1 254 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Mart ayı ərzində 6094,6 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Ötən il isə azad edilmiş ərazilərdə 8 min 529 mina zərərsizləşdirilib. Onlardan 3 min 495-i piyada əleyhinə, 5 min 34-ü tank əleyhinə minadır. Bundan əlavə, 23 min 49 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Ümumilikdə, 2023-cü ildə 53081,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

Azərbaycan Xarici İşlər Nazirliyi Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ilə bağlı yaydığı bəyanatda ərazilərimizin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən hərbi işğalı zamanı, habelə hazırkı postmünaqişə dövründə mina təhdidindən əziyyət çəkən, çoxsaylı mina qurbanları verən ölkəmiz mina təhlükəsi ilə ciddi şəkildə mübarizənin vacib olduğunu vurğulayıb.

Hər zaman ölkəmizin yanında olan Türkiyənin, qardaş ölkənin Xarici İşlər Nazirliyinin Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ilə bağlı açıqlamasında Azərbaycan ərazilərinin minalarla çirkləndirilməsinə də toxunulub. Qeyd olunub ki, Türkiyə dünyada və regionda həm quru, həm də dəniz minalarına qarşı mübarizəyə konkret töhfələr verən ölkədir. Türkiyə XİN Milli Minalardan Təmizləmə Mərkəzi vasitəsilə piyada əleyhinə minaların istifadəsi, tədarükü, istehsalı və köçürülməsinin qadağan edilməsi, eləcə də zərərsizləşdirilməsi ilə bağlı Ottava Konvensiyasını və bu çərçivədə yaradılmış beynəlxalq əməkdaşlığı dəstəklədiyini bildirib. “Minalarla çirklənməyə görə uzun müddətdir ciddi təhlükə ilə üzləşən Əfqanıstan kimi ölkələr, eləcə də işğaldan azad etdiyi torpaqlarında aşkar edilməmiş çox sayda mina olan Azərbaycanın təhlükəsizlik qayğılarını bölüşürük. Ermənistanı dəqiq mina xəritələrini Azərbaycana verməyə çağırırıq. Mina riskləri ilə mübarizə aparan ölkələrə yerində və beynəlxalq səviyyədə güclü dəstəyimizi davam etdirəcəyik”.




Mina və partlamamış hərbi sursat təhlükəsi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərində axtarış, qazıntı və ekshumasiya işlərinin aparılmasına da ciddi maneə yaradır. Bu barədə isə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatında deyilir. Qeyd olunur ki, bir çox hallarda dövlət komissiyasına məlum olan itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərində mütəxəssis heyətinin işləməsi üçün ərazilərin minalardan təmizlənməsinə uzun müddət vaxt tələb olunur. Otuz ildən artıq itkin düşmüş doğmalarının yolunu gözləyən vətəndaşlarımızın iztirablarının artmasına və ümidlərinin azalmasına səbəb olan bu hal Ermənistanın beynəlxalq humanitar hüquqa hörmətsizliyinin bariz nümunəsidir.

**Mövzu üzrə “XQ”-yə açıqlama verən ANAMA yanında İctimai Şuranın katibi, “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin sədri Hafiz Səfixanov bildirdi ki,** Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ərazisi minalarla və partlamamış hərbi sursatlarla çirklənmiş ölkələrdə qeyd olunur. Onun sözlərinə görə, respublikamız dünyada minalar və partlamamış hərbi sursatlardan əziyyət çəkən, müharibənin “mirası” ilə təqib olunan belə ölkələrdəndir: “Bütün hərbi əməliyyatlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində aparıldığı üçün bu gün ölkəmiz dünyada mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələrdən biri hesab olunur”.



H.Səfixanov söhbət əsnasında maraqlı bir fakt açıqladı. Dedi ki, 1994-cü il mayın 12-də imzalanmış atəşkəs sazişindən sonra Azərbaycan Ordusunun mühəndis istehkam qoşunları Füzuli rayonunun işğaldan azad olunmuş 22 kəndində 15 minalanmış sahədən 19 min tank əleyhinə, 22 min isə piyadalar əleyhinə mina taparaq zərərsizləşdirmişlər: “Həmin dövrdə ANAMA mövcud deyildi. Bu işi Müdafiə Nazirliyinin mühəndis-istehkam qoşunları görürdü. Nəzərə almaq lazımdır ki, həmin kəndlər cəmi 3 ay işğal altında qalmışdı. Amma buna baxmayaraq, o dövrdə həmin kəndlərdən ümumilikdə 41 min ədəd mina aşkar edilərək zərərsizləşdirilmişdir”.

Müsahibimiz qeyd etdi ki, tədqiqatlar nəticəsində hazırda ölkəmizin 1 milyon 166 min 702 hektar ərazisində minaların və partlamamış hərbi sursatların olduğu güman edilir: “Bunlardan 211 min 800 hektarı yüksək çirklənmə, 954 min 902 hektarı isə orta və aşağı çirklənmə səviyyəsindədir. Bizim tədqiqatlarımız, həmçinin rəsmi orqanların – ANAMA-nın, Müdafiə Nazirliyinin, digər strukturların verdiyi məlumatlar göstərir ki, keçmiş təmas xətti və onun ətrafında yerləşən bağlar, meşələr, üzümlüklər, dağıdılmış yaşayış məntəqələri, çay sahilləri minalarla ciddi surətdə çirkləndirilib və orada böyük təhlükə var. Minalara həm də kənd təsərrüfatına yararlı torpaqlarda, otlaqlarda, yollarda, körpülərdə, məktəblərdə, su mənbələrində, ümumiyyətlə, ağla gələn və gəlməyən bütün yerlərdə rast gəlmək mümkündür. Burada sürpriz minaların, yəni mina-tələlərin olmasını da nəzərə almaq lazımdır. Çünki Ermənistan tərəfi onlardan da geniş istifadə edib”.

H.Səfixanov bildirdi ki, onların tədqiqatları nəticəsində Ağdam rayonunun Yusifcanlı, Qarağacı, Laçın rayonunun Suarası, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Füzuli rayonunun bir sıra kəndlərinin qəbiristanlıqlarında minaların olduğunu təsdiqlənib: “Belə faktlar çoxdur. Məsələn, işğaldan azad olunmuş ərazilərdə 300-dən çox kəhrizdə (yeraltı su mənbələri) mina və partlamamış hərbi sursatlarla çirkləndirilib. Köndələnçay, Tərtər, Qarqar, Xaçın, Həkəri çayları minalarla çirkləndirilib, kanallar dağıdılıb və ətrafı minalanıb. Bu da onunla bağlıdır ki, onların özünün zavodu var, həmin zavod bir gün də dayanmayıb və istehsal etdiyi minaları Azərbaycan ərazilərində, yəni Qarabağ və Şərqi Zəngəzurda yerləşdiriblər”.

İctimai birlik rəhbəri deyib ki, bütün bunları nəzərə alaraq və ölkəmizdə minalara qarşı aparılan fəaliyyəti diqqətdə saxlayaraq, BMT Baş katibinin xüsusi təşəbbüsü ilə elan edilmiş Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günündə ANAMA yanında İctimai Şuranın, mina qurbanları və onların ailə üzvləri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun icra etdiyi Azərbaycanın ilk qadın minaaxtaranları layihəsinin əməkdaşları Tərtər və Ağdam rayonlarında müxtəlif tədbirlər həyata keçiriblər: “Biz aprelin 4-də keçirdiyimiz silsilə tədbirlərə bu günə öz töhfəmizi verməyə çalışdıq. Keçirilən bütün tədbirlərdə ölkəmizdə mina probleminin miqyası qabardılıb, Azərbaycan hökumətinin apardığı mübarizə öz əksini tapıb. Dönə-dönə qeyd olundu ki, Azərbaycan maliyyə tutumu böyük olan bu problemin həllinin 90-95 faizini öz dövlət büdcəsi hesabına yerinə yetirir. Beynəlxalq birliyə çağırışımız da bundan ibarət oldu ki, etdikləri köməyə görə çox sağ olunlar, minnətdarıq. Amma problemin miqyasını nəzərə alaraq ümid etdiyimizi bildirdik ki, köməyin miqyası, məbləği bir qədər də artırılacaq”.

**Səxavət HƏMİD**
**XQ**

# “Gizli savaş”ın qadın cəngavərləri

## Onlar Qarabağda ölüm təhlükəsini öldürənlərdir

**44 günlük müharibədə qazandığımız qələbəmnin yaratdığı qürur hissi illər keçdikcə öyüncümüzü artıracaq. Dünya hərb məktəblərində isə Azərbaycan Ordusunun savaş taktika və strategiyası daha geniş öyrəniləcək. Bunula yanaşı, müharibədən sonra erməni işğalı zamanı basdırılmış mina və partlayıcı sursatlar, partlamamış hərbi sursatlarla çirklənmiş ərazilər xalqımıza bəla gətirməkdə, hər birimizi ağrıtmaqda davam edir.**



Qələbənin səhəri günündən ərazilərin ölümsaçan vasitələrdən təmizlənməsi işi diqqət mərkəzində olub. Bu məqsədlə ANAMA intensiv minatəmizləmə əməliyyatları həyata keçirir. Prosesə ictimai dəstəyi genişləndirmək üçün Avropa İttifaqı (Aİ) və ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının ANAMA, Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) və Minalar üzrə Məsləhət Qrupu (MAG) ilə birgə tərəfdaşlıqla gerçəkləşdirdiyi “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin imkanlarını artırmaqla məcburi köçkünlərin təhlükəsiz qayıdışına dəstək” layihəsinə start verilib. Azərbaycanda ilk qadın minatəmizləmə qruplarının yaradılmasını hədəfə alan bu layihə çərçivəsində 4 belə minatəmizləmə qrupu yaradılıb.

İstehkamçı dəstələrdən 2-si yalnız qadınlardan, 2-si isə qadın və kişilərdən ibarətdir. Tamamilə qadınlardan ibarət olan hər iki qrupun xanımları ilə həmsöhbət olduq. Onlar missiyanın çətin və təhlükəli olmasına baxmayaraq, işlərinin öhdəsindən gəldiklərini dedilər, bu humanitar fəaliyyətlə məşğul olduqları üçün qürur hissi keçirdiklərini bildirdilər.

Bakı Dövlət Universitetinin Sabah qruplarının coğrafiya ixtisaslı məzunu Səmayə Əhmədli ölkəmizdə xanımlardan ibarət ilk minaaxtaran qrupun nümayəndəsi olmaqdan şərəf duyduğunu bildirdi. Səmayə xanımın qardaşı 2-ci Qarabağ müharibəsi iştirakçısı olub. Ailəsi cəsur döyüşçünü müharibə bitəndən sonra da mina qorxusu ilə gözləyib. Erməni terrorunu heç vaxt qəbul edə bilməyən Səmayə ölkəmizdə ölkəmizdə mina təhlükəsini ermənilərin düşmənçiliyi davam etdirməsinin danılmaz və bağışlanmaz göstəricisi olduğunu söylədi.

**O dedi ki, BAMF-ın sosial şəbəkə hesablarında elanı görən kimi bu işlə məşğul olacağına qərar verib. Ailəsi narazı olsa da, onları razı sala bilib:**

– Valideynlərim ilk vaxtlar qərarıma etirazla yanaşdılar. Onlara təlimləri keçib geri qayıdacağımı dedim. Lakin təlimlər bitdikdən sonra razılaşdılar və işə başladım. İxtisasımın müəllimlik olduğunu bilən hər kəsə minatəmizləmə kimi təhlükəli bir işə başlamağım qəribə gəldi. Keçən il sentyabrın 25-də Ağdam rayonunun Baş Qərvənd kəndində işə başlamışam. Yaşadığımız məntəqədən hər gün səhər saat 7-də iş sahəmizə yola düşürük. Saat 8-də sahədə minatəmizləmə əməliyyatımız başlayır. Hazırda Güllücə kəndində fəaliyyətimizi davam etdiririk. Mənim üçün işin bir qədər çətinliyi yay aylarında havaların isti olmasıdır.



**Müsahibim sonra qeyd etdi ki, minaların növündən, materialından, ölçüsündən asılı olmayaraq hər biri təhlükəlidir. O, Baş Qərvənd kəndinin “Ohanyan səddi”ndə piyada əleyhinə erməni istehsalı olan PMN-2 minaları, eləcə də xeyli partlamamış hərbi sursat aşkar edib. Səmayə xanım qeyd etdi ki, daxil olduğu qrupda 2 qadın paramedik olmaqla, 25 minaaxtaran xanım var. O, başına gələn hadisələri, işinin çətinliyini də dilə gətirdi:**

– Sahədə təxliyə təlimi zamanı süni partlayışın yaradılması, dağıdılmış evləri təmizləyən zaman zəhərli ilanlarla qarşılaşmaq ilk baxışdan qorxu yaradır. Hər bir işin çətinliyi var. Lakin işimi sevdiyim, onun önəmini anladığım üçün istənilən çətinliyin öhdəsindən gəlmək asan olur. Relyefdən asılı olaraq dağlıq, dərəlik, düzənlik yerləri təmizləyirik.

Səmayə xanım onlar üçün yaradılan şəraitdən, görülmüş təhlükəsizlik tədbirlərilə bağlı hər şeyin yüksək səviyyədə təşkil olunduğundan da danışdı.

**Digər qrupun üzvü Tarifə Niftalıyeva ilə də həmsöhbət olduq.** Laçın rayonunun Qarabəyli kəndində anadan olmuş, məcburi köçkün həyatı yaşamış Tarifə xanım erməni vəhşiliyindən, xalqımızın terrorizm nəticəsində çəkdiyi əziyyətlərdən söz açdı. Yaşadığı çətinliklər, erməni vandalizmi onun düşüncəsində belə bir işdə çalışmaq, xalqımız üçün faydalı olan işlər görmək arzusunu yaradıb:

– Orta təhsilliyəm, Belə işləri bacara bilməyəcəyimi çoxu demişdi. Həvəsim və arzum isə bacarığıma zəmin yaratdı və mən bacardım. Təlimlərə qatıldım, öyrədilən bilikləri dərindən mənimsəyə bildim. İlk iş yerim olmasına baxmayaraq, bu, mənim üçün heç bir problem yaratmır. Bu işin çətin, əziyyətli tərəfləri çoxdur. Məsələn, səhər erkən oyanmalı, işə getmək üçün hazırlıq görməlisən.

**Tarifə xanımın 2 övladı var. Oğlunun 21, qızının isə 19 yaşı var. O, doğmalarının bu işə başlamasına heç bir etirazının olmamadığını söylədi:**

– Nəinki narazılıqlar oldu, hətta dəstək gördüm. Lakin oğlumun minaaxtaran kimi çalışmasına etiraz etdim. Bu işin içindəyəm və necə çətin, məsuliyyətli olmasını yaxşı bilirəm. Burada səhvə yol vermək olmaz. Çünki adi bir diqqətsizlik həyatımız bahasına başa gələ bilər. Məsuliyyət hissimiz yüksək olmalı, bütün təhlükəsizlik məsələlərini nəzərə almalıyıq. Bu işdə edilən səhvi geriyə qayıdıb düzəltmək mümkün olmur. Yaxşı deyiblər ki, minaaxtaran cəmi 1 dəfə səhv edir… Sursatların partladılması həyata keçirilərkən onun səsləri qonşu rayonlara da yayılır. Övladlarım nəsə bir hadisə olmayıb deyə zəng edib soruşurlar.



Tarifə xanım bu işin nə qədər nigaranlıq, çətinlik törədən fəaliyyət olmasına baxmayaraq, ictimai önəmli iş olduğunu da qeyd etdi.

**Müsahibim işinin faydasından, uğurundan da danışdı:**

– Ağdamın Baş Qərvənd kəndində piyada əleyhinə mina aşkarlamışam. Həyəcanlı idim, əməyimin ilk bəhrəsi idi. Sanki, dəyərli bir şey tapmış kimi sevinirdim. Düzü, bu sevincin qorxusu da var idi. İşə başladığım müddətdə yadımda qalan epizod Baş Qərvənddəki “Ohanyan səddi” deyilən ərazidə 3 qat məftillə əhatələnmiş xətləri kəsəndə çətinliklər yaşamağımız idi. O məftilləri kəsmək və digər işləri yerinə yetirmək qadın olaraq bizim üçün çox çətin idi. Amma biz bu işi bacardıq. Qadın kimi zərif olsaq da, zəif deyilik. İşimizi sevirik, bu məsul sahədə işləmək bizim üçün qürurdur. Fəxr edirik ki, “Qayıdış”da bizim də payımız olacaq. Bundan böyük qürur, xoşbəxtlik, şərəf hissi ola bilməz. Vətəninə, millətinə xidmət etməkdən gözəl nə ola bilər ki?

**Tarifə xanımın üzvü olduğu 26 nəfərlik qrup hazırda Ağdam rayonunun Güllücə kəndində vizual minaların axtarışındadır:**

– İşimiz təhlükəlidir, hər an “sürprizlərlə” qarşılaşa bilərik. Qrup rəhbərimiz kişilərdir, bu bizim üçün problem yaratmır. Lakin bu ayın sonu tezliklə qrup rəhbəri kurslarından sonra bizim rəhbər və müavinlərimiz xanımlardan ibarət olacaq.

Ermənilərin tarix boyu xalqımıza qarşı törətdiyi qırğınların, vəhşiliklərin, mina terrorunun fəsadlarını bu gün mina təhlükəsi şəklində yaşayırıq. Lakin qəddar düşmənlərin minalarını zərərsizləşdirənlər, bütün maneələri aşaraq işğaldan azad etdiyimiz ərazilərimizə, tarixi Azərbaycan torpaqlarına qayıdışı sürətləndirənlərdir.

**Rizvan FİKRƏTOĞLU**
**XQ**

# Asiya İnkişaf Bankı ilə tərəfdaşlığın önəmi yüksəlir

**Son illər ölkəmizin maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, həmçinin beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Prezident İlham Əliyev 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"də bununla bağlı nəzərdə tutulan müəyyən tədbirlərin icrası diqqət mərkəzində saxlanılıb. Respublikada investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərən məsələlərin həlli, beynəlxalq maliyyə institutları ilə əlaqələrin genişləndirilməsi də gerçəkləşdirilib.**




Asiya İnkişaf Bankı (AİB) bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu maliyyə təşkilatının ölkəmizlə əlaqələri dövlət qurumları ilə yanaşı, həm də özəl sektoru əhatə edir və Azərbaycan hökumətinin inkişaf strategiyasına uyğun həyata keçirilir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov AİB Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Yevgeniy Jukovla görüşündə iqlim dəyişikliyi ilə mübarizə üçün potensial maliyyələşmə imkanları, AİB-in COP29 çərçivəsində fəaliyyət və qlobal iqlim siyasəti sahəsində plan layihəsi, həmçinin mümkün tərəfdaşlıq istiqamətləri müzakirə edilib.

Görüşdə Azərbaycan və AİB arasında səmərəli əməkdaşlığın həyata keçirilməsi, cari il ölkəmizin bu maliyyə qurumu ilə tərəfdaşlığının 25 ilinin tamam olduğu qeyd edilib və tərəflər arasında səmərəli münasibətlərin daha da dərinləşməsinin önəmi bildirilib. Bankın ətraf mühit, rəqəmsal inkişaf, dövlət-özəl sektor tərəfdaşlığı, enerji, ölkəmizin tranzit-logistika potensialının artırılması və müxtəlif infrastruktur layihələrinin maliyyələşdirilməsində yaxından iştirakı da yüksək qiymətləndirilib.

Söhbət zamanı dövlətə məxsus müəssisələrdə səmərəliliyin artırılması, həmin müəssisələrə özəl investisiyaların cəlb edilməsi məqsədilə görülən tədbirlər barədə məlumat verilib, bu istiqamətdə əməkdaşlıq imkanları nəzərə çatdırılıb.

Maliyyə naziri Samir Şərifov da ölkəmizdə səfərdə olan AİB Mərkəzi və Qərbi Asiya Regional Departamentinin Baş direktoru Yevgeni Jukov ilə görüşündə Azərbaycan ilə AİB arasında əməkdaşlığın hazırki vəziyyəti və gələcək istiqamətləri üzrə məsləhətləşmələr aparıb, ölkədə iqtisadi inkişafın davamlılığına və hökumətin prioritetlərinə əsaslanan layihələr üzrə gələcək kreditləşdirmə proqramları nəzərdən keçirilib. Söhbət zamanı respublikamızın "yaşıl enerji" mənbələrindən istifadənin genişləndirilməsinin milli enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirildiyi və COP29-un Bakıda keçirilməsi qərarının həm də Azərbaycanın bərpaedilən enerji siyasətinə qlobal dəstəyin ifadəsi kimi dəyərləndirildiyi bildirilib.

Yeri gəlmişkən, AİB Azərbaycanla əməkdaşlığında ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi, inklüziv artımın təşviqi ilə bağlı hər zaman önəmli addımlar atıb. Eyni zamanda, COP29-un ev sahibi seçilməsi münasibətilə Azərbaycanı təbrik edib və ölkəmizin "yaşıl inkişaf" gündəliyinin əhəmiyyətini yüksək dəyərləndirib. Bununla bərabər, AİB-in COP29-la bağlı xüsusilə karbon bazarlarının inkişafı sahəsində texniki dəstək göstərməyə hazır olduğu diqqətə çatdırılıb.

Xatırladaq ki, AİB hazırda ölkəmizin nəqliyyat, dəmiryolu və bərpaolunan enerji infrastrukturu layihələrinə böyük maraq göstərir, bu istiqamətdə respublikamızın aidiyyəti dövlət qurumları ilə müzakirələr aparır.

AİB-in Azərbaycanla əməkdaşlığından bəhs edərkən onu da bildirək ki, son illər ölkəmizin maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, həmçinin beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Dövlət başçısının 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"də bununla bağlı nəzərdə tutulan müəyyən tədbirlərin icrası diqqət mərkəzində saxlanılıb. Respublikada investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərən məsələlərin həlli, beynəlxalq maliyyə institutları ilə əlaqələrin genişləndirilməsi də gerçəkləşdirilib.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi

**Emin BAĞIROV,**
**iqtisadi şərhçi**



AİB-nin ötən illərdəki fəaliyyəti ölkəmizin dövlət qurumları ilə yanaşı, həm də özəl sektoru əhatə edib və Azərbaycan hökumətinin inkişaf strategiyasına uyğun həyata keçirilib. Prezident İlham Əliyev tərəfindən də bankla əməkdaşlıq yüksək qiymətləndirilib: "Mən xatırlayıram ki, 5-6 il bundan əvvəl bizim maliyyə dəstəyinə ehtiyacımız olanda Asiya İnkişaf Bankı çox tez reaksiya göstərdi və Cənub Qaz Dəhlizi layihəsinə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci oldu. Bu çox mühüm və vaxtında göstərilən dəstək Azərbaycanın geniş kreditorlar qrupu yaratmasını şərtləndirdi. Həqiqətən də bu, mənə çox xoş təsir bağışladı və mən bir daha çox vaxtında göstərilmiş bu dostcasına yanaşmaya görə minnətdarlığımı ifadə etmək istəyirəm. Biz bunun əməkdaşlığın çox yaxşı əlaməti olduğunu nəzərə aldıq".

Yeri gəlmişkən, Cənub Qaz Dəhlizi, eləcə də "Şahdəniz" kimi mühüm layihələr nəinki Azərbaycan, o cümlədən Avropa da daxil olmaqla geniş bir coğrafiyanı əhatə edən region üçün mühüm əhəmiyyət daşıyıb. Bununla yanaşı, bu maliyyə qurumu ölkəmizdə həyata keçirilən digər infrastruktur layihələrinin, o cümlədən Şimal–Cənub dəmir yolu dəhlizi, su təchizatı, yol şəbəkəsinin genişləndirilməsi kimi təşəbbüslərin gerçəkləşdirilməsinə yüksək töhfə verib.

Onu da deyək ki, AİB-in son illərdəki geniş portfeli də diqqət çəkir. Suvarma və təhsillə bağlı icra olunacaq müəyyən layihələrin icrası, həmçinin özəl sektor, infrastrukturun inkişafı, kiçik və orta müəssisələrə dəstək məsələlərinin həlli ilə əlaqədar görülən işlər də bunun bariz ifadəsidir.

AİB ilə ölkəmiz bu gün birgə biznes əməliyyatları strategiyasını uğurla reallaşdırır. Bu strategiya çərçivəsində beynəlxalq bank Azərbaycanla əlaqədar kredit prioritetlərini müəyyənləşdirməyə çalışır. Eyni zamanda, bank respublikamızla əlaqədar mühüm texniki yardım proqramlarında fəal iştirak edir.

Ümumiyyətlə, AİB Azərbaycanla həyata keçirdiyi layihələrdə qarşıya qoyduğu məqsədləri – insanların həyat şəraitinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması, infrastrukturun müasir tələblər səviyyəsinə qaldırılması kimi vəzifələri uğurla yerinə yetirir.

Beynəlxalq maliyyə qurumu ölkəmizin maliyyə sektorunun inkişafını daha da sürətləndirmək üçün davamlı layihələr reallaşdırır. Məsələn, bir müddət bundan əvvəl Azərbaycanda real sektoru dəstəkləyən ölkənin aparıcı banklarından biri olan "Bank Respublika" və AİB arasında kredit sazişi imzalanıb. Sazişə əsasən, banka 20 milyon ABŞ dolları ekvivalenti həcmində milli valyutada irihəcmli kredit ayrılıb.

Beynəlxalq maliyyə təşkilatı olan AİB 1966-cı ildə yaradılıb. Əsas məqsədi Asiya məkanında, bütövlükdə Şərq ölkələrində iqtisadiyyatın inkişafına yardım göstərməkdən ibarət olan bankın baş ofisi Filippinin Manila şəhərində yerləşir. AİB-ni maliyyələşdirən 67 üzv-ölkə var ki, onlardan 48-i Asiya və Sakit Okeanı regionunda yerləşir.

Azərbaycan Respublikası 1999-cu il oktyabrın 20-də Asiya İnkişaf Bankına üzvlüyə qəbul olunub. 2004-cü ilin noyabr ayından etibarən isə təşkilatın ölkəmizdə nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycanın AİB-in səhmlərində payı 0,447 faiz təşkil edir.

Ötən müddətdə Azərbaycan Respublikası AİB-dən ümumi dəyəri təxminən 5 milyard dollardan çox olan kredit, qrant və texniki yardımlar əldə edib. Bu layihələr əsasən maliyyə, dövlət sektorunun idarə edilməsi, kənd təsərrüfatı, enerji, səhiyyə, su idarəçiliyi və nəqliyyat sahələrinə aiddir. Hökumətin Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsinə dəstək olaraq AİB-in Azərbaycana qısa və orta müddətli yardımı dövlət sektorunun idarə etməsi, nəqliyyat və enerji, eləcə də şəhər yerlərinin infrastrukturu və özəl sektorun inkişafı sahələrində əməliyyatları ehtiva edəcək.

Azərbaycanla AİB arasında səmərəli əməkdaşlıqdan danışarkən, onu da qeyd etməliyik ki, bank tərəfindən ayrılan investisiya əsasən infrastruktur sahəsinə yönəldilib. Məsələn, elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol salınması, su və kanalizasiya ilə bağlı çoxsaylı layihələrin gerçəkləşdirilməsi bunun bariz ifadəsidir.

**Ötən il ölkəmizdə 380 min 476 hektar əkin sahəsi sığortalanıb ki, bu da əvvəlki ilə nisbətən 43 faiz çoxdur. Bu barədə Aqrar Sığorta Fondu məlumat yayıb. Fondun 2023-cü ilin yekunları ilə bağlı hesabatına əsasən, il ərzində fermer və təsərrüfatlarla 43 min sığorta müqaviləsi imzalanıb. Sığorta müqavilələrinin hesabına 12,4 milyon manat sığorta haqqı toplanılıb. Bu isə 2022-ci illə müqayisədə 40 faiz artım deməkdir. Fondun bitkiçilik üzrə verdiyi sığorta təminatının dəyəri isə 506 milyon manata yüksəlib. Ötən il ən çox sığortalanan əkin sahələri buğda, arpa, pambıq və qarğıdalı olub.**

# Aqrar sığorta kəndlini itkilərdən qoruyur



Fondun məlumatına əsasən, 2023-cü ildə bitkiçilik sığortası üzrə ən çox zərər ödənişi edilmiş rayonlar Ağdam, Şəki və Qobustan olub. İl ərzində buğda, arpa, pambıq, qarğıdalı və gilas bitkiləri üzrə sığorta ödənişlərinin məbləği üstünlük təşkil edib. Ən çox baş verən və fermerlərə ödəniş edilən hadisələr isə fırtına-qasırğa, sel-subasma, dolu, 3-cü şəxslərin hərəkətləri və yanğın olub.

Məlum olduğu kimi, Aqrar Sığorta Fondu əkin sahələri ilə yanaşı, kənd təsərrüfatı heyvanlarının da sığortasını həyata keçirir. Belə ki, aqrar sığorta vasitəsilə südlük və ətlik inək-camışları, qoyun və keçi təsərrüfatlarını çoxsaylı risklərdən qorumaq mümkündür. Fermerlərə dəstək məqsədilə hesablanmış sığorta haqqının 50 faizini dövlət ödəyir. 2023-cü ildə Aqrar Sığorta Fondu ölkə üzrə 6500 baş iribuynuzlu, 1300 baş xırdabuynuzlu olmaqla, ümumilikdə, 7800 baş kənd təsərrüfatı heyvanını sığortalayıb. Bunun da hesabına 3,9 milyon manat sığorta haqqı yığılıb. Heyvanların sığortası üzrə sığorta təminatının məbləği isə 36 milyon manat təşkil edib.

Bütövlükdə, ötən il fondun sığorta ödənişləri 2022-ci illə müqayisədə 80 faiz artaraq 4,4 milyon manata çatıb. Bunun 3,5 milyon manatı bitkiçiliyin, 910 min manatı isə heyvandarlığın payına düşüb. Beləliklə, əvvəlki ilə müqayisədə bitkiçilik və heyvandarlıq üzrə ödənişlər müvafiq olaraq 2 dəfə və 28 faiz artıb.

Bu ildən isə ölkədə kənd təsərrüfatı heyvanlarının sığortalanması üzrə tariflər aşağı salınıb. Belə ki, Aqrar Sığorta Fondu İdarə Heyətinin qəbul etdiyi yeni qərara əsasən, heyvanların baza və geniş təminatlı sığorta zərfi üzrə birillik sığorta tarifləri müvafiq olaraq 5,17 faiz və 8,19 faiz müəyyən edilib. Xatırladaq ki, indiyədək bu tariflər müvafiq olaraq 6,1 faizvə 9,5 faiz həddində olub.

Ekspertlərin fikrincə, tariflərin aşağı salınması fermer və təsərrüfatlara heyvanları daha sərfəli şərtlərlə sığortalamağa imkan verəcək. Belə ki, indiyədək qiyməti 1000 manat olan mal-qaranın baza zərfi və geniş təminat üzrə illik sığortası 30,5–47,5 manata başa gəlirdi. Dəyişiklikdən sonra isə həmin şərtlərlə sığorta fermerlərə 26–41 manata başa gələcək. Qiyməti 300 manat olan xırdabuynuzlu heyvanların baza zərfi və geniş təminat üzrə illik sığorta haqqı indiyədək 9-14 manat idisə, dəyişiklikdən sonra bu rəqəmlər daha da azalaraq 7,8–12,3 manata enib. Eyni zamanda, sığorta müqaviləsi uzun müddətə bağlandıqda illik sığorta haqqı daha da azalır. Göründüyü kimi, kənd təsərrüfatı heyvanlarının sığorta haqqının azalması fermerlərə və təsərrüfatlara daha sərfəli şərait yaradır.

Qeyd edək ki, aqrar sığorta vasitəsilə kənd təsərrüfatı heyvanları yoluxucu xəstəliklər, ilan və ya həşərat sancması, zəhərli otlar, yemlər və kimyəvi maddələrin təsirindən zəhərlənmə, təbii fəlakətlər (zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına və dolu), yanğın, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri, eləcə də oğurluq, soyğunçuluq və quldurluq hallarından sığorta edilir. Artıq ölkə fermerləri heyvanların aqrar sığortasından da faydalana bilirlər.

Gələcəkdə isə ölkədə quşçuluq təsərrüfatlarının sığortalanmasına başlanması nəzərdə tutulur. Hazırda qardaş Türkiyənin, eləcə də Avropa ölkələrinin bu sahədəki qabaqcıl təcrübəsi öyrənilir. Təsadüfi deyil ki, Aqrar Sığorta Fondu və "Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyi arasında keçirilmiş görüşdə də bu məsələ geniş müzakirə olunub. 50-dən artıq quşçuluq təsərrüfatı və müəssisələrini özündə birləşdirən "Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyinin sədri Mürvət Həsənli bildirib ki, hazırda quşçuluq və broyler təsərrüfatlarında 40 min nəfərə yaxın işçi çalışır. Onun sözlərinə görə, ölkədə gündə 4-4,5 milyon ədəd, ümumilikdə, ildə 2 milyard ədədə yaxın yumurta istehsal edilir ki, bunun da bir hissəsi xarici ölkələrə ixrac olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən il Azərbaycandan xaricə 60 milyon ədəd yumurta ixrac olunub ki, bunun da əksər hissəsi Rusiya və Birləşmiş Ərəb Əmirliklərinə göndərilib. Bununla yanaşı, bir sıra Avropa ölkələri ilə də yumurta ixracı ilə bağlı razılaşmalar mövcuddur. 2024-cü ildə isə yumurta ixracının 100 milyona çatacağı gözlənilir.

Yeri gəlmişkən, Azərbaycanda aqrar sığortanın tətbiqi Prezident İlham Əliyevin "Aqrar Sığorta Fondunun yaradılması barədə" 19 avqust 2019-cu il tarixli Fərmanı və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Belə ki, həmin sənədlər kənd təsərrüfatında risklərin sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Dövlət başçısının imzaladığı məlum fərmana əsasən, ölkəmizdə aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, eləcə də idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən Aqrar Sığorta Fondu qeyri-kommersiya hüquqi şəxs yaradılıb. Aqrar sığorta mexanizminin tətbiqinin əsas məqsədi isə təsərrüfat sahiblərini və fermerləri gözlənilməz təbiət hadisələrindən müdafiə etmək üçün işlək bir mexanizmin yaradılmasından ibarətdir.

Göründüyü kimi, Azərbaycanda aqrar sığorta mexanizmi tamamilə yeni sahə olsa da, onun tətbiqi kənd təsərrüfatına bir dinamizm, inkişaf gətirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən iqtisadi islahatların tərkib hissəsi olan aqrar sığorta ötən müddətdə özünü fermerlərin və fərdi təsərrüfat sahiblərinin əsl dayağı, himayədarı kimi təqdim etməyi bacarıb. Bütövlükdə isə, bu mexanizmin işə düşməsi ötən müddətdə Azərbaycanda dövlət-özəl sektor tərəfdaşlığına mühüm töhfələr verib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Meyvə-tərəvəz ixracı ölkəmizə 100 milyon dollar qazandırıb

**Dövlət Gömrük Komitəsinin hesablamalarına görə, 2024-cü ilin yanvar-fevral ayları ərzində Azərbaycandan 99 milyon 481 min dollar dəyərində 87 min 71 ton meyvə-tərəvəz ixrac olunub.**



Məlumata əsasən, keçən ilin yanvar-fevral ayları ilə müqayisədə cari ilin müvafiq dövründə ölkədə ixrac edilən meyvə-tərəvəzin dəyəri 24,6 faiz və ya 19,6 milyon dollar, həcmi isə 28 faiz və ya 19 min ton artıb. 2023-cü ilin ilk 2 ayında isə Azərbaycan 79 milyon 851 min dollar dəyərində 68 min ton meyvə-tərəvəz ixrac edib.

Qeyd edək ki, hesabat dövründə ixraca yönəldilən meyvə-tərəvəz məhsulları 30 milyon dollar dəyərində tomat (21,7 min ton) , 26,4 milyon dollar dəyərində xurma (33,3 min ton), 22,9 milyon dollar dəyərində meşə fındığı (3,8 min ton), 12,1 milyon dollar dəyərində alma (18,3 min ton ), 2,5 milyon dollar dəyərində nar (2,8 min ton), 198 min dollar dəyərində kartof (625 ton) olub.

Əlavə edək ki, cari ilin yanvar-fevral aylarında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 2,08 faizə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 21,86 faizə bərabər olub.

***XQ***

# Fermerlərə güzəştli kreditlər artıb

**Cari ilin yanvar–fevral ayları ərzində Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 2492 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib. Bu da əvvəlki ilin müvafiq göstəricini 5,1 dəfə üstələyir.**

Aqrar Tədqiqatlar Mərkəzinin hesabatında bildirilir ki, cari ilin ilk iki ayında aqrar sektorda fəaliyyət göstərən 449 fiziki və hüquqi şəxsə 10,5 milyon manat məbləğində texnika və avadanlıq təyinatlı güzəştli kredit verilib. Hesabata əsasən, 2023-cü ilin yanvar-fevral ayları ilə müqayisədə güzəştli kredit alanların sayı 2,7 dəfə (285 nəfər), kredit məbləği isə 2,9 dəfə (6,9 milyon manat) artıb.

***XQ***



# Qarabağın "yaşıl" sərvəti – xarici şirkətlərin artan diqqəti

**Energetika Nazirliyində işğaldan azad edilmiş ərazilərdə yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə işçi qrupun 6-cı iclası keçirilib.**

İşçi qrupun sədri, Energetika naziri Pərviz Şahbazov Prezident İlham Əliyevin tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji" həllərinin tətbiqi istiqamətində görülən işlərə, digər qabaqcıl texnologiya-



larla yanaşı, bu ərazilərdə elektromobillər üçün əlverişli infrastrukturun yaradılması zərurətinə diqqət çəkib. O, ölkəmizdə "yaşıl enerji" zonalarının yaradılması istiqamətində həyata keçirilən tədbirlərin cari ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda təşkili kontekstində qlobal əhəmiyyətini bir daha vurğulayıb.

Sonra iclasın gündəliyinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məsələsi ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində görülmüş işlərlə bağlı müzakirələr aparılıb. Tədbirdə əvvəlki iclasda qəbul edilmiş qərarların icrasına dair işçi qrupun katibliyinin hesabatı dinlənilib. İşğaldan azad olunmuş ərazilərdə yaşıl texnologiyaların və enerji səmərəliliyinin tətbiqi üzrə aparılmış monitorinqlərin nəticəsinə dair hesabat təqdim edilib.

Eyni zamanda, "yaşıl enerji" zonasında tətbiq edilən müvafiq komponentlərin resurs bazasında əks etdirilməsi ilə bağlı görülmüş işlər, düşmən işğalından azad olunmuş ərazilərdə mənzil inşaatı, yaşayış binalarının tikintisi sahəsində həyata keçirilmiş tədbirlər barədə məlumat verilib. Bununla yanaşı, gündəlikdən irəli gələn digər cari məsələlərlə bağlı görülən işlər və icrası nəzərdə tutulan tədbirlər müzakirə edilib.

İclasda işçi qrupa daxil olan dövlət qurumları ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəliklərinin və "Bərpa Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxslərin, eləcə də Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinin, "Azəristiliktəchizat" ASC-nin, Mənzil İnşaatı Dövlət Agentliyinin və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpaolunan enerji istehsalı üçün geniş imkanlar var. Mütəxəssislərin son hesablamalarına görə, sözügedən ərazilərdə 10 qiqavat həcmində günəş və külək enerjisi potensialı mövcuddur. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Tərtərçay və Həkəri çaylarının qollarında hidroenerji istehsalı üçün geniş imkanlar var. Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları texniki potensialı 7200 meqavatdan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şəraitə malikdir. Bununla yanaşı, ilkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisinin texniki potensialı 2 min meqavat həcmində qiymətləndirilir. Kəlbəcər və Şuşa rayonlarında isə geotermal enerji mənbələrindən "yaşıl enerji" kimi istifadə olunması imkanları mövcuddur.

Məhz bu zənginliyi nəzərə alan ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl enerji" zonası elan edib. Dövlət başçısı 2021-ci il 3 may tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sənədə əsasən, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Tədbirlər Planı" təsdiq edilib. Ötən müddətdə burada bir neçə su elektrik stansiyası inşa edilərək istismara verilib. Hökumətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı hazırladığı konsepsiyaya əsasən, həmin ərazilərdə istehlak edilən elektrik enerjisi yalnız bərpaolunan enerji mənbələrindən alınacaq.

Artıq işğaldan azad edilmiş ərazilərin bərpaolunan enerji potensialının hərkətə gətirilməsi istiqamətində konkret tədbirlərin həyata keçirilməsinə başlanılıb. Məlum olduğu kimi, 2022-ci il iyunun 4-də Bakı Enerji Forumu çərçivəsində Şuşada təşkil edilmiş "Xalis sıfıra aparan yol: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl enerji potensialının inkişafı" mövzusunda xüsusi sessiyada SOCAR və Böyük Britaniyanın BP şirkəti arasında ölkəmizin bərpaolunan enerji potensialının öyrənilməsi, bu sahədə əməkdaşlıq məsələləri və birgə layihələrin həyata keçirilməsinə dair əməkdaşlıq müqaviləsi imzalanıb. Yeri gəlmişkən, son illər bərpaolunan enerji ilə bağlı layihələrin icrasını özünün əsas fəaliyyət istiqamətləri sırasına daxil edən Azərbaycan Dövlət Neft Şirkətinin tərkibində "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb. Yeni qurum Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birgə "Meqa" layihəsinin ilkin mərhələsində quruda, ümumilikdə, 2 qiqavat gücündə külək və günəş enerjisi layihələrini icra edəcək.

Bununla yanaşı, artıq icra mərhələsinə qədəm qoyan "Şəfəq" layihəsi də BP şirkəti ilə əməkdaşlıq çərçivəsində reallaşdırılacaq. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunda "Şəfəq" layihəsi çərçivəsində fotovoltaik günəş elektrik stansiyasının tikinti işlərinə bu ilin ikinci yarısında başlanacaq. "Lighsource BP" şirkətinin operatoru olduğu "Şəfəq" layihəsi Cəbrayıl şəhərindən 5-10 kilometr məsafədə, təxminən, 802 hektarlıq ərazini əhatə edəcək. Ümumilikdə isə, layihəyə 240 meqavat gücündə günəş elektrik stansiyasının layihələndirməsi, təchizatı, mühəndislik, tikinti, quraşdırma, sınaq, istismara buraxma işləri və istismar mərhələsi daxildir. Layihə çərçivəsində tikinti işləri, təxminən, 18 ayadək davam edəcək.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpaolunan enerji potensialına beynəlxalq maraq isə getdikcə artmaqdadır. Artıq dünyanın bir sıra enerji şirkətləri bu ərazilərə sərmayə qoymaqda israrlıdırlar. Məlum olduğu kimi, bu il martın 1-də Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları çərçivəsində Azərbaycanın Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında Cəbrayıl rayonunda 100 meqavat gücündə günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı, satışı və istehlakına dair Anlaşma Memorandumu imzalanıb. Sənədə əsasən, rayon ərazisində 50 meqavatı ilkin mərhələdə, daha 50 meqavatı isə növbəti mərhələdə olmaqla, ümumilikdə, 100 meqavat həcmində günəş elektrik stansiyasının tikintisi planlaşdırılır.

**M.YAQUBZADƏ**
**XQ**

**Dünya Bankının (DB) hesabatına əsasən, bu maliyyə qurumunun iqlim maliyyələşdirməsi 2023-cü ildə rekord həddə çatıb və 29,4 milyard ABŞ dolları təşkil edib.**

Hesabatda, həmçinin qeyd edilir ki, DB gələcəkdə təkcə iqlim dəyişikliyi ilə mübarizəyə ayrılan vəsaitin həcminə diqqət yetirməməyi planlaşdırır. DB, eyni zamanda, investisiyaların təsirini izləməklə problemə daha geniş yanaşmağı qarşıya mühüm vəzifə kimi qoyur.

# Dünya Bankının iqlim maliyyələşdirməsində rekord




Layihələr sayəsində tullantıların həcmi azalır, hava daha təmiz olur, suyun keyfiyyəti və əhalinin sağlamlığı yaxşılaşır.

Bəs iqlim maliyyələşdirməsinin təmin etdiyi dəyişikliyin miqyası nə qədərdir? DB-nin hesabatında bu suala belə cavab verilir: "Maliyyə qurumu dünya ictimaiyyətinin sıfır emissiyaya nail olmasına və iqlim dəyişikliyinin təsirlərindən qorunmasına böyük diqqət yetirir. İqlim və inkişaf məsələlərini birlikdə həll etmək üçün DB ölkələrdə istixana qazı emissiyalarını azaltmaq üçün strategiyalar axtarır, digər yandan da mühüm yeni diaqnostik alət vasitəsilə – ölkələr üzrə iqlim və inkişaf hesabatları ilə davamlı inkişafı dəstəkləyir".

20-dən çox ölkəni əhatə edən birinci belə hesabat göstərir ki, iqlim dəyişikliyi uzunmüddətli inkişaf məqsədlərinə çox ciddi təhlükə yaradır, lakin ölkələr böyük dəyişikliklərə razı olsalar, emissiyaları azalda bilərlər və onların iqtisadiyyatları böyüməyə davam edir. Belə keçidi həyata keçirmək üçün lazım olan maliyyə resursları orta hesabla ÜDM-in təxminən 1,4 faizini təşkil edir – özəl sektorun lazımi iştirakı ilə bu məbləğ kifayət qədər əlçatandır. Bununla belə, aşağı gəlirli ölkələrdə tələb olunan maliyyələşdirmə ÜDM-in 5 faizini keçə bilər ki, bu da yüksək gəlirli ölkələrdən daha çox dəstək, o cümlədən daha güzəştli maliyyələşdirmə tələb edəcək.

Dünya Bankı, həmçinin davamlı inkişafa nail olmaq və yoxsulluğa son qoymaqla yanaşı, qlobal istiləşmənin 2°C, imkan olarsa 1,5°C ilə məhdudlaşdırılmasında irəliyə doğru mühüm addımı təmsil edən yeni maliyyələşdirmə əməliyyatlarını Paris Sazişinin məqsədlərinə uyğunlaşdırmağı öhdəsinə götürüb. Bank qeyd edir ki, 2023-cü il iyulun 1-dən DB-nin bütün maliyyələşdirmə əməliyyatları bu öhdəliyə uyğundur.

"Bankın baş ofisində İqlim Dəyişikliyi ilə Mübarizə üzrə Maliyyə Nazirləri Koalisiyasının katibliyi fəaliyyət göstərir. 86 ölkənin maliyyə nazirliyini və 26 institusional tərəfdaşı birləşdirən bu koalisiya 2023-cü ildə Dünya Bankı və IMF-in yaz toplantıları zamanı yaradılıb. Onun əsas məqsədi iqlim dəyişikliyi və ədalətli keçidin iqtisadi gündəmdə əsas yer tutmasını gerçəkləşdirmək, ölkələrin üzləşdiyi strateji problemləri müzakirə etmək və strategiyaların həyata keçirilməsində səmərəli təcrübəni bölüşməkdir.

Koalisiya həmçinin maliyyə nazirliklərinə iqlim fəaliyyətinə üstünlük verməyə kömək göstərmək üçün yeni tövsiyələr dərc edib. Siyasi qərarlar qəbuluna cavabdeh şəxslər, həmçinin ən çox çirkləndirici sənaye və fəaliyyətləri karbonsuzlaşdırmağı hədəfləyən "keçid maliyyəsi"ni də müzakirə edib və potensialın artırılması və yeni "yaşıl" siyasət və proseslərin həyata keçirilməsi üçün proqramları genişləndirib. Koalisiyanın gələcək işlərinə İndoneziya və Niderland rəhbərlik edəcək", – hesabatda vurğulanır.

**XQ**



# Xəzərin ekoloji dəyişikliyi ölkəmizin nəzarətindədir

**Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva Bakıda Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının rəhbər vəzifəli şəxslərinin beştərəfli görüşündə qeyd edib ki, Azərbaycan, öz növbəsində, Xəzər dənizinin ətraf mühitinə mənfi təsirləri minimuma endirmək üçün tədbirlər görür.**

U.Tağıyeva daha sonra deyib ki, bu tədbirlərdən biri də xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin yaradılmasıdır. Xəzər sahili zonasında ümumi sahəsi 165 min 989 hektar olan 4 milli park – Abşeron, Qızılağac, Samur – Yalama və Şirvan milli parkları var. Ölkəmiz ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, nəsli kəsilməkdə olan "Qırmızı Kitab"a daxil olan nadir fauna və flora növlərinin qorunub saxlanılması, ekoturizmin inkişaf etdirilməsi məsələlərinə xüsusi diqqət yetirir. Brakonyerliklə mübarizə ilə yanaşı, dəniz bioresurslarının bərpası və artırılmasına xüsusi diqqət yetirilir. Xəzər dənizinə və digər daxili su hövzələrinə son 3 ildə 20 milyondan çox balıq körpələri buraxılıb, bunlardan 1 milyon 771 mini nərə cinsli balıq körpələri olub.

Nazir müavini deyib ki, Xəzər dənizinin ətraf mühitinin ekoloji zərərlərinin müəyyənləşdirilməsi məqsədilə "Əlif Hacıyev" gəmisi ilə mütəmadi monitorinqlər həyata keçirilir: "Bu il Azərbaycan COP29 mötəbər beynəlxalq tədbirinə evsahibliyi edəcək. COP29-un əsas komponentləri arasında Xəzər dənizindəki ekoloji dəyişiklik problemləri də mühüm yer tutacaq. Danışıqlar prosesi ilə paralel iqlim fəaliyyəti gündəliyi çərçivəsində Xəzər dənizi ilə bağlı təşəbbüs də yer tutacaq. Bu da, öz növbəsində, Xəzər probleminin yalnız milli və regional səviyyədə deyil, həm də beynəlxalq səviyyədə iqlim dəyişmələrinə uyğunlaşma proqramları çərçivəsində həlli üçün zəmin yarada bilər".

**XQ**

# Azərbaycan COP29 estafetini ən yüksək səviyyədə irəli aparır



**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) qlobal miqyasda enerji sisteminin transformasiyasının aparıcı qüvvəsi və əməkdaşlıq üçün başlıca platforma kimi qabaqcıl təcrübə mərkəzi rolunu oynayaraq bu sahədə siyasət, texnologiya, resurslar və maliyyə imkanları haqqında bilikləri bir yerə toplayan hökumətlərarası təşkilatdır. IRENA dayanıqlı inkişaf, enerjiyə çıxış, enerji təhlükəsizliyi və aşağı karbon emissiyalı iqtisadi artım və rifah hədəflərini rəhbər tutaraq bioenerji, geotermal, hidroenergetika, okean, günəş və külək enerjisi də daxil olmaqla bərpaolunan enerjinin bütün növlərinin geniş yayılmasını və davamlı istifadəsini təşviq edir.**

Yarandığı dövrdən indiyə kimi təşkilata artıq 168 ölkə və Avropa İttifaqı (Aİ) üzv olub. Azərbaycan 2009-cu ildən IRENA-nın üzvlüyünə qəbul edilib və 2014-cü il mayın 2-də Milli Məclisin qərarı ilə IRENA-nın nizamnaməsinin ratifikasiyası ilə onun tamhüquqlu üzvü olub. Ötən il yanvarın 14-15-də keçirilən IRENA Assambleyasının 13-cü sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan 2023-2024-cü illər üzrə IRENA Şurasına üzv seçilib.

IRENA-nın baş direktoru Françesko La Kamera mediaya müsahibəsində Azərbaycanla bu qurum arasında əməkdaşlığın genişləndirilməsi, enerji keçidinin sürətləndirilməsi, eyni zamanda, yaşıl enerji texnologiyalarına qlobal investisiyalar və Bakının evsahibliyi edəcəyi COP29 barədə fikirlərini bölüşüb. O, IRENA-nın intellektual potensialının 2025-ci ildə ölkələrə öz milli səviyyələrində verdikləri töhfələri nəzərdən keçirməyə xidmət edə biləcəyini vurğulayıb: "Biz, həmçinin Azərbaycanda bərpaolunan enerjiyə sərmayə qoyuluşunu təşviq edə bilərik. Beləliklə, Azərbaycanla birgə əməkdaşlığımız intellektual potensialdan və yerində icra olunan işlərdən ibarətdir. Biz Azərbaycanla əməkdaşlıq edirik, əməkdaşlığımız çox yaxşıdır. Azərbaycan, həmçinin İRENA Şurasının üzvüdür.

Françesko La Kamera müxbirin "Az karbonlu enerji keçidini sürətləndirmək və davamlı inkişafa nail olmaq üçün hansı tədbirlər görülməlidir?" sualına isə belə cavab verib:

– Bu sualı hamıya, o cümlədən Azərbaycana da aid etmək olar. Biz bərpaolunan enerji mənbələrindən daha sürətli şəkildə istifadə etmək üçün struktur maneənin üç əsas sahəsini müəyyən etdik. Birincisi infrastrukturdur. Yəni bizim balanslaşdırılmış, bir-birinə sıx bağlı olan enerji sisteminə ehtiyacımız var. İkincisi, biz hələ də lazımi strategiyaları müəyyən etməmişik. Bundan əlavə, lazımi bacarıqlara və qurumların potensiallarına hələ də malik deyilik. Üçüncüsü, universitetlərimizin tədris planı köhnə enerji sisteminə bağlıdır. Həmin istiqamətlər üzrə inkişaf etməliyik".

IRENA-nın baş direktoru müsahibədə bildirib ki, enerji səmərəliliyi də daxil olmaqla "yaşıl enerji" texnologiyalarına qlobal investisiyalar 1,3 trilyon dollara çatıb. Bu, yeni rekorddur. Bununla belə, biz bütöv sistemdən danışarkən sərmayələri dörd dəfə artıraraq 5,2 trilyon dollara çatdırmalıyıq. Ötən il bərpaolunan enerjinin tutumu əvvəlki ilə nisbətən 60 faizdən çox təşkil edərək rekord il oldu ki, bu, çox böyük irəliləyişdir. Biz düzgün istiqamətdə irəliləyirik. Əsas problem vaxtdır. Hansı istiqamətdə gedəcəyimiz barədə şübhə yoxdur. Məsələ ondan ibarətdir ki, bizim iqlim dəyişikliyi ilə bağlı problemimiz var ki, bu da bizi CO2 emissiyasını çox sürətlə azaltmağa məcbur edir. Yəni istiqamət düzgündür, lakin sürəti və miqyası istədiyimiz kimi deyil. Beləliklə, biz enerji keçidini sürətləndirməli və genişləndirməliyik.

Françesko La Kamera müsahibəsinin sonunda Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından gözləntiləri barədə də fikirlərini bildirib: "Mən artıq bir neçə dəfə Azərbaycana səfər etmişəm. Mənim ölkənin energetika naziri ilə işgüzar münasibətlərim var. Azərbaycanın və onun hökumətinin COP29 konfransını uğurla keçirilməsi üçün hər cür imkanları var. Məqsədlər çox aydındır. Yeni maliyyə öhdəliyi barədə qərar verməliyik.

**XQ**

Peşəkarlıq və mərhəmət

# Şəfalı əllərin möcüzəsi

## 5 yaşlı Aydan ölümün pəncəsindən necə xilas edildi?

**Xəstəxanada şərait nə qədər ideal, avadanlıqlar nə qədər müasir olsa da, əsas məsələ insan amilidir. Əgər həkim yüksək ixtisaslı peşəkar olmasa, ona müraciət edən pasientin dərdinə çarə tapmaq üçün can yandırmasa, yeri gələndə fədakarlıq göstərməsə, ən müasir avadanlıq da fayda verməz.**



Bir çox hallarda şəfalı əllər sahibinin xeyirxahlıq, canıyananlıq kimi yüksək insani keyfiyyətləri ən ağır xəstənin belə dərdinə çarə tapmaqda ona yol göstərir. Məhz həkimin insansevərliyi və mərhəməti öləzimәkdә olan ümidi şölələndirməyə, dünyadan əlini üzənə yeni həyat bəxş etməyə qadirdir.

Belə həkimlərdən biri Mərkəzi Gömrük Hospitalının uşaq uroloq-cərrahı Toğrul Piriyevdir. Cari ilin yanvar ayında ağır vəziyyətdə xəstəxanaya çatdırılan 5 yaşlı Aydan balanı məhz Toğrul həkim həyata qaytarıb. Aydanın nənəsi Fəzilə Əmiraslanova bu barədə "XQ"-yə danışır: "Aydan mənim qız nəvəmdir. Biz onu Toğrul həkimin yanına gətirəndə sağ qalacağına ümidimizi itirmişdik. Toğrul həkim nəvəmi o dünyadan qaytardı. O, genişqəlbli insan, peşəsinin bilicisi kimi bizə köməyini əsirgəmədi. Sanki onu bizə Allah yetirdi. Allah ömrünü uzun, yolunu açıq, işini avand etsin".

Qəbələ rayonunun Mıxlıqovaq kəndindən olan Fəzilə Əmiraslanova şəhid anasıdır. Dünyaya gətirdiyi, boya-başa çatdırdığı 3 qızının yeganə qardaşı, oğlu Ümman Əmiraslanov Vətən müharibəsi zamanı – 2020-ci il oktyabrın 2-də Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Fəzilə ana deyir ki, oğlu Tovuz döyüşlərindən, xüsusilə general-mayor Polad Həşimovun şəhid olmasından xeyli təsirlənib. Azğınlaşmış düşməndən qisas almaq hissi Ümmanın elə həmin günlərdə – 2020-ci il iyulun 14-də könüllü surətdə ordu sıralarına yazılmasına səbəb olub. Sentyabrın 21-dən təlimlərə cəlb olunan əsgər ayın 27-dən döyüşə atılıb. Torpaqlarımızın azad edilməsində xüsusi igidlik göstərib. Ancaq müharibənin başlanmasından 5 gün sonra yağı gülləsinə tuş gəlib. Şəxsi igidliyinə və şücaətinə görə ölümündən sonra dövlət başçısının sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Uroloq-cərrah Toğrul Piriyevin həyata qaytardığı Aydanın atası Tamerlan Həmidov da Vətən müharibəsi iştirakçısıdır. Fəzilə Əmiraslanova danışır: "Aydan dayısına çox bənzəyir. Ona görə deyirəm ki, şəhid balamın qoxusunu ondan alıram. Toğrul həkimə həm də ona görə minnətdaram ki, mənə oğlumun yadigarını qaytardı. Bu işə göydə Allah, yerdə Toğrul həkim vəsilə oldu".

Şəhid anası söhbət zamanı nəvəsinin müalicəsinin əvvəlcə yanlış aparıldığını bildirdi: "Toğrul həkimin yanına gələnədək səhv yolda olduq, çox mərhələlər keçdik. Biz Gömrük Hospitalına çatanda Aydanın qızdırması 40 dərəcə, nəvəm ölüm ayağında idi. Allaha şükürlər olsun ki, Toğrul həkimi tapdıq. Balamızı həyata qaytardı. Ona çox minnətdarıq".

Onu da öyrəndik ki, Aydanın xəstəliyi qaraciyər absesi (qaraciyər toxumasında nekroz, infeksion iltihab və septik əlamətlərlə xarakterizə olunan xəstəlik – red.) olub. Xəstəlik genişlənərək uşağın bağırsaqlarını zədələyib. Bu səbəbdən Aydan beş saat yarımlıq ağır əməliyyat keçirib.

Yazını hazırlayarkən uşaq uroloq-cərrahı Toğrul Piriyevin də fikirlərini öyrəndik: "Aydan bala kəskin qarın ağrısı, qusma və yüksək hərarətlə klinikamıza gətirilmişdi. Müayinələr nəticəsində qaraciyərin sağ beşinci seqmentində 5 santimetrlik kisdidatik, yəni exnokok kistası aşkarlandı. Həm də kisidin qopma və deşilmə riskini nəzərə alaraq, təcili əməliyyata götürdük. Əməliyyat uğurlu keçdi. Yeri gəlmişkən, hospitalın rəhbərliyi də Aydanın müalicəsinə xüsusi diqqət və qayğı ilə yanaşdı, əməliyyatın istənilən sonluqla bitməsinə dəstəyini əsirgəmədi. Klinikada dördgünlük müalicədən sonra evə buraxıldı. Bir müddət keçəndən sonra kontrola gəldi. Hər şey normal idi".

Fəxarət hissi ilə qələmə aldığımız və bizə müqəddəs Ramazan ayının İlahi fəzilətlərini xatırladan bu hekayətin sonunda xeyirxah Toğrul həkimə: – "Qazandığınız növbəti savabınız mübarək olsun, Allah əllərinizdən şəfanı, ürəyinizdən mərhəməti əskik etməsin!" – deyirik.

Toğrul Piriyev 1986-cı il avqustun 19-da Bakı şəhərində anadan olub. 2004–2010-cu illərdə Azərbaycan Tibb Universitetinin Pediatriya fakültəsində təhsil alıb. Universiteti fərqlənmə diplomu ilə bitirib. 2010-2011-ci illərdə Mərkəzi Klinikada uşaq urologiyası ixtisası üzrə internatura keçib. 2017–2019-cu illərdə İstanbul Universiteti Cərrahpaşa Tibb fakültəsində Uşaq cərrahiyyəsi və uşaq urologiyası ixtisası üzrə ixtisasartırma kurslarında olub və klinikada çalışıb. 2011–2013-cü illərdə "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətdə həkim işləyib. 2014-cü ildən 2019-cu ilədək "Baku Medical Plaza"da uroloq-cərrah kimi fəaliyyət göstərib. 2023-cü ilin fevralından etibarən Mərkəzi Gömrük Hospitalındadır.

***Səxavət HƏMİD***
***XQ***

# Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının görüşü




**Aprelin 4-də Bakıda "Xəzər dənizinin akvatoriyasında ekoloji təhdidlər və hüquqpozmalar: dəniz mühitinin qorunması üçün prokurorluq orqanlarının strategiyaları" mövzusunda Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşü keçirilib.**

Baş prokuror Kamran Əliyev ölkəmizdə ekoloji problemlərin həllini daim diqqətdə saxlayan Ümummilli lideri Heydər Əliyevin Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində ətraf mühitin qorunması sahəsində uğurlu dövlət siyasətini həyata keçirdiyini vurğulayıb. Həmin strateji kursun davamı olaraq dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini, ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirildiyini, o cümlədən bu ilin noyabrında COP29-a ev sahibliyi edəcəyini diqqətdə saxlayıb.

Xəzər dənizinin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələləri, bu sahədə prokurorluq orqanlarının rolu, o cümlədən 2006-cı il 12 avqust tarixli "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyası üzrə əməkdaşlığın vacibliyini vurğulayıb.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva ölkəmiz tərəfindən Xəzərin ətraf mühitinə mənfi təsirləri minimuma endirmək üçün xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin yaradılmasından, o cümlədən dənizin ekoloji vəziyyətinin qiymətləndirilməsi, dəniz ətraf mühitinə mümkün neqativ təsirlərin müəyyənləşdirilməsi məqsədilə nazirlik tərəfindən mütəmadi ekspedisiyaların keçirilməsindən danışıb.

***XQ***

# Daxili işlər naziri Hacıqabulda



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 4-də Hacıqabul Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Rayon polis şöbəsinin inzibati binasında Hacıqabul, Şirvan, Salyan və Neftçala şəhər və rayonlarından qəbula gələn 87 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həll olunması ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. 32 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 109 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# Milli təhlükəsizlik mövzusunun elmi tədqiqində yeni uğur

**Siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilovun "Milli təhlükəsizlik nəzəriyyəsi" adlı monoqrafiyası milli təhlükəsizlik məsələlərinin araşdırılmasına sanballı töhfə sayıla bilər.**

Uzun müddət bu istiqamətdə tədqiqat aparmış müəllif milli təhlükəsizliyin həm elmi-nəzəri problemlərinin hərtərəfli öyrənilməsi və təhlil edilməsinə nail olmuş, həm də milli təhlükəsizliyin təminatı prosesinin praktik-tətbiqi mexanizmləri ilə bağlı məsələləri dolğun əks etdirə bilmişdir. 9 fəsil, ön söz və ədəbiyyat siyahısından ibarət olan monoqrafiyada milli təhlükəsizliyin mahiyyəti, predmeti, kateqoriyaları, tədqiq və tətbiq metodları aydınlaşdırılmışdır. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti və sisteminin təşəkkülü, formalaşması və inkişaf xüsusiyyətləri, onun hüquqi əsasları, həyata keçirilmə mexanizmləri, əsas milli maraqlar və onların reallaşdırılmasının müvafiq istiqamətləri, parametrləri, müasir beynəlxalq münasibətlər nəzəriyyəsində milli təhlükəsizlik probleminə yeni tələblər, çağırışlar və yanaşmalar da kitabda ümumiləşdirilərək tədqiq olunmuş, düzgün elmi-nəzəri nəticələr çıxarılmışdır.

Cəlil Xəlilovun milli təhlükəsizlik siyasəti məsələləri ilə bağlı elmi-nəzəri mülahizələrinin konkretliyini və dərinliyini şərtləndirən başlıca amillərdən biri də müəllifin praktik olaraq bələd olduğu bu mövzunu uzun illər araşdırması və onunla bağlı AR Prezidenti yanında İdarəçilik Akademiyasında tədris prosesi ilə məşğul olması ilə əlaqədardır.

Siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilovun təhlükəsizlik nəzəriyyəsini ölkəmizdə yeni bir elm sahəsi kimi dərindən araşdırmaq səyləri, gətirdiyi arqumentlər, irəli sürdüyü mülahizə və qənaətlərin həqiqiliyi və inandırıcılığı onu deməyə əsas verir ki, müəllifin bu istiqamətdə tədqiqatlarının əhatə dairəsini genişləndirməsi bu sahənin inkişafına töhfə vermək niyyətindən və potensialından qaynaqlanır.

Monoqrafiyada Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin təşkili, milli maraqlar, onların təminatı prosesi, vasitələri, üsulları, təhlükəsizliyin müxtəlif aspektlərinin və ölkəmizə qarşı mümkün təhdidlərin təhlili, müvafiq dövlət orqanlarının bu sahədəki vəzifələri, səlahiyyətləri və əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi məsələləri elmi-nəzəri, həm də praktik baxımdan kifayət qədər əsaslandırılmış, düzgün nəticələr çıxarılmışdır. Müəllif hərbi, siyasi, iqtisadi, sosial, mədəni, ekoloji və digər istiqamətlərdə milli təhlükəsizliyin təminatı, dövlət, cəmiyyət və fərdlər səviyyəsində bu işin təşkili ilə bağlı məsələləri günün prizmasından dəyərləndirmiş və qeyd edilən sahələrdə daha səmərəli və əlaqləndirilmiş fəaliyyətin vacib məqamlarına toxunmuşdur.

Monoqrafiyada milli təhlükəsizliyə qarşı təhdidləri doğuran səbəblər, onların vaxtında aşkarlanması, qarşısının alınması üçün görülən qabaqlayıcı tədbirlər və digər məqamlar da ciddi tədqiqat obyektinə çevrilmiş, hərtərəfli dəyərləndirilmiş, bütün incəliklər nəzərə alınmışdır. Bir daha vurğulayaq ki, bütün bunların məntiqi ardıcıllıqla və yüksək səviyyədə təhlil olunması Cəlil Xəlilovun milli təhlükəsizlik məsələlərini yalnız nəzəri deyil, həm də təcrübi baxımdan yaxşı bilməsindən, peşəkar hərbi kadr kimi uzun müddət sərhəd, hərbi və milli təhlükəsizliyin təminatı sahələrində çalışmasından və son 10 ilə yaxın müddətdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini kimi fəaliyyətindən qaynaqlanır. Görkəmli alman filosofu və nasiri Hötenin təbirincə desək, "həmişə yaşıl həyat ağacı"ndan bacarıqla bəhrələnməsi tədqiqat əsərini daha canlı və faydalı etmişdir.




Müəllif haqlı olaraq, İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən və 2023-cü ilin 19-20 sentyabrında bir günlük lokal antiterror tədbirlərindən sonra öz ərazi bütövlüyünü və bütün ərazisində dövlət suverenliyini tam bərpa etmiş Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin gerçəkləşdirilməsində tamamilə yeni dövrün başlandığını, Azərbaycanın dünyanın müxtəlif təhlükəsizlik sistemləri ilə münasibətlərinin bu reallıqlar zəminində təşəkkül tapması zərurətini xüsusi vurğulamışdır.

Ümumiyyətlə, monoqrafiyada tədqiqata cəlb olunmuş mövzu ilə bağlı bütün məqamlar nəzərə alınmış, dolğun və düzgün nəticələr çıxarılmış, təkmil bir elmi-nəzəri əsərin ortaya çıxmasına nail olunmuşdur.

***Lətif BABAYEV,***
***tarix üzrə fəlsəfə doktoru***

# Azərbaycan mina təhlükəsi ilə mübarizədə

**Dünən Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü münasibətilə Tərtərdə toplantı keçirilib.**




Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi yanında İctimai Şuranın üzvləri, Azərbaycanın aparıcı QHT rəhbərləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun icra etdiyi Azərbaycanın ilk Qadın minaaxtaranları, Qeyri-Texniki Təhqiqat və Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə layihələrinin əməkdaşları, mina qurbanları və onların ailə üzvlərinin iştirakı ilə keçirilən mərasimdə BAMF-ın prezidenti və ANAMA yanında İctimai Şuranın sədri Umud Mirzəyev dünyada və Azərbaycanda mina təhlükəsindən, onun yaratdığı fəsadlardan danışıb.

Minalar Əleyhinə Azərbaycan Kampaniyasının sədri Hafiz Səfixanov bildirib ki, Azərbaycandakı mina qurbanlarının sayı Cənubi Qafqazın digər ərazilərindəki bütün mina qurbanlarının sayından çoxdur. Bu səbəbdən bildirdi ki, maarifləndirmə proqramlarında verilən tövsiyələrə ciddi əməl etmək lazımdır.

Mina qurbanları – ANAMA yanında İctimai Şuranın üzvü Hafiz Əzimzadə, Minadan Zərərçəkənlər Assosiasiyası birliyinin sədri Rey Kərimoğlu ölkəmizdəki minadan zərərçəkənlərin problemlərindən, Azərbaycan dövlətinin bu istiqamətdə gördüyü işlərdən danışıblar.

Sonra vətəndaş cəmiyyəti qurumları, minadan zərərçəkənlər və mina qurbanlarının ailə üzvlərinin imzası ilə dünya ictimaiyyətinə müraciət qəbul olunub.

***XQ***

# Aprel döyüşləri – unudulmaz rəşadət

**Mingəçevir Şəhər İcra Hakimiyyəti və Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə gənclərlə görüş keçirilib. Aprel döyüşlərinin ildönümünə həsr olunmuş tədbiri şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov açıb.**



İ.İsmayılov bildirib ki, 2016-cı il aprel ayının əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qaldıqdan sonra ordumuz əks hücuma keçdi. Bəzi mövqelər düşməndən azad edildi.

Savaşda 94 nəfər hərbi qulluqçumuz şəhid oldu. Bu döyüşlərdə Mingəçevirdən Teymur Qasımov, Adil Adilzadə, Rüstəm Əhmədov, Rahim Tağıyev şəhadətə yüksəldilər.

Tədbirdə Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin rəis müavini Kamal Nəcəfli, şəhid atası Oruc Əhmədov, şəhid anası Gülnarə Abdullayeva, Aprel döyüşləri iştirakçısı Ramiz Quliyev və başqaları çıxış edərək Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında qəhrəmanlıq göstərmiş şəhidlərimizin şücaətlərindən danışdılar, xatirələrini andılar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Ermənistanın mina savaşının hədəfi dinc insanlardır

**4 Aprel Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günündə Ermənistanın mina terrorundan zərərçəkənlər, mina qurbanlarının ailə üzvləri, bu sahədə fəaliyyət göstərən milli QHT-lər birgə bəyanat verərək beynəlxalq ictimaiyyəti BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi "minasız dünya" məqsədinin elan edilməsi üçün səfərbərliyə çağırıblar.**

Bəyanatda bildirilir ki, çağdaş dünyada 60 milyon insan hələ də mina təhlükəsi altındadır. Azərbaycan da Ermənistanın mina müharibəsindən əziyyət çəkən məkan olaraq ölümsaçan vasitələrlə ən çox çirklənmiş ölkələr sırasındadır. Azərbaycan torpaqlarının bir hissəsini 30 il işğal altında saxlamış Ermənistan bu ərazilərdə 1,5 milyondan çox mina basdırıb, ərazi digər partlayıcı sursatlarla kəskin çirkləndirilib. Ermənistanın mina terroru nəticəsində 1991-ci ildən 3 min 429 nəfər azərbaycanlı zərər çəkib. Onların əksəriyyəti mülki şəxslərdir - 358 nəfəri uşaqlar və gənclər, 38 nəfəri isə qadınlardır.

Ermənistanın məqsədi Azərbaycanın dinc əhalisinə qarşı müharibədir. Azad edilmiş ərazilərdəki yaşayış evlərində, qəbiristanlıqlarda və digər yerlərdə aşkar edilən minalar, o cümlədən tələ minalar buna sübutdur. 2020-ci ildə 44 günlük müharibədən sonra Azərbaycanda mina hadisələrindən ölən şəxslərin 77 faizi mülki şəxslərdir. Ötən dövr ərzində 350 nəfər azad edilmiş ərazilərdə minaya düşüb, onlardan 65 nəfər həyatını itirib, 285 nəfər xəsarət alıb. Mina məsələsi bu gün Azərbaycanın ən böyük probleminə çevrilib.

Çağırış bu sözlərlə bitir: "Biz beynəlxalq ictimaiyyəti Ermənistanı mühakimə etməyə və Azərbaycana humanitar minatəmizləmə fəaliyyətində dəstək olmağa çağırırıq. Biz inanırıq ki, gün gələcək ki, Qarabağ və Şərqi Zəngəzur minadan azad bölgə elan olunacaq. Biz dünya ictimaiyyətinə üz tutaraq bu günü yaxınlaşdırmaq üçün Azərbaycana hərtərəfli dəstək olmağa, BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi "minasız dünya" məqsədinin elan edilməsi üçün ardıcıl fəaliyyətə çağırırıq".

***XQ***

Unudulmazlar

# Əzizəni gözləyərkən...

## Şəhrizadın 1002-ci gecəsinin nağılı



**1979-cu ildə Avropanın Monako knyazlığında qeyri-adi caz festivalı keçirilir. Bu musiqi yarışmasında iştirak edən hər bir ifaçının adı və mənsub olduğu ölkə münsiflərdən gizli saxlanılır. Knyazlığın səsli-küylü Monte Karlo şəhərində yüzdən çox cazmenin günlərlə davam edən yarışması başa çatdıqdan sonra "Ağ royal" mükafatının qalibi elan olunur: Vaqif Mustafazadə!**

Heyhat, Vaqif Mustafazadə bu yarışmanın qalibi olduğunu heç vaxt bilməyəcək! Çünki Monte Karloda keçirilən dünya caz festivalından qayıdan cazmen 16 dekabr 1979-cu ildə Daşkənddə konsert verərkən səhnədəcə həyatla vidalaşıb.

O, kiçik qızı Əzizənin şəninə bəstələdiyi "Əzizəni gözləyərkən" adlı kompozisiyasını xüsusi çılğınlıqla ifa edib bitirdikdən sonra başını pianonun dilləri üstünə endirir. Tamaşaçıların sürəkli alqışlarından sonra cazmenin halından şübhələnən aparıcı ona yaxınlaşır və... artıq Vaqif yoxdur! Səhnənin böyük pərdəsi enir. Həmin pərdə 39 yaşlı caz ustasını həyatdan əbədi ayıraraq milyonların qəlbinə köçürür.

Vaqif Mustafazadə 16 mart, 1940-cı ildə Bakıda, İçərişəhərdə hərbçi həkim ailəsində anadan olub. Valideynləri ayrıldığına görə balaca Vaqif musiqi məktəbində piano dərsi keçən anası Zivər xanımın himayəsində böyüyür. Muğam sənətini Üzeyir Hacıbəyovdan öyrənmiş Zivər xanım həm də onun ilk musiqi müəllimi olur.

Vaqif 1963-cü ildə Asəf Zeynallı adına musiqi kollecini bitirib Bakı Musiqi Akademiyasına daxil olur. Təhsil aldığı vaxtlar klublarda avanqard konsertlər təşkil edir, ifalarında klassik caz musiqisinə, bluz və oynaq ritmlərə daha çox üstünlük verir. Klassik cazla İçərişəhərin ruhunu – muğamı qovuşduraraq unikal musiqi icad edən novator bəstəkarı yerli radio-televiziya şirkəti özünə yaxın buraxmır. Ecazkar caz-muğam ifaçısının heyranları getdikcə artsa da, mühafizəkarlar onu tənqid atəşinə tuturlar.

Vaqif caz gecələrində birgə çıxış elədiyi vokalist Nərminə xanımla ailə qurur və bu evlilikdən 1965-ci ildə Lalə adlı qızları dünyaya gəlir. Cazmenin 2-ci evliliyi isə rəhbərlik etdiyi "Sevil" instrumental ansamblının solisti, gürcü əsilli Elza Bandzeladze ilə baş tutur. Bu nikahdan Əzizə Mustafazadə dünyaya gəlir.

Fəaliyyəti Bakı klublarının dar səhnələrinə sığmayan Vaqif, həyat yoldaşı Elzanın dəstəyi ilə ilkin musiqi karyerasını Tiflisdə qurmalı olur. Sevimli sənətindən usanmaq bilməyən pianoçu qonşu ölkənin paytaxtında "Qafqaz" adlı caz-trio yaradır.

Vaqif Mustafazadə Estoniyada düzənlənən dünya cazmenlərinin "Tallin-66" və "Tallin-67" yarışlarının laureatı olmuşdu. 1967-ci ildə Tallin şəhərində mükafatı Vaqifə şəxsən təqdim etmək üçün səhnəyə çıxan məşhur amerikalı caz ustası Dizzi Gillespi onun yaradıcılığını "gələcəyin musiqisi" adlandırmış və gözəl ifaya görə gənc cazmenə öz minnətdarlığını bildirmişdi.

Cazmenin xaricdəki uğurlarından sonra Bakı televiziyası yumşalaraq onu müəyyən şərtlərlə efirə buraxmaq fikrinə düşür. Ekranda görünməsi üçün Vaqif öz lopa bığlarını "redaktə" etməli, cins şalvarının yerinə isə şax kostyum geyinməli idi. Yenilikçi sənətkar televiziya rəhbərliyinin bu şərtlərindən qətiyyətlə imtina edir. Beləcə, sənət aləmində ona qarşı olan süni əngəllər çayır kimi əl-ayağına dolaşır, ömrünü çürüdürdü.

Konsertlər düzənləmək üçün SSRİ-nin müxtəlif şəhərlərinə dəvət alan caz-muğam ustasının şöhrəti getdikcə artır. Vaqif Mustafazadə fenomeninə görə dünya cazmenləri 1969-cu ildə, bu dəfə dahi ifaçının doğulduğu Bakıda "Caz-69" festivalına yığışırlar.

Vaqifin ağır günlərinin dostu olan həyat yoldaşı Elza xanım onu bir an belə tək buraxmır, bütün çalışmalarının arxasında sevgi ilə dayanır. Vaqif Mustafazadə gərgin bəstəçi həyatına və uzaq səfərlərinə baxmayaraq, 1964-cü ildən "Orero" ansamblına, "Qafqaz" caz-triosuna, "Leyli" və "Sevil" qadın vokal instrumental, "Muğam" instrumental ansambllarına rəhbərlik edir.

1968-ci ildə SSRİ-nin bir neçə şəhərində konsertlər verən cazmen 1970-ci ildə məşhur müğənni Rəşid Behbudovla Latın Amerikası ölkələrində qastrol səfərlərində olur. O, 1978-ci ildə Tiflisdə keçirilən caz festivalında 8 yaşlı qızı Əzizə ilə səhnəyə çıxaraq tamaşaçıları valeh edir və "Ən böyük pionoçu" adını qazanır.

Milli muğamımızı klassik Amerika caz musiqisi ilə sintez edərək yeni musiqi növü yaratmış dahi pianoçu Vaqif Mustafazadə 1982-ci ildə ölümündən sonra Azərbaycan Dövlət Mükafatına layiq görülür.

Caz-muğam ustasının ölümündən dərhal sonra "Amerikanın səsi" radiosunda "Caz vaxtı" verilişinin aparıcısı məşhur Uillis Konover bütün verilişi Vaqifin xatirəsinə həsr edir.

Vaqif Mustafazadə və qızı Əzizə Mustafazadənin adı Amerika redaktorlarının imzası altında "Ümumdünya caz ensiklopediyası" kitabına həkk olunub.

Yazımı dünyaca məşhur İsveç pianoçusu Yohanssonun sözləri ilə bitirmək istəyirəm: "Vaqifin olduqca müasir olan musiqisindən həm də sirli, qədim Qafqaz melodiyası axır. Onu dinləyərkən, sanki, Şəhrizadın 1002-ci gecəsinin nağılına qulaq asırsan..."

***Murad KÖHNƏQALA***

# Barmaqların oxuduğu nəğmələr

**...2002-ci ildə dünya şöhrətli Müslüm Maqomayevin 60 illik yubileyi Bakıda keçirilərkən ABŞ-da yaşayan görkəmli pianoçu, müşayiətçi, Xalq artisti Çingiz Sadıqov da okeanın o tayından sənət dostunu təbrik etməyə, onun yubiley gecəsinə qatılmağa gəlmişdi. Konsertdən sonra ulu öndər Heydər Əliyev adəti üzrə tədbir iştirakçıları ilə görüşərkən Çingiz müəllimin sənətinin çox doğma olduğunu belə ifadə etmişdi: "Çingiz Sadıqovun sənətdə ən böyük xidməti odur ki, sırf Avropa musiqi aləti olan royal onun sənətkarlığı sayəsində Azərbaycan milli musiqi alətinə çevrilib".**




O elə bir sənətkar idi ki, müşayiətçinin heç də vokalçının kölgəsi yox, səhnədə onun arxa-dayağı olduğunu anlatmışdı. İfaları virtuoz idi. Bu barədə söz düşəndə digər görkəmli pianoçumuz Fərhad Bədəlbəyli belə demişdi: "Pianoçunun əlləri həmişə isti olmalıdır. Məsələn, onun yaradıcılığından bəzən mənim barmaqlarım bumbuz olur, belədə çalmaq çətinləşir, gərək barmaqlarını ovuşdurub isidəsən. Amma Çingizin əlləri həmişə istidir, barmaqları həmişə sözünə baxır". Bəlkə elə buna görə də Çingiz Sadıqovun ifası hərarətlidir, onun qəlbindən barmaqlarına axan şirinlik, könül qızdıran hərarət eşidənlərin qulaqlarından qəlbinə süzülür.

Çingiz Sadıqov1929-cu ildə anadan olmuşdu. Uşaqlıqdan musiqi təhsili almışdı. Sonradan Bülbül adına məktəb kimi formalaşacaq musiqi məktəbində, sonra da konservatoriyada təhsil almışdı. Öz xatirələrində deyirdi ki, mənim uşaqlığım olmayıb. Məktəbdən gələndə məhəllə uşaqlarını küçədə futbol oynayan, dalaşan görərdim, kənarda dayanıb beş dəqiqə onlara baxıb, evimizə qalxar, nahar edəndən sonra fortepianonun arxasına keçib 4 saat fasiləsiz çalardım. Bir də axşam yenidən düz 4 saat məşq edərdim.

Gələcəyin böyük pianoçusu belə yetişirdi. Üstəlik, Moskva konservatoriyasının aspiranturasını bitirəndən sonra onu ən azı, o vaxtkı SSRİ-nin böyük konsert salonları, ən nüfuzlu orkestrləri ilə solo çıxışlar, klassik fortepiano musiqisi ifaçısı karyerası gözləyirdi.

Amma bir gün... Moskvada təhsilini bitirib Bakıya qayıtmış gənc Çingizə böyük Bülbül zəng vurur: "Çingiz bala, – deyir, – mənim Orta Asiyaya qastrolum var, tərs kimi də Volodya (Bülbülün müşayiətçisi – pianoçu Vladimir Kozlov - müəl.) da xəstələnib. Mənə dedilər ki, sən Azərbaycan musiqisini çox yaxşı bilirsən, bəlkə məni müşayiət edəsən?".

Təbii ki, 25 yaşlı pianoçu bu təkliflə razılaşır. Bülbül təxminən 1 ay Orta Asiyanın bütün respublikalarında konsertlər verir. İlk hissədə simfonik orkestrin müşayiətilə, 2-ci hissədə isə Çingiz Sadıqovun müşayiətilə çıxış edir. Sonradan Çingiz Sadıqov bu qastrol barədə deyəcəkdi: "Mən o zaman anladım ki, klassik piano ifaçılığının ardınca getsəm, dünyadakı minlərlə pianoçudan biri olacağam, amma Azərbaycan xalq mahnılarının, bəstəkar mahnılarının ifası yolunu tutsam, həm bu sahədə 1-ci olaram, həm də çox iş görərəm. Mənim missiyam Azərbaycan musiqisini təbliğ etməkdir".

Gənc yaşda verilmiş belə uzaqgörən və düzgün qərar Çingiz Sadıqovun gələcək taleyini yönləndirdi. Bülbül, Rəşid Benbudov, Müslüm Maqomayev, Lütfiyar İmanov, Fidan və Xuraman Qasımovalar... daha kimlər səhnələrdə Çingiz Sadıqovun müşayiəti ilə parlaq çıxışlar etdilər.

Hərdən belə konsertlərdə qəribə hadisələr də baş verirdi. Sənətkar qəlbi kövrək, xasiyyəti də şıltaq olar. Bir gün Rəşid Behbudovun estrada orkestrinin müşayiəti ilə konserti olacaqmış, təbii ki, pianoda da Çingiz Sadıqov çalacaqmış. Necə olursa, konsertə az qalmış Rəşidin dediyi bir söz Çingizin xətrinə dəyir. Konsert başlayır, proqrama görə Rəşid Behbudov o zamanların çox məşhur "Я встретил девушку, полумесяцем бровь" ("Bir qızı gördüm, qaşları aypara") mahnısı ilə çıxışına başlamalıymış. Orkestr mahnıya girişi ifa edir, amma müğənni oxumur. Orkestr mahnıya girişi bir də təkrarlayır, yenə də çaşqın müğənni oxumur, gözlərini müşayiətçiyə dikib ondan kömək istəyir, o da müğənninin üzünə baxmır. Orkestr 3-cü dəfə mahnının girişini verib xorla mahnının ilk misralarını oxuyur və həmin an Rəşid Behbudov da oxumağa başlayır. Salon bu çaşğınlığı indiki dillə desək, bir kreativ yanaşma kimi qəbul edərək alqışlayır. Demə, Rəşid Behbudov mahnının ilk misralarını qəfil unudubmuş və hər belə məqam yetişəndə mətni onun yadına salan Çingiz Sadıqov bayaqkı inciklik səbəbindən xatırlatma vermir. Konsertdən sonra barışan yaradıcılıq dostları uzun illər bu əhvalatı xatırlayıb gülərmişlər.

Yaşının ahıl çağında Amerika Birləşmiş Ştatlarına köçən Çingiz Sadıqov orada təkcə diaspor təşkilatlarımızın təşkil etdiyi tədbirlərdə çıxış etmirdi. Onun yaradıcılıq potensialına bələd olanlar pianoçunu müxtəlif konsertlərə dəvət edirdilər. Beləcə, Çingiz müəllim okeanın o tayında Azərbaycan musiqisinin təbliğatçısına çevrilmişdi. Maestronun Amerika dövrü xatirələrində belə bir məqam var: "Mən Azərbaycan musiqisini tarda, qarmonda, ya da kamançada ifa edilən kimi çalmıram. Melodiyanı saxlayıram, amma akkompaniment hissəsini, harmonizasiyasını bugünkü melodiyalara uyğunlaşdırıram. Ona görə də amerikalılar və başqa xalqlar tanış səsləri eşidəndə həmin musiqini başa düşür və melodiya onların xoşuna gəlir. Amerikalılar Azərbaycan musiqisinə etnik musiqi kimi baxmır, onu tanıdıqları müasir bir musiqi kimi qəbul edirlər. Bir dəfə konsertdə gördüm ki, bir amerikalı qadının gözlərindən yaş axır, soruşdum sizə nə olub? Qadın dedi ki, mən musiqini sevən adamam və çox musiqi dinləmişəm, amma hələ elə bir musiqi dinləməmişəm ki, sizin musiqiniz qədər adamın ürəyinə təsir etsin".

Yaşının ahıl çağına baxmayaraq, Çingiz Sadıqov uzaq Amerikadan dəfələrlə Bakıya gəldi, konsertlərdə çıxış etdi, onu sevənlərlə görüşdü. Ta ürəyindən əməliyyat keçirənədək. Həkimlərin təyyarəyə minməyi yasaq etməsi onu ürək ağrısından çox ağrıdırmış. Bir də o, vətənə həmişəlik qayıtdı. 88 yaşında dünyasını dəyişdikdən sonra öz vəsiyyəti və Prezident İlham Əliyevin tapşırığı ilə onun nəşi Bakıya gətirilərək, II Fəxri xiyabanda torpağa tapşırıldı...

Azərbaycan ifaçılıq məktəbi çox pianoçu yetişdirib, amma "Şöhrət" ordenli Xalq artisti Çingiz Sadıqov həmişə barmaqları ilə oxuyan adam kimi xatirələrdə qalacaq.

***Gülcahan MİRMƏMMƏD***

Asəf Zeynallı – 115

# Nakam ömrün susmaz melodiyası



...Radioda Bülbülün ifasında Asəf Zeynallının "Ölkəm" romansı səslənir:

***Şiş ucları buludlarla döyüşən,***
***Dağlarında buzları var ölkəmin...***

Ecazkar romansı heyranlıqla dinləyirəm. Eyni zamanda bu əsərin Cəfər Cabbarlıya məxsus olan sözləri ilə bağlı deyilənləri xatırlayıram. Yozumlara görə, gənc Cəfər burada Vətənin bolşevik işğalına məruz qalmasına, lakin ölkəsini azad görmək istəyinə üstüörtülü işarələr vurub. Şeiri yazanda Cəfərin 20, romanı bəstələnəndə isə Asəfin 19 yaşı olub. Amma əsəri necə də yüksək sənətkarlıqla yazıblar!

Dahi Bülbüldən sonra bu romansı musiqi sənətimizin digər korifeyləri Firəngiz Əhmədova, Lütfiyar İmanov, Gülağa Məmmədov, Fidan və Xuraman Qasımova bacıları və neçə-neçə tanınmış sənətçi – Sona Aslanova, Rauf Atakişiyev, Mobil Əhmədov, Rauf Adıgözəlov, Yaşar Səfərov, Azər Zeynalov oxuyblar. Nə yaxşı ki, "Ölkəm" indi də tez-tez səsləndirilib dinləyiciyə həzin, xoş anlar yaşadır.

Böyük istedad sahibi olan bəstəkar Asəf Zeynalabdin oğlu Zeynallı 1909-cu il aprelin 5-də Azərbaycana neçə-neçə elm, mədəniyyət və incəsənət xadimi bəxş edən qədim Dərbənddə doğulub. O, 1 yaşında ikən atası vəfat edib və Asəf 3 qardaşı ilə anasının himayəsində qalıb. Anası onu Dərbənd realnı məktəbinə qoyanda 7 yaşı olub. Oradakı uşaq xorunda oxumağa başlayıb, klarnet çalmağı öyrənib. Həmin illərdə Dərbənddəki nəfəsli orkestr yay axşamlarında şəhər parkında konsertlər verəndə o da səhnədə məharətini göstərib.

Mayası musiqi ilə yoğrulmuş Asəfin 11 yaşı olanda ailəsi Bakıya köçür. O, əvvəlcə hərbi məktəbin nəzdində nəfəsli orkestrdə truba çalmağı öyrənir, sonra Bakı Musiqi Texnikumunun truba, violonçel, fortepiano siniflərində təhsil alır. "Truba üçün pyes"ini 14 yaşında texnikumda özü ifa edir. Bu zaman onun bir gözü elə hey bir kənarda oturmuş Kövkəb adlı tələbə yoldaşına dikilir. Çünki könlündə sevgi tumurcuqlayıbmış. O qız gələcəyin böyük pianoçusu, pedaqoqu, Xalq artisti olacaq Kövkəb Səfərəliyeva idi. Yeri gəlmişkən, Asəflə Kövkəb sonradan konservatoriyada da bir yerdə oxuyub, nişanlanıblar da. Amma Asəf gənc yaşında vəfat etdikdən sonra Kövkəb xanım daha heç kimə könül verməyib, ailə həyatı qurmayıb.

Asəf Zeynallı Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində Üzeyir Hacıbəylinin sinfini bitirib. Onu gördüyü andan "Bu ki əsl istedaddır", – deyən dahi Üzeyir bəy tələbəsinə xüsusi diqqət göstərib. Sonrakı dövrdə Asəf öz xatirələrində bu qayğı və sevgidən bəhs edərək Üzeyir bəyin ona mənəvi ata olduğunu qeyd edib.

Bir fakt da var ki, tələbə ola-ola həm də müəllimlik edən Asəf Zeynallı bir müddət Tofiq Quliyevə və Qara Qarayevə də dərs deyib. Üzeyir bulağından su içən Asəf Zeynallı cəmi 23 il ömür sürsə də, milli musiqi sənətində silinməz izlər qoyub. O, milli romans, piano və simfonik musiqinin banisi sayılır. Bəstəkarın yuxarıda xatırlatdığım "Ölkəm", eləcə də "Sərhədçi", "Çadra", "Sual", "Seyran" romansları milli vokal musiqimizin inciləridir. Piano üçün "Uşaq süitası" silsiləsi, "Çahargah" pyesi, violino və piano üçün "Muğamsayağı", 2 fuqa, simfonik orkestr üçün "Fraqmentlər", teatr tamaşalarına musiqi, xalq mahnıları işləmələrinin müəllifi də odur. Bunlarla bərabər, gənc sənətçi Azərbaycan musiqi folklorunun toplanıb nota köçürülməsi sahəsində böyük iş aparıb. "İbtidai not savadı" adlı dərslik tərtib edib.

Asəf Zeynallı həmçinin Türk (Azərbaycan) fəhlə teatrında oynanılan C.Cabbarlının "Sevil", "Qayıdış", X. Nəzirli və S. Rüstəmin "Alov", A. Həmidin "Hind qızı", V. Kirşonun "Küləklər şəhəri" əsərlərinə musiqi bəstələyib. "Uşaq süitası" əsəri ilə ilk dəfə Azərbaycan uşaq musiqisi repertuarının əsasını qoyub, 70-ə yaxın xalq mahnısını nota alıb.

Təəssüf ki, qəlbi yazıb-yaratmaq eşqi ilə coşan gənc bəstəkar üçün Azərbaycan musiqi folkloru nümunələrini toplamaqdan ötrü Qarabağa səfər etməsi düşərli olmayıb. Orada ağır xəstələnib. İşini yarımçıq qoyaraq, müalicə üçün Bakıya qayıdıb və qısa müddətdə vəfat edib.

Bəstəkar xəstəxanada olarkən otağının divarına son simfoniyasını yazıb və qardaşından əsərin divardan kağıza köçürülməsini xahiş edərək deyib: "Bu, mənim simfoniyamdır. Öləcəyimi bilirəm, qoymayın divarda qalsın".Təəssüf ki, ailə onun ölümündən şokda olduğu üçün vəsiyyəti yerinə yetirməyib. Bəzi mənbələrdə həmin əsərin "Bakı" simfoniyası olduğu bildirilir.

Beləcə, Asəf Zeynallı 27 oktyabr 1932-ci ildə yaradıcılığının zirvə dövründə dünyasını dəyişib. Çəmbərəkənd qəbiristanlığında dəfn olunub, sonralar "Qurd Qapısı" qəbiristanlığına köçürülüb. Onu da xatırladım ki, Azərbaycan Dövlət Konservatoriyası 20 ildən çox Asəf Zeynallının adını daşıyıb. Üzeyir Hacıbəylinin vəfatından sonra adını əbədiləşdirmək istəyəndə qardaşlarından razılıq alıblar ki, konservatoriyaya Üzeyir bəyin, musiqi texnikumuna isə Asəfin adı verilsin. Elə də olub, amma 2000-ci ildə texnikum kollecə çevriləndə Asəf Zeynallının adı da götürülüb...

P.S: Bu yazını hazırlayarkən gənc həmkarım Mirmehdi Ağaoğlunun Asəf Zeynallının qardaşı oğlu Tamerlan Zeynalovla müsahibəsindən bir parça diqqətimi cəlb etdi. O deyib ki, bir gün Moskvaya uçarkən təyyarədə bəstəkar Tofiq Quliyevlə yol yoldaşı olub: "O heç bilmirdi ki, Mən Asəf Zeynallının qardaşı oğluyam. Soruşdum ki, Tofiq Ələkbəroviç, siz o qədər mahnı yazmısız, hamısı dillər əzbəridir, bəs, ilk mahnınız hansıdır? Dedi bilirsən nə var, o vaxt bizimlə bir tələbə də oxuyurdu. O adam Allah vergisi idi, tələbə ola-ola bizə dərs də deyirdi. Adı Asəf Zeynallı idi. Bir gün çağırdı, Sabirin "Uşaq və buz" şeirini mənə göstərib tapşırdı ki, buna bir mahnı yaz. Gəldim evə, yazdım-pozdum, səhər konservatoriyada yazdığımı Asəf müəllimə göstərdim. Xoşuna gəldi. Yəni mən Asəf Zeynallının xeyir-duası ilə bəstəkar oldum. Bunu Tofiq müəllim sonralar Asəf haqqında çəkilən sənədli filmdə də deyib".

***Əli NƏCƏFXANLI***
***XQ***

Günün müzakirəsi

**Azərbaycan Dil Qurumunun təşkilatçılığı ilə "Qanunlarımızın və kargüzarlıq sənədlərinin dili" mövzusunda elmi müzakirə keçirilib.**

Milli Məclisin üzvü, Azərbaycan Dil Qurumunun sədri, Xalq şairi Sabir Rüstəmxanlı müzakirədə geniş məruzə ilə çıxış etdi. Zamanın çağırışlarının sürətlə dəyişdiyi hazırkı dövrdə ana dilinin saflığının qorunması zərurətini önə çəkən məruzəçi dedi: "Nəsrimizin və poeziyamızın dilində

# Qanunların dili aydın və səlisdirmi?



səlislik qorunsa da, təəssüf ki, qanunlarımızda bu sahədə boşluqlar var. Rəsmi sənədlər vasitəsilə dilimizə keçən xeyli yabançı sözlər var ki, onları ifadə etməkdə çətinlik çəkirik. Bəzi dövlət qurumlarının, qanunların adlarında belə Azərbaycan dilinin qanunları pozulur. Əslində isə çətin anlaşılan yabançı sözlərin əksərinin dilimizdə qarşılığını tapmaq mümkündür. Sadəcə olaraq, hər yerdə və hər kəs ana dilimizə daha təəssübkeş yanaşmalıdır".

Məruzəçi rəsmi sənədləşmələrdə və xarici terminlərdə ortaq türk dilinin imkanlarından istifadənin vacibliyini də diqqətə çatdırdı. Daha sonra çıxış edən yazıçı Seyran Səxavət dilin saflığını qorumaq üçün hər bir ziyalının, hər bir vətəndaşın bu işə can yandırmasının vacibliyini bildirdi. Professor Nəsib Nəsibli Azərbaycan dilinin işlənmə arealının bu gün daha geniş olduğunu dedi, bu baxımdan kargüzarlıq və terminlər sahəsindəki problemlərin aradan qaldırılmasının həm mənəvi, həm də siyasi mahiyyət daşıdığını diqqətə çatdırdı.

Terminologiya komissiyasının sədr müavini Sayalı Sadıqova Akademiyanın müvafiq strukturlarında dilimizlə, o cümlədən terminlərlə bağlı xeyli iş görüldüyünü, amma bunun da tam yetərli olmadığını söylədi. O, eyni zamanda terminlərin milliləşdirilməsi prosesində digər türk dövlətləri ilə əlaqəli iş aparıldığını qeyd etdi.

Millət vəkili Erkin Qədirli dedi ki, bütün dillərdə alınma sözlər var, bundan qaçmaq mümkünsüzdür, amma ifrata varılmamalıdır. Tanınmış telejurnalist və publisist, professor Qulu Məhərrəmli alınma sözlər və terminlərə münasibətdə anlayışı ən doğru ifadə edən sözün seçilməsinin doğru olduğunu bildirdi. Qanunların dilindəki problemlərin əsas səbəbinin bəzən qanunların kor-koranə tərcümə edilməsi ilə bağlı olduğunu qeyd etdi. Deputatlar Tahir Kərimli, Kamal Cəfərov, professor Telman Vəlixanlı, Əməkdar hüquqşünas Əkrəm Kərimov da müzakirə olunan məsələyə münasibətlərini bildirdilər.

Sonda müzakirələrdə səslənən təkliflərlə bağlı müvafiq qurumlara müraciət ediləcəyi bildirildi.

***XQ***

Beynəlxalq həyat

# Qiymətli oyuncaqlarını itirən “balaca şahzadə” – Makron

**Fransa prezidenti Emmanuel Makronun təxribatları Şimali Atlantika Blokuna daxil olan ölkələr arasında əməlli-başlı parçalanmaya səbəb olub. Belə ki, bu ilin fevralında Makron Rusiya–Ukrayna silahlı münaqişəsində Qərbin bütün strategiyasının yenidən nəzərdən keçirilməsinə gətirib çıxaracaq Paris sammitinə yol açmaq üçün ABŞ prezidenti Co Bayden və Almaniya kansleri Olaf Şoltsla konfidensial danışıqlar aparıb. Makron həmsöhbətlərinə bildirib ki, Qərb müttəfiqləri Rusiya ilə bağlı “strateji qeyri-müəyyənlik” mövqeyini tutmalıdırlar, heç bir variantı, o cümlədən hərbi variantları istisna etməməlidirlər.**

Bu, münaqişənin başlanğıcından bəri Bayden administrasiyasının tutduğu mövqedən radikal dönüş demək idi. Vaşinqtonun balanslaşdırılmış və sınanılmış yanaşması var. O, Moskvanı təxribata çəkə biləcək və hərbi əməliyyatların genişlənməsinə səbəb ola biləcək hərəkətlərdən qaçır. Makron isə əksinə, Qərbin qarşısında qoyulan “qırmızı xətlər” adlanan sərhədləri ilə bağlı konkretlikdən imtina etmək və Kremli fərziyyələr və ehtimallar qurmağa məcbur etmək istəyirdi.

Bayden münaqişənin genişlənməsindən ehtiyat edərək, strategiyanın dəyişdirilməsinin zəruriliyini şübhə altına aldı. Şolts da həmçinin Makronun ideyasına qarşı çıxdı və bildirdi ki, bu müttəfiqlərin parçalanmasına səbəb olacaq və NATO-nu münaqişə tərəfinə çevirəcək.

Fevral sammiti keçiriləndə, Fransa lideri Şolts və Ağ evin görüşə göndərdiyi dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen kimi digər rəsmilərdən yeni yanaşmaya etirazlar eşitdi. Lakin tədbirin sonunda keçirilən mətbuat konfransında Makron hərbi variantların, hətta NATO ölkələrindən qoşun göndərilməsinin də istisna edilməməsi lazım olduğunu söyləməklə müttəfiqlərini heyrətə saldı.



“The Wall Street Journal” nəşrinin müxbiri Fransa prezidentinin bu addımını özünəməxsus şəkildə belə şərh edir: “Makron özünün nümayişkaranə itaətsizliyi ilə münaqişənin başlanğıcında olduğu göyərçindən, aparıcı qırğıya çevrilməsini tamamladı. Bundan əvvəl Fransa prezidenti Rusiya lideri Vladimir Putinlə dialoqun tərəfdarı kimi çıxış edir və xəbərdarlıq edirdi ki, müttəfiqlər “Rusiyanı alçaltmasınlar”.

Politoloqlar qeyd edirlər ki, Makronun fikrincə, Ukraynadakı silahlı münaqişə Amerikanın təhlükəsizlik zəmanətlərinin etibarlılığının şübhə doğurduğu bir dünyada Avropanın necə yaşaya biləcəyini göstərən lakmus kağızıdır. Fransa liderini artıq uzun müddətdir narahat edən əsas məsələ, guya Avropa ölkələri hərbi potensiallarını gücləndirməkdən imtina edəcəkləri təqdirdə, ABŞ və Çin kimi fövqəlgüclərin itaətkar vassalı olmaq riskini artırırlar. Müttəfiqlər tez-tez Makronun bu mövqe ilə özünü İkinci Dünya müharibəsindən sonra Fransaya rəhbərlik edən və əfsanəvi müstəqil ruha malik olan Şarl de Qolla bənzətmək cəhdini ələ salırlar.

Amma məsələ heç də Fransanın Ukraynaya və özünün Avropa tərəfdaşlarına ürək yandırmasında, onların taleyi üçün narahat olmasında deyil. Əsas məsələ Rusiyanın Fransanı Afrikadakı koloniyalarından məhrum etməsində əsas rol oynamasında və bununla da Makronun prezidenti olduğu dövlətin iqtisadi-siyasi elitasının illərlə soyub-taladığı ölkələrin əldən çıxmasındadır. Fransa indi əksər Avropa ölkələri ilə müqayisədə daha çətin iqtisadi durumdadır. “Daily Telegraph” nəşri yazır ki, Fransanın zəifləyən iqtisadiyyatı bütün avrozonanı çökdürmək təhlükəsi yaradır.

Ölkənin büdcə kəsirinə diqqət yetirmək kifayətdir ki, prezident Makronun ölkə iqtisadiyyatının transformasiyası ilə bağlı irimiqyaslı layihəsinin iflasa uğradığı bəlli olsun. Üstəlik, Paris borcunu artırmağa davam edir və bununla da Avropada maliyyə böhranı ehtimalını artırır. Makronun iqtisadiyyat sahəsindəki ambisiyalı layihələri kağız üzərində heyrətamiz görünsə də, gerçəkdə tam iflasa uğradı.

Fransanın 2023-cü ildə büdcə kəsiri ÜDM-in 5,5 faizini təşkil edib. Pandemiyadan sonrakı bərpaya, pensiya islahatlarının həyata keçirilməsinə və enerji sahəsinə subsidiyaların azaldılmasına baxmayaraq, ölkə balanslaşdırılmış nəticəyə hələ də yaxınlaşmayıb. BVF-nin proqnozlarına görə, Fransa iqtisadiyyatı bu il cəmi 0,9 faiz artacaq. Eyni zamanda, dövlət xərclərinin səviyyəsi davamlı şəkildə yüksək olaraq qalır. Üstəlik, Makronun müdafiəyə daha çox pul xərcləmək və doğum nisbətini artırmaq planlarını nəzərə alsaq, xərclərin daha da böyüməsi ehtimal olunur.

Paris nəinki vergiləri qaldırır, öz vətəndaşlarının sıxıb suyunu çıxarır, həm də dünyanın qalan hissəsindən aktiv şəkildə borc alır. Artan borclar isə gec-tez qlobal investorları Fransa hökumətinin fiskal strategiyasının dayanıqlı olmadığına inandıra bilər.

Bütün bunların bir kökü də məhz Fransanın Afrikada böyük gəlirlər gətirən koloniyalarından sürətlə məhrum olmasındadır. “Redakted” “YouTube” kanalının aparıcısı, tanınmış amerikalı jurnalist Kleyton Moris bunu öz şərhlərində obyektiv şəkildə belə qiymətləndirir: “Yoxsullaşan Fransa planeti Üçüncü Dünya müharibəsinə sürükləyir”.

Moris yazır: “Fransanın rifahı Afrika resurslarının “talanmasından” asılıdır və indi keçmiş müstəmləkələr Parisin əlaltılarına qarşı üsyan ediblər. Makron Afrikada Rusiyanın müqaviməti ilə qarşılaşıb və bu səbəbdən o, Moskvaya israrla Ukraynaya qoşun göndərməklə hədə-qorxu gəlir.

“Biz müharibə vəziyyətindəyik və təbii ki, bu, ən bariz şəkildə Qırmızı dənizdə - Rusiya ilə Fransa arasında özünü göstərir. Rusiya Fransanı hədələyir: “Əgər siz planlaşdırdığınız kimi Ukraynaya qoşun göndərsəniz, bu, Fransaya ölüm və dağıntı gətirəcək”. Bu onların sözləridir, mənim deyil”, – deyə jurnalist Makronun hiyləgər maskasını yırtır və onun siyasi demarşının əsl məramlarını üzə çıxarır.

Həqiqət isə ondan ibarətdir ki, bu həftə Rusiya ilk dəfə olaraq Qırmızı dənizə bir neçə iri hərbi gəmi göndərib. Bu, Fransaya və onun prezidenti Makrona birbaşa cavabdır.

Gəlin Qərbin siyasi hakimiyyətinin təzyiqi altında olan medianın işqılandırmadığı Afrikaya və onun tarixinə baxaq. Afrika bir çox nəsillər boyu Fransanın mülkiyyəti olub. Rəsmi Paris uzun onillər Afrika ölkələrinin zəngin təbii sərvətlərini istismar edirdi. Fransanın müasir fövqəldövlət kimi mövcudluğu o zaman mümkündür ki, Afrikada uran, litium, qızıl, gümüş, qalay və qitənin digər qiymətli mineral ehtiyatlarını talaya bilsin. Əgər o, bu sərvətləri talaya bilmirsə, başını itirir, siyasi şizofreniya baş qaldırır.

Reallıq ondan ibarətdir ki, Fransa urandan dünyanın hər hansı digər ölkəsindən daha çox asılıdır, çünki bu, atom elektrik stansiyalarının yeganə yanacağıdır. Fransanın elektrik enerjisinin demək olar ki, 70 faizi atom elektrik stansiyaları tərəfindən istehsal olunur və bu AES-lərin bütün uranı Afrikanın Niger əyalətindən oğurlanıb. Artıq bir neçə il əvvəl kolonial rejimin ilk çatları üzə çıxmağa başladı: keçmiş Fransa koloniyalarında çevrilişlər oldu. Bu yaxınlarda Niger, Konqo və başqaları qəti şəkildə dedilər: “Biz Fransadan, ölkəmizi zorlamaq və Fransaya ucuz qiymətə minerallar göndərmək üçün qurduğunuz oyuncaq hökumətlərdən bezmişik. Ölkələrimizdən çıxın, mineral ehtiyatlarımızı bizə verin”.

Keçən il kolonial rejimdən bezən Afrika ölkələri demişdilər: “Fransanın uranımızı talamasını dayandırmaq üçün bizə hərbi yardım lazımdır”. Onlar əvvəllər Rusiya sahibkarı Priqojinin komandanlığı altında olan, “ÇVK Vaqner” kimi tanınan (Xüsusi Hərbi Kompaniya) Rusiyanın özəl hərbi şirkətini ödənişlə bu işə cəlb etdilər. Priqojin, əlbəttə ki, artıq ölüb. Amma “Vaqner”in minlərlə döyüşçüsü indi də Afrikada – Saheldəki Fransız qoşunlarına birbaşa əks mövqedədirlər və onun kaloniyalarının yeni hökümətlərini təxribat və terrorlardan, hərbi çevrilişlərdən müdafiə edirlər.

Doğrudur, Fransa bəyan edir ki, onlar “sərvətləri talamaq üçün deyil, sadəcə olaraq terrorçuları dayandırmaq üçün buradadırlar!” Niger isə deyir: “Xeyr, bu, doğru deyil, siz bizim resurslarımızı talamaq və oyuncaq hökumət qurmaq üçün buradasınız. Terrorçu dediyiniz adamlar isə ölkəmizi qanunsuz işğal etməyin əleyhinədirlər”.

Bu günlərdə "Fransanın keçmiş müstəmləkə hakimiyyətindən ayrılacağını" vəd edən namizəd Bassiru Diomau Fay Seneqalın yeni prezidenti seçildi. Seçkilər zamanı Fay ölkənin valyuta məzənnəsinin avroya bağlanması məsələsini öyrənəcəyini, Avropa firmaları ilə balıq istehsalı müqavilələrini, həmçinin Seneqalın ərazi sularında qaz hasilatı üzrə Aİ ilə müqavilələrə yenidən baxacağını vəd edib.

Fransız və afrikalı şərhçilər Fayın seçilməsinin “frankofoniyaya növbəti ölüm zərbəsi” olduğunu gizlətmirlər. Üstəlik, bu dəfə anti-Fransa əhvali-ruhiyyəsi hərbi iğtişaşçılar tərəfindən deyil, demokratik yolla seçilmiş prezident tərəfindən nümayiş etdirilir. Bassiru Diomau Fay vurğulayır ki, o, Aİ və Fransa ilə "yeni tələbləri olan, münasibətlərdə daha çox bərabərlik və hörmət tələb edən" Afrika siyasətçilərinin yeni nəslini təmsil edir və əgər Paris bunu başa düşməsə, digər tərəfdaşların xeyrinə Afrikadan məcburi şəkildə çıxarılacaq. “Neue Zürcher Zeitung” qeyd edir ki, Fay “təhlükəsizlik sahəsində Rusiya ilə əməkdaşlığı istisna etmədiyini” bildirib.

Son 3 ildə Sudan, Çad, Burkina-Faso, Qvineya, Nigerdə baş verən inqilabların hamısı fransız müstəmləkəçiliyinin buxovlarını qırıb-atmaq istəyir. Bu region indi od içindədir və Fransa hər şeyini itirmək üzrədir. Paris elə ona görə də özünü çox çılğın və qəzəbli aparır. Məhz bu üzdən son bir neçə həftə ərzində Makron Rusiyanı belə qəzəbli şəkildə təhdid edir, Fransa qoşunlarını Ukraynaya göndərməklə hədələyir.

“Redakted”in jurnalisti Kleyton Moris hadisələrin hansı sonluqla başa çatacağını da açıb göstərir: “Əgər Makron bu addımı atarsa, Rusiya prezidenti Putin Fransaya vəd etdiyi ölüm və dağıntını yaşatmaqdan zərrə qədər də çəkinməyəcək”. Fransa, həqiqətən, itirdiklərindən o qədər qəzəblidir ki, bütün dünyanı müharibə alovuna bürüməkdən belə çəkinmir.

Kleyton çıxışının sonunda ABŞ-a da üz tutur və deyir: “Yeri gəlmişkən, bunun Baltimordakı körpüyə kiberhücumla bitəcəyini düşünürsünüz? Yox. Bu, ABŞ-a xəbərdarlıqdır: “Siz indicə Moskvada terror aktının həyata keçirilməsinə kömək etdiniz...Əgər buna mane olmasaq, xaos yaranacaq”.

2007-2010-cu illərdə Nikola Sarkozinin dövründə Fransanın müdafiə naziri postunu tutan Herve Morin prezident Makronun hərəkətlərindən hiddətə gəldiyini bildirib. O, respublika prezidentini təkəbbürdə ittiham edib və nüvə dövləti olan Rusiyaya qarşı təxribatların Fransanın təhlükəsizliyini riskə atdığını deyib: “Niyə Aİ və NATO tərəfdaşlarımızı özümüzdən uzaqlaşdırmalıyıq, taktiki və strateji silahlara malik nüvə dövləti olan Rusiyaya meydan oxumalıyıq? – deyə Morin hiddətlə sual verir. Onun sözlərinə görə, Emmanuel Makron Avropa qoşunlarının Ukraynaya göndərilməsinin mümkünlüyü barədə danışanda özünü “uşaq kral” kimi aparıb və təkəbbürünü gizlədə bilməyib. Sanki bu “uşaq krala” “yeddi il ərzində saray əyanları ilə qaladan çıxmağa icazə verilməyib”. Fransa prezidenti Kremllə oyununda həddən artıq çoxlu kartlar üzə çıxarıb və bununla da “strateji qeyri-müəyyənlik” hərbi konsepsiyanı sarsıdıb”, – deyə Morin bildirib.

Makron, həqiqətən, özünün son addımları ilə “balaca şahzadə”yə daha çox bənzəyir, həm də daha çox qiymətli oyuncaqlarını itirən “prins”ə. Onun bu itkilərdən sonrakı qəzəb, hiddət və təkəbbürü isə yaxşı bir nə vəd etmir. Azərbaycanda gözəl bir zərb-məsələ var: “Sirkə çox tünd olsa, öz qabını çatladar”. Makron da ən yaxşı halda “Parisi partlada bilər”, – başqa heç nəyi.

**İlqar RÜSTƏMOV**
**XQ**

# Kiçik zəka ustasının hədəfi – böyük şahmat



**Şahmat üzrə ilk dünya çempionu Vilhelm Steynitsin məşhur kəlamı var: Şahmat zəif ruhlu insanlar üçün deyil. Çünki şahmat oyundan çox zəka mübarizəsidir. Bu yola isə ancaq güclülər davam edə bilər. Azərbaycanın 13 yaşlı istedadlı şahmatçısı Xaqan Əhməd kimi... Dünya, Avropa çempionatlarının mükafatçısı bu gün daha yüksək zirvələr fəth etmək üçün inamla irəliləyir.**

Xaqan Əhməd şahmata böyük maraq olan ailədə doğulub. Atası uşaq yaşlarında şahmatla məşğul olub. Anası Kifayət xanımın dediyinə görə, şahmat həmişə stolun üstündə olub. İndi 15 yaşı olan böyük oğlu Ayxan kiçik yaşlarından şahmatla məşğul olarkən, 4 yaşlı Xaqan öz “sözünü” deyib:

–Biz Ayxanla məşğul olarkən görürdük ki, Xaqan artıq kompüterdə şahmat oynamağa çalışır. Stolun üstündə kömpütera boyu çatmadığından ayaqlarının ucunda min-bir əziyyətlə qalxaraq öz aləmində “vacib” gedişlər edir. Aylar keçdikcə başa düşdük ki, şahmat Xaqan üçün yalnız oyun deyil, həyatın özüdür.

Valideynləri 7 yaşlı uşağın şahmat kitablarını Azərbaycan dili ilə yanaşı, həm də rus dilində səbirlə oxuyaraq analiz etməsinə, saatlarla şahmat tapşırıqlarını yerinə yetirməsinə heyrətlə tamaşa ediblər.

**Kifayət xanım Xaqanın inadkar gedişlərini xatırlayır:**

– Xaqanın çox möhkəm xarakteri var. Hələ 5-6 yaşda ikən uduzduğu oyunlara görə, 1 dəqiqə olsun belə peşmançılıq hiss etdirməzdi. Emosional olduğu qədər də, inadkardır. Saatlarla şahmat lövhəsi arxasında otururdu. Bir gediş üçün min-bir variant düşünürdü.

Xaqanın çoxlu futbolçu dostları var. Məhəllədə tez-tez oynayırlar. Komandada oynamaq ona böyük zövq verir. Anasının dediyinə görə, elə şahmat yarışlarında da, komanda oyunlarında qələbə onun üçün böyük motivasiyadır. Onu da öyrəndik ki, Xaqanın əkiz tayı da var. Amma bacısı Sona ilə tam fərqlidirlər. Birinin ürəyi fırtına qarışıq mübarizə, digərininki isə həzin musiqi ilə döyünür. Sevimli bacısının pianoda ifalarını boş vaxtlarında dinləməyi çox sevir.

**Şəxsi məşqçiləri Rəsul İbrahimov və Orxan Abdulov Xaqanın gələcəyinə böyük ümidlər bəsləyirlər. O.Abdulov Xaqanın çox istedadlı və böyük perspektivləri olan şahmatçı olduğunu dedi:**

– Xaqan keçən il Avropa çempionu olub. Bacardığımız qədər onun şahmat biliklərini artırmağa çalışırıq. Azərbaycan Şahmat Federasiyası da Xaqan Əhmədə dəstək verir. Bu, peşəkar idmandır. Şübhəsiz, əlavə sponsor da lazımdır ki, daha yaxşı inkişaf edə bilsin. Xaqanın şahmat potensialı çox yüksəkdir.



Rəsul İbrahimov Xaqanın indiyədək reytinqi 2400-dən yuxarı olan 10-dan çox beynəlxalq usta və qrossmeysterlər üzərində qələbə qazandığını dedi. O qeyd etdi ki, bu il üçün əsas hədəflərdən biri də beynəlxalq usta normasını yığmaqdır.

**Haşiyə:** Xaqan Əhməd Beynəlxalq Şahmat Federasiyası Şahmat Akademiyasında dünya ölkələrindən seçilən istedadlı uşaqlar üçün xüsusi təlimə cəlb olunub. Onlayn dərslərin yekununa əsasən, 450 yeniyetmə arasından xüsusi seçilən 13 yeniyetmə ilə əyani məşqlərdə iştirak üçün İspaniyanın Menorka şəhərinə dəvət olunan şahmatçımız Yudit Polqar və Artur Yusupov kimi tanınmış mütəxəssislərin təcrübələrindən yararlanır.

Şahmatda olduğu kimi, həyatda da hər bir “gediş” vücibdir və bunun üçün mütləq hədəf olmalıdır. Kiçik zəka ustamız üçün isə əsas hədəf böyük şahmatdır.

**Leyla QURBANOVA**
**XQ**

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

cəmiyyətə məxsus texnikalar (avtoyükləyici, konteyner yükləyici, minik və yük nəqliyyat vasitələri, və s.) üçün şinlərin satın alınması məqsədilə

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 1 may 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- +994 12 -599 -00 -03 (daxili 3706).
Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

liman ərazisində istismar olunan lokomotivlərin (2 ədəd) təmiri xidmətlərinin satın alınması üçün

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 22 aprel 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu: +994 12- 599- 00 -03 (daxili 3704).
Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

“MOSKVİÇTEXXİDMƏT” ASC səhmdarlarının nəzərinə!

“Moskviçtexxidmət”ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 25 may 2024-cü il saat 10.00-da Bakı şəhəri, Sumqayıt şossesi 4 nömrəli ünvanda keçiriləcəkdir.
Ümumi yığıncağın gündəliyi :
1. Cəmiyyətin 2023-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunları.
2. Dividendlərin verilməsi.
3. Digər məsələlər.
Ümumi yığıncağın gündəliyinə aid məsələlərlə bağlı cəmiyyətə müraciət etmək olar.
Telefon: +99450-646-06-76.

“Şəki Kimyəvi Təmizləmə” ASC səhmdarlarının nəzərinə!

22 may 2024-cü il saat 11.00-da “Şəki Kimyəvi Təmizləmə” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.
Gündəlikdəki məsələlər:
1. Cəmiyyətin 2023-cü ilin yekunlarının müzakirəsi və təsdiqi .
2. Digər məsələlər.
Səhmdarların ümumi yığıncaqda şəxsiyyəti təsdiq edən sənədlə iştirakı vacibdir.
Əlaqə telefonu - 055-762-03-60, 077 -762-03-60
Ünvan- Şəki şəhəri, Oğuz şosesi 4.

*“Şəki Kimyəvi Təmizləmə” ASC-nin baş direktoru*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 70 (30474) 5 aprel 2024-cü il, cümə

# “Tamaşaçı şoudan bezib...”

**Sənətdə yalnız onun fədaisi kimi uğur qazanmaq olar. Bunu peşəkarlar deyiblər – həmsöhbətim də belə düşünür. Onun fikrincə, sənətə məhəbbəti digər bütün sevgiləri üstələyəndə insan sənətkar ola bilər. Beləliklə, müsahibimiz Xalq artisti Naibə Allahverdiyevadır.**



***– Azərbaycan qadını və səhnə. Bir əsr əvvələ qayıtsaq, qadın rollarını kişilərin oynadığı ölkəmizdə vəziyyət indi çox dəyişib. Lakin bu gün də səhnənin qadın yeri olmadığını düşünənlər az deyil. Necə oldu ki, bu baxışlar altında tiflisli bir qızcığaz Azərbaycana gəlib Xalq artirsi oldu?***

– Azərbaycanda mədəni inqilab qadınların səhnəyə də yolunu maneələrdən azad edib. Qadınlar səhnəmizi birdəfəlik fəth ediblər.

– Mənim bu sənətə uşaqlıqdan həvəsim olub. Hələ özüm də anlamırdım ki, bu nədir, amma televizorda bir kinonu ötürməzdim, hamısına baxırdım. Sonra da o filmlərdən xoşuma gələn obrazları yamsılayır, özümü onların yerində görürdüm. Bəzən anamın paltarlarından səhnə geyimi düzəldib çıxıb həyətdə səhnə qururdum, bir də görürdüm ki, qonşulardan xeyli tamaşaçım var. İnsanlar maraq göstərdikcə mən bir az da həvəslənirdim.

O vaxt hind filmləri çox dəbdə idi, əsasən onların obrazlarını yaratmağa çalışırdım, karandaşla özümə bığ çəkib kişi rollarını oynayırdım. Həyətdəki oturacaqlar mənim səhnəm idi. Görünür, taleyim belədir, özümdən asılı olmadan bu yolu seçmişəm. Ona görə də, kimsə mane ola bilməzdi, istiqamət səhnəyə doğru idi. Bakıya gəldim və indiki Mədəniyyət və İncəsənət Universitetinin aktyorluq fakültəsinə qəbul olundum.

***– Sənət müəllimləriniz sizə nə verdilər və siz onlara nə qaytardınız?***

– Aktyor üçün məktəb çox önəmlidir. Yaxşı sənət müəllimlərim olub. Səhnə danışığından çox ciddi, tələbkar sənətkar Xalq artistimiz Mikayıl Mirzədən dərs almışam. Dedikləri indiyə qədər yadımdadır. Deyirdi ki, aktyor əlçatmaz olmalıdır, kənardan ona baxırlar və davranışı başqalarına nümunədir: “Bizim sənətimiz zərgər dəqiqliyini sevir. Başqa bir insanın həyatını oynayanda özünü tamam unudub, həmin adam olmalısan. Amma, bu o demək deyil ki, Otellasansa Dezdemonanı həqiqətdə boğmalısan”.

Stanislavski deyirdi ki, tamaşaçı sənə inanmalıdır, inanmırsa, deməli, sən aktyor deyilsən. Mikayıl Mirzə onun sözünün üstündən bizə anladırdı ki, Dezdemonanı, həqiqətən, boğmursan, amma tamaşaçı elə zənn etməlidir ki, sən onu boğdun. Onu buna inandırmalısan. Oynadığın obraz sənin içindən keçməlidir.

Rauf və Zəminə Hacıyevlərdən, Məryəm Əlizadədən dərs almışam. Onlar bizə çox şey verdilər. Biz onlara nə verdik, onu demək bir az çətindir. Düşünürəm ki, bizi səhnədə görüb alqışlayıblarsa, deməli, biz də onlara ən azı, fəxarət hissi yaşatmışıq. Bizə verdiklərini səhnədən onlara yaxşı emosiya kimi ötürmüşük.



***– İlk rolunuz, başlanğıc uğurunuz?***

– İlk rolum Naxçıvan teatrında olub, çünki universiteti bitirdikdən sonra təyinatla ora göndərilmişdim. A.Dudarevin “Astana” pyesinin tamaşasında baş rol olan Alina obrazı ilə ilk dəfə səhnəyə çıxmışam. Tamaşanın rejissoru Əliqismət Lalayev idi, çox uğurlu alındı.

Naxçıvan əhalisi çox teatraldır, biletlər hamısı satılırdı. Hər tamaşa anşlaqla keçirdi. O teatrda 2 il ərzində yaxşı obrazlar oynadım. Sonra Bakıya qayıtdım , düşündüm ki, burada tez tanınaram, amma teatrlarda mənə iş vermədilər. Dəmir yolu kitabxanasında kitabxanaçı işləməli oldum. Bir müddət sonra Gənc Tamaşaçılar Teatrına inzibatçı kimi işə götürdülər. Yəni biletləri aparıb müəssisələrdə satırdım. Bəzən də hardasa unudub qoyurdum, sonra maaşımdan cərimə ödəməli olurdum, çünki sevmədiyim işlə məşğul idim. Mən peşəkar artist kimi bilet satmalı deyildim, səhnədə olmalı idim.

Bir dəfə o vaxtkı teatr rəhbəri mənə dedi ki, nə vaxtа qədər ac pişik ətə baxan kimi, buradan durub səhnəyə baxacaqsan? Çox pis oldum, məni işə götürmürdü axı. Heç bilmədən dilimdən çıxdı ki, cücəni payızda sayarlar, vaxt gələr mən bu səhnədə baş rolları oynayaram... O söhbətdən sonra getdim Mədəniyyət Nazirliyinə, o vaxtkı nazir Polad Bülbüloğlu ilə görüşdüm. Gənc Tamaşaçılar Teatrına vakansiya ayrıldı, məni keçirdilər ştata. Ondan sonra da xeyli vaxt mənə rol vermədilər.

Bir gün Ağaxan Salmanlı dedi ki, bu qızın yaxşı fakturası var, eşitmişəm Naxçıvan teatrında yaxşı rollar oynayıb, buna bir rol verək, görək necə oynayır. Onun quruluşunda “O da mənəm, bu da mənəm” tamaşasında oynadım, premyerada hamı obrazımı təriflədi və bununla da teatrda yolum açıldı. Çox təlatümlü sənət yolum olub. Tele-tamaşada adi bir katibə rolu ilə məşhurlaşdım.

***– Elə bu məsələnin üzərinə gəlirdim, sizə ən çox populyarlıq qazandıran rolunuz hansı olub?***

– Azərbaycan televiziyasında Şərif Qurbanəliyevin quruluş verdiyi “Yarımştat” tamaşasındakı Tomka obrazı. Tamaşa axşam efirə getdi, səhər metroda hamı mənə baxıb pıçıldaşırdı. Biri deyirdi axşam tamaşada olan qızdır? O birisi cavab verirdi ki, yox, onun metroda nə işi var. Bəzən mənə güclü qadın deyirlər, mənim o ifadədən xoşum gəlmir. Güclü olmaq istəmirəm, xoşbəxt qadın olmaq istəyirəm. Həmin gün də metroda çox utandım. Populyarlıq da xoşbəxtlik gətirmir...

***– Hər tanınmış aktyorun arxasında istedadlı və qayğıkeş rejissor dayanır. Sizin sənət haminiz, xeyirxahınız?***

– Tək bir rejissorum olmayıb, müxtəlif rejissorlarla işləmişəm. Şərif Qurbanəliyev, Ağaxan Salmanlı, Ramiz Mirzəyev, Cahangir Mehdiyev, Məhərrəm Bədirzadə, Loğman Kərimov, Nicat Kazımov. Mənim siz deyən kimi, hamim olmayıb. Obrazlarım da müxtəlif janrlıdır. Məsələn, Tamara Vəliyevanın “Mənim ağ göyərçinim” əsərinin tamaşasında faciəli ana obrazını oynamışam. “Dədə Qorqud”da Burla xatun olmuşam. Nicat Kazımov “Pəri cadu” tamaşasında mənə Şamama cadunu verdi. Çox uğurlu tamaşa oldu, festivallarda obrazım haqqında gözəl fikirlər səsləndi. İndi də Nicat Kazımovla işləyirəm.

***– Teatr forumunun çağırışı və hədəflərini özünüz üçün necə seçib-ayırmısınız?***

– Bizim Gənc Tamaşaçılar Teatrında yaxşı əsərlər hazırlanır. Gözəl də kollektivimiz var və onlar sənət fədailəridir. Bu yaxınlarda “Kod adı VXA” tamaşası çox böyük uğur qazandı. Bizim işimiz teatrdır, sənətdir, fədakarlarıq. Bu fədakarlığın nəticəsində artıq tamaşaçı teatra qayıdıb. Mənim yubiley gecəmə bütün biletlər satılmışdı. Tamaşaçı kassaya gəlib bilet alır. Onu sənət maraqlandırır, şoudan bezib. Bir o qalır ki, sənət adamlarına bir az həssas yanaşılsın, onların sənətlə bağlı arzuları, istəkləri nəzərə alınsın, kənarda qalmasınlar, kinoda, teatrda olsunlar. Məndən çox soruşurlar ki, niyə seriallarda yoxsunuz? Cavab verə bilmirəm. Serialların səviyyəsi, verilən qonorar məni qane etsə, əlbəttə, çəkilərəm.

***– Teletamaşalarda da maraqlı obrazlarınız var. Amma kinoda da bəxtiniz gətirib demək olmaz.***

– Rusiyada bir filmə çəkildim, dedilər ki, sizin gözləriniz kino ekranını tutur, oynamağınıza ehtiyac yoxdur. Soruşdular ki, yəqin, sizin kinoya çəkilməkdən boş vaxtınız olmur? Amma demək olar ki, kinoya çəkilməmişəm. Halbuki, kino fakturam var, hansı janrda desəniz, oynayaram. Yubileyimdə 20 dəqiqədə 5 janrda rol yaratdım. İstəyirəm daha gözəl obrazlar oynayım.

***– Xalq artisti, prezident mükafatçısısınız, 60 yaşın yüksəkliyindən baxanda hansı mənzərə görünür?***

– Hələ də təzadla dolu davam edən bir həyat görürəm. Yaşımı hiss etmirəm. Bilmirəm necə oldu ki, 60 il keçdi. Mənim içimdən bir uşaq Tiflisdən Bakıya boylanır. Qəlbim, ruhum sevgi ilə doludur. Hər kəsi, dünyanı sevirəm.

***Söhbətləşdi:***
***Ramilə QURBANLI***
***XQ***

## İdman

### Nicat Abasov “İddiaçılar turniri”ndə

**Kanadanın Toronto şəhərində şahmat üzrə “İddiaçılar turniri”nə start verilib.**




Yarışda iştirak edən Azərbaycan şahmatçısı Nicat Abasov ilk görüşündə rusiyalı Yan Nepomnyaşi ilə qarşılaşıb. N.Abasov bu görüşdə ağ fiqurlarla mübarizə aparıb.

Qeyd edək ki, turnirə aprelin 22-də yekun vurulacaq.

### UEFA-dan “Qarabağ”a 1,7 milyon avro

**Avropa Liqasında pley-offa vəsiqə qazanması və 1/8 final mərhələsinə yüksəlməsinə görə UEFA “Qarabağ” klubuna ödəniş edib.**



Bu dəfə “Köhlən atlar”a 1 milyon 700 min avro verilib.

Maliyyə vəsaiti AFFA-nın vasitəçiliyi ilə klubun hesabına köçürülüb.

### Minifutbolda Avropa rəqiblərimiz

**Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda keçiriləcək minifutbol üzrə 11-ci Avropa çempionatının püşkü atılıb.**



Azərbaycan millisinin də qitə çempionatında rəqibləri bəlli olub. Elşad Quliyevin baş məşqçisi olduğu kollektiv F qrupunda Fransa, İtaliya və Avstriya ilə üz-üzə gələcək.

Qeyd edək ki, Avropa çempionatı iyunun 1-dən 9-na qədər davam edəcək. Yarışın mükafatları uğrunda 24 komanda mübarizə aparacaq.

***Leyla SABİRQIZI***
***XQ***

## Gəncə: Eldar şamlarının “yaşıl” işığı

**Uşaq Səfirlər Məclisinin Gəncə şəhəri üzrə region nümayəndələrinin təşəbbüsü və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Heydər Əliyev Park-Xiyaban Kompleksində ağacəkmə aksiyası keçirilib.**

“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ağacəkmə aksiyasında Gəncə Uşaq Səfirlər Məclisinin Gəncə şəhəri üzrə 2 region nümayəndəsi və onlara dəstək üçün seçilən 20 fəal məktəbli iştirak edib. Aksiya zamanı iştirakçıların sayına uyğun olaraq 22 eldar şamı əkilib.

Uşaq Səfirlər Məclisinin Gəncə şəhəri üzrə region nümayəndələri keçirilən bu tip aksiyaların il ərzində davam etdiriləcəyini bildiriblər. Növbəti aksiya zamanı şəhər ərazisində olan yaşıllıq zolaqlarına qulluq göstərilməsi nəzərdə tutulur.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***



## Hava




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 6-11°, gündüz 13-18° isti olacaq.**

Atmosfer təzyiqi 763 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-74, gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin axşam şimal və qərb rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-11°, gündüz 18-23°, dağlarda gecə 2-7°, gündüz 10-15° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Sağlamlıq

### Doyunca ye ərik, alma – qaraciyəri dərdə salma

***Qaraciyərin və digər orqanların işini yaxşılaşdıran ən faydalı meyvə tərkibindəki pektin sayəsində pestisidləri, ağır metal ionlarını və sağlamlığa mənfi təsir göstərən digər zərərli maddələri neytrallaşdıran ərikdir.***

Bu meyvənin tərkibində A, C, B, B1, E vitaminləri, beta-keratin, maqnezium, fosfor, yod, dəmir, kalium kimi mineral maddələr var. Tibb elmləri namizədi, həkim Anatoli Peçenka bildirib ki, qaraciyər xəstəliklərində daha çox əriyin turş növlərindən istifadə etmək lazımdır. Deyib ki, yalnız meyvənin təkcə özü deyil, ondan hazırlanan içkilər də faydalıdır. Əriyi son vaxtlar detoks məqsədilə smuzilərin tərkibində də istehlak etmək olar: bu yolla sutkalıq vitamin və mineral dozanı almaq olar. Ərik qalxanabənzər vəzinin də işini yaxşılaşdırır.

Həkim Tatyana Zaletova isə qaraciyəri qorumaq üçün ən faydalı meyvənin turş alma olduğunu iddia edib. Bildirib ki, ilboyu əlçatan olan almada daha çox pektin, lif və polifenollar var. Məhz polifenollar toksiki maddələrin zərərsizləşdirilməsi ilə məşğul olan orqanların işini dəstəkləyir. Pektin isə bağırsaq mikroflorası üçün vacib probiotikdir.

Həkim deyib: “Yaxşı olar ki, maksimal dərəcədə müxtəlif növ, yerli almalar yeyəsiniz. Almanın qabığında polifenol və lif olduğundan onu soymadan yeyin”.



***Z.HÜSEYNLİ***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kollektivi bölmənin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü, tarix elmləri doktoru, professor

**QÜDRƏT İSMAYILZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3877
SİFARİŞ 712
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00